www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 mart 2015-ci il Cümə axşamı № 55 (6083) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda ilahiyyatçı həbs olundu

yazısı səh.14-də

**Gündəm**

### Şeyx Həcc qiymətlərini artırdı - səbəblər



Devalvasiya QMİ sədrini də "vurdu"; bu il müqəddəs torpaqlara getmək istəyənlər 4700-5750 dollar civarında xərc çəkməli olacaqlar; bu rəqəm qonşu ölkələrlə müqayisədə də çox bahadır...

yazısı səh.11-də

### 15 mart mitinqi ilə bağlı müəmma

yazısı səh.4-də

### Həbsdəki "OMON"çuların yaxınları əfv üçün prezidentə müraciət etdilər

yazısı səh.5-də

### Azərbaycan Ermənistana yatırım qoysunmu - rəsmilərin şok cavabları

yazısı səh.6-da

### Ermənilərin əhəmiyyət vermədiyi beynəlxalq çağırışlar...

yazısı səh.9-da

### Aslan Aslanovun "arqan əməliyyatı" haqda yeni xəbər

yazısı səh.15-də

### bp Xəzəri məhv edir - dənizə yüz ton kimyəvi maye dağılıb!

yazısı səh.10-da

### Qızıl dünyada ucuzlaşır, Azərbaycanda isə bahalaşır

yazısı səh.14-də

### Həbs edilən QAT-çılara ağır ittiham

yazısı səh.11-də

### Dollar avronu əzməkdə davam edir, bəs manat?

yazısı səh.13-də

### Dörd bank bağlana bilər

yazısı səh.12-də

### Bakı-Sumqayıt yolunda dəhşətli qəza - «04» kül oldu

yazısı səh.14-də

## Nəqliyyat şefinin müflis etdiyi şəxsin müəmmalı ölümü

# NAZİR ZİYA MƏMMƏDOVLA ÇƏKİŞƏN İŞ ADAMI GÜLLƏLƏNDİ

Füzuli Qasımov ürəyinə açılan atəşlə dünyasını dəyişib; yaxınları onun intihar etdiyinə inanmır; nazirlə iş adamının çəkişməsinin detalları "Yeni Müsavat"da!!!




yazısı səh.5-də

## "Transxəzər" layihəsinə Rusiya və İrandan ortaq təhlükə

Rusiya-Qərb qarşıdurması gücləndikcə Xəzər amilinin rolu da artır; şimal və cənub qonşularımızın dənizi sürətlə hərbiləşdirməyə başlamasının yeni pərdəarxası...

yazısı səh.8-də



*Hikmət Hacızadə:*

**"ABŞ üçün aeroport Azadlıq-Radiosundan vacibdir"**

yazısı səh.4-də



*Əli Həsənov:*

**"Daxili və xarici qüvvələr ayrı-ayrı mövcud olmayan məsələləri uydururlar"**

yazısı səh.7-də



*Abdolbari Goozal:*

**"Bahalaşma qaçılmazdır"**

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 55 (6083) 12 mart 2015



## Azərbaycan və Pakistan prezidentləri təkbətək görüşdü

**Azərbaycana rəsmi səfərə gələn Pakistan İslam Respublikasının prezidenti Məmnun Hüseynin rəsmi qarşılanma mərasimi olub. Sonra Azərbaycan prezidenti İlham Əliyevin və Məmnun Hüseynin təkbətək görüşü olub. President.az saytı xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq prinsiplərinə söykənən ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub.**

Pakistan prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik bildirilib. Ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edilib.

Söhbət zamanı ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Dünya liderləri nə qədər maaş alır?

**Aldığı maaşın məbləğinə görə birinci yerdə ABŞ prezidenti Barak Obama gəlir. O, ilik 400 min dollar maaş alır. İkinci yeri illik 260 min dollar maaşla Kanada prezidenti Stephen Harper tutur. Üçüncü yer Almaniya prezidenti Angela Merkelindir. O, illik 234,4 min dollar maaş alır.**

Güney Afrikanın prezidenti Jakob Zuma isə 223,5 min dollarlıq illik gəliri ilə dördüncü yerdədir.

İngiltərə dövlət başçısı David Kameronun illik maaşı isə 214,8 min dollardır.

Növbəti pillədə Yaponiya prezidenti Şinzo Abe durur. O, illik 202,7 min dollar maaş alır.

Fransa prezidenti Fransua Olandın illik maaşı 194,3 min dollar, Rusiya prezidenti Vladimir Putinin maaşı isə 136 min dollardır.

İtalya prezindeti Matteo Renzinin illik maaşı isə 124,6 min dollar təşkil edir.

Brazilyanın dövlət başçısı Dilma Rousefin illik maaşı 120 min dollar, Hindistan prezidenti Narendra Modinin maaşı 30,3 min dollar, Çin Xalq Respublikasının prezidenti Xi Cinpinqin illik gəliri 22 min dollardır.

❑ Nərgiz LİFTİYEVA

## AXCP-nin Sumqayıt təşkilatının sədri niyə həbs edilib?

### İsa Qurbanov sərxoş halda maşın sürməkdə ittiham olunur

**Martın 11-də AXCP Sumqayıt şəhər təşkilatının sədri İsa Qurbanov inzibati qaydada həbs edilib. AXCP sədrinin müavini Gözəl Bayramlı "Amerikanın Səsi" radiosuna açıqlamasında İ.Qurbanovun günahsız həbs edildiyini söyləyib. Onun sözlərinə görə, həbsin səbəbi Milli Şuranın martın 15-də "Talana son!" şüarı ilə keçirəcəyi mitinqlə əlaqədardır.**

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov musavat.com-a bildirib ki, AXCP sədrinin müavini Gözəl Bayramlı İ.Qurbanovun həbsinin səbəbi ilə bağlı mətbuata yanlış və həqiqəti əks etdirməyən məlumat verib.

E.Zahidov qeyd edib ki, İ.Qurbanovun həbsinin onun siyasi fəaliyyəti ilə heç bir əlaqəsi yoxdur: "Sumqayıt sakini İsa Qurbanov martın 5-də, gecə saatlarında avtomobili sərxoş vəziyyətə idarə etdiyi üçün yol patrul xidmətinin əməkdaşı tərəfindən saxlanılıb. Qanunvericiliyə uyğun olaraq dərhal həkim müayinəsindən keçirilib və sərxoş olduğu müəyyən edilib. Avtomobili sərxoş vəziyyətdə idarə etməkdə təqsirləndirilən İ. Qurbanov məhkəməyə aparılarkən polis əməkdaşlarına tabesizlik də göstərib. Sumqayıt Şəhər Məhkəməsi onun barəsində 5 sutkalıq inzibati həbs qərarı verib. Bir daha vurğulayıram ki, onun həbsinin siyasi fəaliyyəti ilə qətiyyən əlaqəsi yoxdur. Vəzifəsindən, siyasi və dini baxışından asılı olmayaraq hər kəs qanunların tələbinə riayət etməlidir".

❑ EMİL

### Başsağlığı

**Milli Strateji və Düşüncə Mərkəzinin sədri İsa Qəmbər
Osman Kazımova əzizi
Bayram kişinin
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı
Osman Kazımova əzizi
Bayram kişinin
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# Abdolbari Goozal: "Bahalaşma qaçılmazdır"



**"Azersun Holdinq"in Müşahidə Şurasının sədri Abdolbari Goozal manatın devalvasiyası və bu hadisənin biznes sektoruna təsiri barədə fikirlərini açıqlayıb. "Marja"nın məlumatına görə, III Beynəlxalq "Caspian Energy Forum-2015"də çıxış edən Abdolbari Goozal bildirib ki, Azərbaycanda devalvasiya birdən oldu: "34 faiz devalvasiya az deyil. Acını hər kəs hiss etdi. Hazırda biz də bu acını çəkirik. Təməl qida məhsullarının istehsalı üzrə "Azersun" xaricdən orta hesabla 50% asılıdır. Bu, bəzi məhsullarda 60%, bəzi məhsullarda isə 10%-dir. Məsələn, duz kimi. Bunun yükünü biz və idxalçı firmalar çəkir. Bu, inşallah, yavaş-yavaş düzələcək. Bu şoku Azərbaycan çox rahatlıqla keçirdi".**

Abdolbari Goozal qeyd edib ki, devalvasiya yerli istehsal olan məhsulların qiymətlərinin 34% deyil, 15-17% civarında artmasına səbəb olacaq: "Bəzi xaricdəki dostlarımız bizə zəng vuraraq qiymətləri sabit saxladığımızı soruşurlar. Əlbəttə, devalvasiya yerli məhsulların qiymətinin artmasına öz təsirini göstərəcəkdir. Devalvasiya, yəni manatın 34% uzuclaşması yerli istehsal olan məhsullarda 100% deyil, 50% əks olunacaqdır. İdxal mallarının isə devalvasiyanın 100 faizi qədər, yəni 34% bahalaşması qaçılmazdır".

Abdolbari Goozal deyib ki, Azərbaycanda tekstil və kənd təsərrüfatında böyük potensial var. Dövlət və özəl sektor bu sahələrə diqqəti artırmalıdır.

## Bu gün dörd vicdan məhbusunun məhkəməsidir

### Rauf Mirqədirovun istintaqı aparılmır; başqan müavininin ilkin məhkəmə hazırlıq iclası keçiriləcək

**Bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində üç vicdan məhbusunun məhkəmə prosesi keçiriləcək. İlk olaraq, saat 10:30-da İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun prosesi başlayacaq. Məhkəmə şahidlərin ifadələri ilə davam etdiriləcək.**

Saat 14:00-da müsavatçı gənc Sirac Kərimlinin növbəti məhkəməsi başlayacaq. Vəkil Nemət Kərimli musavat.com-a proses barədə bunları dedi: "Təcili yardımla bağlı məhkəmə sorğuları verilib. Təhlükəsizlik kameralarının görüntüləri ilə bağlı sorğumuz təqdim olunub. Məhkəmədə bu sorğuların cavabları elan olunacaq. Ondan sonra maddi sübutların elan olunması mərhələsi başlayacaq".

Martın 11-də Müsavat başqanının müavini Fərəc Kərimlinin ilkin məhkəmə hazırlıq iclası keçirilməli idi. Lakin vəkil Nemət Kərimlinin üzürlü səbəbdən iştirak edə bilməməsi ilə əlaqədar proses bu gün saat 15:00-a təyin olunub.

Bu gün daha bir vicdan məhbusunun və məhkəməsi olacaq. Araşdırmaçı jurnalist Xədicə İsmayılın həbs müddətinin iki ay uzadılması ilə bağlı verilən apelyasiya şikayətinə baxılacaq. Proses saat 12:30-da başlayacaq. Bu barədə vəkil Fariz Namazlı sosial şəbəkələrdə məlumat verib.

Bu arada qeyd edək ki, Xədicə İsmayılın adına facebookda olan səhifədə onun 15 martda bahalaşma əleyhinə keçiriləcək mitinqlə bağlı fikirləri yayılıb: "Möhkəməm. Ayın 15-i mitinq olacaq. Azadlıqda olsaydım mütləq bir vətəndaş kimi qatılardım. Qanunsuz olaraq həbsdə olsam belə çöldə nələrin baş verdiyindən xəbərim var".

İsmayıllı hadisələrinə görə həbs edilən Müsavat başqanının müavini Tofiq Yaqublu və REAL sədri İlqar Məmmədov isə ailələri ilə telefon vasitəsilə danışıblar. Yaxınlarının verdiyi məlumat görə, hər iki tanınmış məhbusun vəziyyəti normaldır.

**"Ayna-Zerkalo" qəzetinin həbsdəki əməkdaşı Rauf Mirqədirovun istintaqı dondurulub. Heç bir istintaq hərəkəti aparılmır. Jurnalistin vəkili Elmar Süleymanov hüquqlarının daim pozulduğunu bildirdi:** "Bir çox halda hüquqlarımız pozulur. Onlar uçun bu məsələlər çox xırdadır. Nə qədər imkanları çatırsa, istintaqı uzadacaqlar. Bu hal hər bir insana çox pis təsir edir. Heç bir sübut olmadan Mirqədirov həbsdə saxlanılır. Bu kədərləndirici haldır. İstintaq müddəti insanın hüquqlarını məhdudlaşdırmaq üçün verilmir".

## Xədicə İsmayılı 8 martda necə təbrik ediblər?



**"Kameraya bir ədəd gül və 1 ədəd plitka şokolad verdilər. 8 martda kamerada olan 3 qadını Ədliyyə Nazirliyinin Penitensiar Xidmət İdarəsi məhz belə təbrik etdi".**

Bunu məhbus jurnalist Xədicə İsmayıl bildirib. Onun Azadliq Radiosuna Kürdəxanı həbsxanasından çatdırdığı məktubda deyilir ki, əslində Penitensiar Xidmət qadınlara ehtiramını başqa yolla göstərə bilərdi - məhbus qadınların portretini cızan bir statistika aparmaqla.

Xədicənin özünün hazırladığı məhbus-qadın portreti belədir:

a) cənub bölgəsi - əsasən "milli maddə" (234 - narkotik vasitələrin qanunsuz dövriyyəsi) ilə məhkum olunanlar;

b) erkən nikahlar və təhsilsizlik üzündən baş verən cinayətlərin cəzasını çəkənlər;

c) kişilər tərəfindən cinayətə təhrik və ya məcbur edilənlər;

d) sevgi və ya qısqanclıq məhbusları.

Azərbaycanda qadınları həbsxanaya gətirən əsas səbəblərin yuxarıdakı siyahının a və b bəndlərinin olduğunu deyən Xədicə vaxtilə jurnalist kimi həmin problemləri qaldırdığını xatırladır: "20 il əvvəl biz jurnalistlər cənub bölgəsinin problemləri və erkən nikahlar barədə danışanda bu nəticəni gözləməliydilər".

Məhbus jurnalist bildirir ki, indi ölkənin şimal bölgəsində də eyni problem var və bir azdan bu problemin bütün ölkəyə yayılacağından ehtiyat edir.

❑ SEVİNC

## Əsgəri öldürən çavuş həbs edildi

**Azərbaycanda əsgəri avtomat silahdan atəş açaraq qətlə yetirən çavuş həbs edilib. Hərbi Prokurorluqdan verilən məlumata görə, Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin əsgəri Bayramov Anar Günəş oğlunun avtomat silahdan açılmış atəş nəticəsində ölməsi faktına görə 7 mart 2015-ci il tarixdə Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə cinayət işi başlanılıb, cinayət işi üzrə Respublika Hərbi Prokurorluğunun Ağır cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində aparılmış təxirəsalınmaz istintaq hərəkətləri nəticəsində əsgər Anar Bayramovun həmin hərbi hissənin kiçik çavuşu Bəyverdiyev Tural Gülmirzə oğlu tərəfindən avtomat silahdan açılmış atəş nəticəsində qəsdən öldürülməsi müəyyən edilib.**

Toplanmış sübutlar əsasında 9 mart 2015-ci il tarixdə Tural Bəyverdiyev Azərbaycan Respublikası CM-in 120.2.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində Gəncə hərbi məhkəməsinin qərarı ilə həbs-qətimkan seçilib.

Hazırda zəruri istintaq hərəkətləri davam etdirilir, iş üzrə tam, hərtərəfli və obyektiv istintaq aparılması və müvafiq qərar qəbul edilməsi təmin ediləcək.





## Müsavat zona müşavirələri keçirir

Müsavat Partiyasında struktur fəaliyyəti ilə bağlı qəbul olunan qərarlara əsasən 3 aydan gec olmayaraq respublikanın bütün ərazisində partiyanın rayon (şəhər) təşkilatlarının zona müşavirələri keçirilir. Mart ayının əvvəllərindən partiya rəhbərliyinin nümayəndələrinin iştirakı ilə belə müşavirələr Şəki, Siyəzən, Cəlilabad, Şamaxı, Göyçay, Şirvan, İmişli, Gəncə, Agstafa, Salyan, Neftçala şəhərlərində keçirilib. 50-dən çox rayon təşkilatlarının nümayəndələrini əhatə edən zona müşavirələrində Müsavat Partiyasının rəhbər şəxsləri iştirak ediblər.

Zona müşavirələrində Müsavat Partiyası Məclisinin 25 dekabr tarixli toplantısında qəbul edilən "2015-ci il üçün Müsavat Partiyasının Fəaliyyət İstiqamətləri" haqda sənəddə qəbul olunan vəzifələrin həyata keçirilməsinin vəziyyəti ilə bağlı məsələlər müzakirə edilib. Qərarların icrası, rayon (şəhər) təşkilatların indiki durumu və görüləcək işlər barədə fikir mübadiləsi aparılıb.

Müşavirədə həmçinin ölkədəki iqtisadi böhran, manatın ucuzlaşması və digər ölkədaxili ictimai-siyasi vəziyyətə dair məsələlər, bu durumda Müsavat Partiyasının görəcəyi işlər barədə təkliflər dinlənilib. Parlament seçkilərinə hazırlıq çərçivəsində rayon (şəhər) təşkilatlarının dislokasiyasına daxil olan seçki dairələrindən irəli sürüləcək namizədlərin müəyyən edilməsi, təbliğat kampaniyası dövründə fəaliyyət göstərəcək təbliğatçıların, seçki günü seçkiləri müşahidə edəcək müşahidəçilərin və məntəqə və dairə seçki komissiyalarına təqdim olunacaq komissiya üzvlərinin, həmçinin deputatlığa namizədlər üçün imza toplayacaq nümayəndələrin siyahılarının hazırlanaraq təşkilat departamentinə təqdim edilməsi və başqa məsələlərə dair tapşırıqlar verilib. Bu tapşırıqların 6 həftə ərzində icra olunması haqda Divanın qərarı rayon (şəhər) təşkilatı rəhbərlərinin diqqətinə çatdırılıb. Zona müşavirələri bu həftə də davam etdiriləcək.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Cipgir dostum

**Bir cipgir dostum var. Əlləri qızıldır. Çox səliqəli iş görür. Gördüyü işi çox incəliklə yerinə yetirdiyi üçün ona həmişə "Qızılbarmaq" deyə müraciət edirəm. Elə təmiz və səliqəli iş gördüyünə görə cibində həmişə kifayət qədər pulu olur. Hələ üstəlik qara gün üçün bir az arxaya da atır, dosta-tanışa əl tutur. Cipgir dostum öz sənəti ilə fəxr edir və onun vurğunudur.**

Bir dəfə razılaşdırılmamış etiraz aksiyasında iştirak etdiyimə görə 15 sutkalıq inzibati həbs cəzası almışdım. Cəzamı yatıb çıxandan sonra evə gələndə gördüm ki, hətta çörək almağa belə pul yoxdur. Üstəlik də həbsdə olduğum müddətdə köşə yazıları yazmadığımdan redaksiyanın verdiyi və evdə "qəməndir"in də çox bərəkətli saydığı qonorara da ümid etməyin yeri yox idi. Haqsız 15 sutka mənə necə pis təsir etmişdisə, kompüterin qabağında oturub təzə fayl açmaqdan başqa bir iş görə bilmədim. Ağlıma bir mövzu və sujet gəlmədiyindən klaviaturanı taqqıldatmağa imkan və ehtiyac olmadı. Evdəkilər isə yemək istəyirdilər. Götürüb utana-utana cipgir dostuma zəng etdim və bir az xərclik istədim. Sağ olsun, güman etdiyimdən xeyli çox pul verdi. Amma baxma, bir məqsədlə verilmiş pul nə qədər çox olsa da, ailənin maksimum 3-4 günlük ehtiyacını ödəyə bilər. Beləliklə, cipgir dostumun verdiyi pulu uğurla xərcləyib qurtardıq. Ümidim yenə cipgir dostuma idi. Yenə də telefonu götürüb ona zəng etdim. Ancaq bu dəfə pul istəmədim, dedim ki, səninlə işləmək istəyirəm. O, çox təəccübləndi, qulaqlarına inanmadı və təkrar-təkrar soruşdu ki, doğrudanmı onunla işləmək istəyirəm. Mənim qəti danışdığımı görüb razılaşdı. Dedim ki, əlbəttə ki, mənim bu sənətdən başım çıxmır və heç vaxt bu işlə məşğul olmamışam, ona görə də əsas işi o görəcək, mənsə bacardığım qədər ona kömək edəcəm, tapşırıqlarını yerinə yetirəcəm. Səhər saat 10-da metronun "Neftçilər" stansiyasındakı dayanacaqda görüşməyi qərara aldıq. Mən deyilən vaxtdan yarım saat əvvəl gəlib cipgir dostumu gözləyirdim. Nəhayət, o gəlib çıxdı. Çox həyəcanlı idim. Bir neçə yarıboş, müxtəlif marşrutlara aid avtobuslar gəlib keçdi. Lakin biz gözləyirdik. Bir az gözlədik və tıklım-tıklım dolmuş 94 nömrəli marşrut avtobusu gəlib dayanacaqda saxladı. Cipgir dostum dedi ki, bizim iş üçün ən ideal marşrut budur. Zorla birtəhər arxa qapıdan avtobusa minə bildik... O gün çox yaxşı işlədik. Düzdür, mən bu işin heç "a"sına bələd deyildim. Amma cipgir dostum yavaş-yavaş öyrədir, məni işə alışdırırdı. 17 gün dalbadal həmin səmtdə işlədik. Amma arada marşrutları dəyişdirirdik. Həmin avtobuslarda da dəhşətli basabas olurdu. Əsas o idi ki, həmin marşrutlar da 94 kimi iş yerimizə tam uyğunuydu.

Nəhayət, işimizi qurtardıq. Cipgir dostum dedi ki, mənzilin sahibi sabah gəlib gördüyümüz işə baxıb pulumuzu verəcək. Mənə dedi ki, mənzilin sahibi hansısa rayon prokurorluğunda müstəntiq işləyir və işi 18 min manata danışmışıq. Ertəsi gün müstəntiq gəlib çıxdı. Otaqlara, mətbəxə, sanitariya qovşağına və dəhlizə çox diqqətlə göz gəzdirdi və işi çox bəyəndi. Pulu verməmişdən əvvəl cipgir dostumun əl işini, o cümlədən usta əllərini xeyli tərifledi. Sonra dedi ki, bir saatdan sonra gəlib "Ayşən" marketinin qabağında olun, gətirib pulunuzu verəcəm. İndi birbaşa işdən bura gəldiyim üçün üstümdə pul yoxdur. Cipgir dostum tərəddüd etmədən razılaşdı. Hə, yadımdan çıxdı, sizə yaxın dostuma niyə cipgir deməyi unutdum. O, mənim çox yaxın dostumdur, cip maşınlarının çox vurğunudur. Həmişə deyirdi ki, alsa, ancaq cip maşını alacaq. Şəhərdə gözünü o yana-bu yana şütüyən cipdən çəkə bilmirdi, bir sözlə, cip dəlisi idi. Məşhur tamaşada xaş sevənlərə "xaşist" deyildiyi kimi, mən də dostuma zarafatla cipgir deyirdim.

Deyilən vaxt "Ayşən" marketin qabağında durmuşduq. Bu vaxt düz yanımızda parpar parıldayan bir qara cip dayandı və ondan 4 nəfər bazburudlu adam düşdü. Düşən kimi də dostumun üstünə şığıyıb qollarını qanırıb üst-başını axtarmağa başladılar və onlardan biri onun arxa cibindən bir sellefon bağlaması "tapdı". Halbuki mən özüm gördüm ki, həmin adam o bağlamanı özünün gödəkcəsinin altından çıxartdı. Mənə heç nə demədilər, amma dostumu o qara cipə basıb apardılar. Səhərə qədər ondan bir xəbər öyrənə bilmədim, telefonuna da zəng çatmırdı. Ondan ancaq ertəsi gün xəbər tuta bildim. Özü zəng elədi. Danışıb bir yerdə görüşdük. Başına gələnləri nəql etdi. Dedi ki, dünən poqonlu cibgirlər *(yeri gəlmişkən, cipgir dostum "poqonlu cibgirlər" deyəndə, adamın cibinə narkotik atıb-tutan polisləri nəzərdə tuturdu)* cibimə külli miqdarda sayılacaq narkotik atıb "oformit" elədilər. Məni mənzilini təmir etdiyimiz müstəntiqin yanına apardılar. O dedi ki, sənədləşdirilən miqdar həddən çoxdur, bu işi ancaq 20 min manata bağlamaq olar. Amma sənin xətrinə bu işi 18 minə bağlaya bilərəm. Sonra da 18 mini qabağıma qoyub dedi ki, əl haqqını götür. Mən də həmin pulları onun qabağına qoyub dedim ki, çevir məni balalarının başına, bu işi bağla getsin. Mən həmin müstəntiqin belə əməlindən çox sarsılmışdım. Amma cipgir dostumun dedikləri məni daha çox sarsıtdı. Mənə dedi ki, cipin pulu cəhənnəmə olsun, sənin zəhmət haqqını ödəyə bilmədiyimə görə çox üzülürəm.

**❑ Tofiq YAQUBLU**

**Xəbər verildiyi kimi, martın 10-da Qondarma "Dağlıq Qarabağ Respublikası"nın "Apelyasiya Məhkəməsi" kəlbəcərli girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyev barəsindəki "birinci instansiya məhkəməsinin hökmünü" qüvvədə saxlayıb.**



# Kəlbəcərli girovları necə azad etmək olar?

## Qondarma rejim qərarı qüvvədə saxlayıb; verilən qərara reaksiyalar gəldi

**Sahib Əsgərov:** "Dilqəm elə oğuldur ki, nə sınası, nə də əyiləsidir"

**Hikmət Hacıyev:** "Lazımi tədbirlər görülür"

**Müzəffər Baxış:** "Burada Rusiyanın da maraqları var"

**Dilqəm Əsgərovun qardaşı Sahib Əsgərov "Yeni Müsavat"a açıqlamasında verilən qərarın əhəmiyyətsiz olduğunu söylədi:** "Heç bir xəbər yoxdur. Hamı kimi mən də internetdən xəbərləri oxuyuram. Qırmızı Xaç Komitəsi ayda bir dəfə görüşə bilir. Bu həftə də görüşməlidir. Görüşün nəticəsini gözləyirik. Qərarın heç bir mənası yoxdur. 22 il, yaxud ömürlük verdilər. Nə dəyişdi? Lap 5 il versinlər. Heç nə dəyişmir. Əsas odur ki, onları azad etmək lazımdır. Dünyanı məcbur etmək lazımdır ki, ermənilərə təzyiq etsinlər. Bu baxımdan verilən qərarlar mənasızdır. Tam qanunsuz bir işdir. Öz torpağına getdiyinə görə bu cür qərarla üzləşiblər".

**Sahib Əsgərov qardaşının azad olunacağına ümid etdiyini də qeyd etdi:** "Amma hələ də nəticəsini görmürəm. Şahbaz Quliyevi bir o qədər tanımırdım. Dilqəm elə oğuldur ki, nə sınası, nə də əyiləsidir. Yüz məhkəmə olsa belə, onun üçün fərqi yoxdur. Özü məhkəmədə bildirdi ki, heç bir günahı yoxdur".

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev girovların azadlığa buraxılması istiqamətində görülən işlərdən danışdı:** "XİN-in qüvvədə saxlanılan "hökm"lə bağlı açıqlaması oldu. XİN ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri ilə bu istiqamətdə müzakirələrini davam etdirir. Eyni zamanda Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə bu məsələdə aktiv işlər aparır. Beynəlxalq təşkilatlarla də müntəzəm danışıqlar aparılır. ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə danışıqlar ona görə aparılır ki, bu qurum münaqişənin həllinə və eyni zamanda bundan irəli gələn məsələlərin humanitar həllinə cəlb olunub. Bu qurumun "Həştərxan bəyanatı"nda girov və əsirlərlə bağlı məsələlər var. Təəssüflər olsun ki, Ermənistan tərəf öz mövqeyinə sadiq qalmır. Buna görə əsas təmas xəttimiz ATƏT-in Minsk Qrupunun həmsədrləridir. Heç vaxt gələcək haqqında danışmırıq. Məsələ ondadır ki, vətəndaşlarımız qeyri-qanuni şəkildə girov götürülüblər. Artıq Ermənistana girovlarımızın azad edilməsi istiqamətində çağırışlar edilir. Onları azad etmək üçün bütün lazımı tədbirlər görülür".

**Hüquqşünas Müzəffər Baxış kəlbəcərli girovların azadlığı üçün ümidin yalnız Allaha qaldığını söylədi:** "Son qərardan sonra demək çətindir ki, Avropa Məhkəməsinə necə müraciət etmək olar. Əsas problem ondan ibarətdir ki, Avropa İnsan Hüquqları Məhkəməsinə bu məsələni çıxarmaq çətindir. Bu qərarı tanınmayan bir respublikanın "məhkəməsi" çıxarıb. Bu "respublika" Avropa Şurasının üzvü deyil. Əslində qalsa, hüquqi prosedurallarla bu məsələni həll etmək qeyri-mümkündür. Yalnız ümid təzyiqlərə qalır. Rejimə təzyiq göstərilməlidir. Effektli olmalıdır. Digər məsələ Rusiya faktorudur. Çünki onlardan biri (Dilqəm Əsgərov) bu ölkənin vətəndaşıdır. Rusiya daha ciddi təzyiqlər edə bilər. Amma görünür ki, burada Rusiyanın da maraqları var. Ən real təzyiq bu ölkə tərəfindən ola bilər. Təəssüf ki, bu da edilmir. Ancaq ümid qalır Allaha".

Qeyd edək ki, ötən ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər. Digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H.Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.

Separatçı Dağlıq Qarabağ rejiminin "məhkəməsi" ötən il dekabrın 19-da D.Əsgərovun ömürlük, Ş.Quliyevin isə 22 il müddətinə azadlıq məhrum edilməsi barədə "hökm" çıxarıb.

**❑ Cavanşir ABBASLI**

# "Erməni idmançılar Bakıya gəlməməlidir"

## Akif Nağı: "Torpaqlarını zəbt edənlər ölkəmizdə yarışa qatıla bilməz"

**Ermənistan idmançıları Bakıda keçiriləcək I Avropa Oyunlarında iştirak edəcək. Qeyd edək ki, daha əvvəl Ermənistan Güləş Federasiyası Bakıda keçiriləcək I Avropa Oyunlarında erməni güləşçilərin iştirakının əleyhinə olduğunu açıqlamışdı.**



Federasiya məsələni araşdırdıqdan sonra erməni güləşçilərin oyunlarda iştirakını mənasız və qeyri-məqsədəuyğun hesab etmişdi. Ermənistanın idman naziri Qabriel Kazaryan isə bildirmişdi ki, ölkə güləşçiləri I Avropa Oyunlarında mütləq iştirak etməlidirlər. Sonda Ermənilər iyunda Bakıda keçiriləcək yarışda təkbətək idman növlərində mübarizə aparmağa qərar veriblər. Ermənistan millisinin Avropa Oyunlarında iştirak edəcəyi idman növləri məlum olub. Ermənistan Milli Olimpiya Komitəsi ölkəmizə güləş, sambo, cüdo, taekvondo, boks və atıcılıqda təmsil olunmağı məqsədəuyğun hesab edib. Bu 6 növdə isə hansısa idmançıya məcburiyyət tətbiq olunmayacaq. Hər bir kəs öz istəyi ilə komandaya cəlb ediləcək. Oyunlar iyunun 12-28-də Bakıda keçiriləcək və 20 növ üzrə yarışlar təşkil olunacaq.

**Ermənilərin Bakıya gəlməsinə isə etirazlar var. Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Yeni Müsavat"a bildirdi ki, onların mövqeyi birmənalıdır. QAT sədri hesab edir ki, işğalçı dövlət Azərbaycanın ev sahibliyi etdiyi yarışmada iştirak edə bilməz. A.Nağı təşkilatın buna imkan verməməyə çalışacağını açıqladı. O, ermənilərin yarışmanın vaxtından əvvəl ölkəni tərk etməli olacaqlarını vurğuladı:** "Bizim mövqeyimiz birmənalıdır və Ermənistan idmançılarını Bakıya dəvət edənlər də bunu düşünsünlər. Biz onların Bakıya gəlməsinin əleyhinəyik və ermənilərin burada yerləşməsinə imkan verməyəcəyik. Əgər gizli şəkildə yerləşmə olacaqsa, onların vaxtından qabaq getməsi üçün yarışlar pozulacaq. Ona görə də vaxtından əvvəl getməli olacaqlar".

**A.Nağı aksiyalar və digər tədbirlər keçiriləcəyini, həbsdən qorxmadığını söylədi:** "Aksiyalar da olacaq, şəraitə uyğun tədbirlər də. Qeyri-standart yollardan istifadə ediləcək. Mən həbsə hazıram. Amma Ermənistan işğalçı dövlətdir və dünya başa düşməlidir ki, Azərbaycan torpaqlarını zəbt edənlər ölkəmizdə yarışa qatıla bilməz".

**❑ Emil SALAMOĞLU**

YENİ MÜSAVAT
N 55 (6083) 12 mart 2015

# Amerika Azərbaycanı Rusiyaya "uduzub"?





## Hikmət Hacızadə: "ABŞ üçün aeroport AzadlıqRadiosundan vacibdir"

## Ərəstun Oruclu: "Hakimiyyət indi əl-ayağa düşüb ki, gəlin, münasibətləri bərpa edək"

**İqtidar daxilində anti-Amerika ritorikası güclənib. Hətta SSRİ ilə ABŞ arasında gedən "soyuq müharibə" dövründə belə tərəflər bir-birinə hansısa mərhələdə güzəştə gedirdi. Son illərdə isə rəsmi Bakının götürdüyü kurs Amerikanın Azərbaycanı itirməsi kimi qiymətləndirilir. Artıq Birləşmiş Ştatların Bakıda yalnız səfirliyi qalıb. Hökumət isə səfirliyə yeni bina tikməyə belə yer ayırmır. Bu gedişat Amerikanın mövcudluğunun simvolu olan "Mcdonalds" restoranlar şəbəkəsinin də nə vaxtsa bağlanacağını istisna etmir.**

Çünki Amerikanın Azərbaycandakı mediası, institutları, əməkdaşlıq etdiyi qeyri-hökumət təşkilatları, təhsil proqramları, fondları ölkəni tərk etməli olub. Artıq bu şəbəkələşmə dağıdılıb və ilk növbədə Qərbin informasiya məkanı buxovlanıb. Hazırda nə Milli Demokratiya İnstitutu (NDİ), nə "Sülh korpusu", nə də "Soros" fəaliyyətdədir. Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu da işini dayandırmalı olub. Son olaraq isə AzadlıqRadiosunun Bakı ofisinin fəaliyyətinə xitam verilib.

Bir çox ekspertlərə görə, rəsmi Bakı müəyyən mənada balanslı siyasət yeritməklə hər iki qütblə məsafəli olub.

Azərbaycan uzun müddətdir ki, Rusiya ilə yaxından əməkdaşlıq etsə də, Qərblə regional proseslərdə, o cümlədən enerji məsələlərində əməkdaşlıq edir.

**Politoloq Hikmət Hacızadənin fikrincə, Azərbaycan strateji cəhətdən Amerika üçün çox vacibdir. Onun sözlərinə görə, söhbət Azərbaycanın yerləşdiyi coğrafiyadan gedir. H.Hacızadə Əfqanıstana daşınan yükün 30 faizinin Azərbaycandan keçdiyini qeyd edərək bu məsələlərin ABŞ üçün daha prioritet olduğunu düşünür:** "Yəni Amerikaya aeroport lazımdır. İrana da Azərbaycandan nəzarət olunur. Birləşmiş Ştatlar üçün bu faktlar çox əhəmiyyətlidir. Ona görə də "Sülh korpusunu" və digərlərini qurban verdilər. Belə desək, aeroport AzadlıqRadiosundan vacibdir. Odur ki, başqa yol tapılmalıdır. Elə ki, İranla Amerika barışdı, onda Azərbaycan lazım olmayacaq, aləm qarışacaq. Amerika üçün təhlükəsizlik məsələsində əvvəlcə evin içi, sonra çölü vacibdir. Bu da Azərbaycanı Rusiyaya yaxınlaşdıracaq".

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu isə fərqli düşünür. Onun fikrincə, bu təsisatların qalması ilk növbədə Azərbaycana lazım idi. Politoloq hesab etmir ki, Amerika Əfqanıstan və İrana görə öz institutlarını qurban verib:** "Qurban verib nə deməkdir? Bu institutların çalışması münasibətlərin geniş inkişafı üçün Azərbaycana vacib idi. Eyni zamanda təminat idi. İstər siyasi, istər mətbuat, istərsə də enerji sahəsində əməkdaşlıq Azərbaycanın inkişafı üçün lazımlı idi. Amma Azərbaycan hökuməti bunu istəmədi və Vaşinqtondan buna xüsusi maraq göstərilməyəcək. Əgər İran və Əfqanıstana qurban verilməsi kimi qiymətləndiririksə, onda Avropa institutlarına nə deyək? Onlar da qovulub çıxarılıb".

**Ə.Oruclu Amerikadakı səfirimiz Elin Süleymanovun müsahibəsini rəsmi Bakının Vaşinqtonla münasibətləri bərpa etməyə hesablanmış sayır:** "Amma güman etmirəm ki, Amerika münasibətləri bərpa etmək istəyir. ABŞ institutlarını zorla saxlamayacaq ki? Qanunla onların fəaliyyət çərçivəsi daraldı. Bu, ABŞ-dan asılı deyildi. İndi əl-ayağa düşüblər ki, gəlin münasibətləri bərpa edək. Kim ABŞ-la bu cür davranar? Həm də bütün bunlar Rusiya ilə yaxınlaşmağa görədir. Əslində hakimiyyət Kremlə yaxınlaşmaq istəmirdi. Sadəcə, həm Moskvaya imitasiya edirdi ki, ruspərəstəm, həm də Qərbi şantaj edirdi. Qərb dedi ki, lap yaxşı, yolunuz açıq olsun".

❑ **Emil SALAMOĞLU**



12

# 15 mart mitinqi ilə bağlı müəmma

## Milli Şura xalqa səsləndi; YAP aksiyanın sifarişinin xaricdən gəldiyini bəyan etdi

**Dünən günün birinci yarısında facebook-da və bəzi saytlarda Bakı Şəhər İcra Hakimiyyətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Zaur Ramazanovun imzası ilə 15 mart mitinqinə razılıq verilmədiyinə dair məktub yayılıb. Bir qədər sonra Mitinq Komitəsinin rəhbəri Fuad Qəhrəmanlı "Azadlıq"a açıqlama verərək xəbərin təxribat olduğunu bəyan edib. O bildirib ki, həmin məlumatı görən kimi Zaur Ramazanovla əlaqə saxlayıb. Ramazanov deyib ki, onun imzası ilə yayılan məktub saxtadır. Bakı Şəhər İcra Hakimiyyəti 15 mart mitinqi ilə bağlı cavabı hələ hazırlamayıb. Cavab hazır olan kimi təşkilatçılara göndəriləcək. BŞİH rəsmisi bu mövzuda təşkilatçıların xəbəri olmadan yayılan istənilən məlumata inanmamağı məsləhət görüb.**

F.Qəhrəmanlı mitinqdə iştirak məsələsinə toxunaraq bildirib ki, aksiyada konkret kimlərinsə iştirakına qadağa qoyulmayıb. Müsavata gəlincə, adıçəkilən partiya da bu mitinqdə iştirak edə bilər: "Dediyimiz kimi, bu, ümumxalq aksiyasıdır. Sosial statusundan, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər kəs bu aksiyaya qatıla bilər. Aksiyaya Azərbaycan xalqı dəvət olunub".

Qeyd edək ki, Müsavat başqanı Arif Hacılı mətbuata açıqlamasında 15 mart mitinqi ilə bağlı Milli Şuradan müraciət daxil olmadığını deyib. O, Milli Şuranın Müsavatın təşkilat olaraq aksiyada iştirakını arzulamadığını da təəssüflə vurğulayıb.

**Hakim Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov isə "Trend"ə bildirib ki, Milli Şuranın martın 15-nə təyin etdiyi mitinqin sifarişi xaricdən gəlib:** "Manatın məzənnəsinin dəyişməsi ilə əlaqədar bunun xeyirli tərəflərinin nədən ibarət olması ilə əlaqədar cəmiyyətə kifayət qədər informasiya verildi. Milli Şura adlanan ölü bir qurum özünün mövcud olmasını göstərmək üçün belə addımlar atır. Deyirlər ki, tikilən stadiona və yaxud da yolların, müxtəlif ərazilərin abadlaşdırılması üçün bu qədər xərc çəkilib. Təbii ki, bu işlərdə minlərlə azərbaycanlı çalışıb, evlərinə çörək aparıblar, ölkəmiz abadlaşıb. Bu pullar havayı yerə xərclənməyib ki. O qədər bisavad, əsassız bəhanələr gətirirlər ki. Təbii ki, bunların da sifarişləri xaricdən gəlir, daxili məsələ deyil. Çünki daxildə ictimaiyyət bunların hamısını başa düşür, ictimaiyyətin bu məsələlərə reaksiyası bəllidir və o mitinqə də heç kim gəlməyəcək. Bu mitinqin heç bir əsası yoxdur".

MŞ isə dünən mitinqlə bağlı xalqa çağırış edib. Müraciətdə siyasi mənsubiyyətindən asılı olmayaraq öz taleyinə, ölkəmizin və xalqımızın gələcəyinə görə narahat olan hər kəs "Talana son!" şüarı ilə 15 mart 2015-ci il tarixdə saat 15. 00- da, "İnşaatçılar" metro stansiyasının yaxınlığındakı "Məhsul" stadionunda keçiriləcək mitinqə çağırılır.

❑ **E.SEYİDAĞA**

# Müsavat namizəd seçimində narazıları kənarda qoyacaq?

**Arif Hacılı:** "Namizədləri partiyanın Məclisi qəbul etdiyi prosedur əsasında müəyyənləşdirəcək, bu, bir nəfərin iradəsindən asılı məsələ olmayacaq"

**Müsavat Partiyasının deputatlığa namizədlərinin müəyyənləşdirilməsi prosesi davam edir. İndiyə qədər 50-yə yaxın seçki dairəsi üzrə deputatlığa ilkin namizədlər müəyyənləşsə də, seçkilərdə iştirak etmək niyyətində olan Müsavat Partiyasının Məclis üzvü, Azərbaycan Demokratiya və Rifah Hərəkatı sədrinin birinci müavini Vurğun Əyyubun adı namizədlər siyahısında yoxdur. Partiya rəhbərliyindən bildirilib ki, Vurğun Əyyub tərəfindən partiyaya hansısa dairədən namizəd olmaq istəyinin ifadə olunduğu sənəd təqdim edilməyib. Kim namizəd olmaq istəyirsə, mütləq özü bu barədə partiyaya müraciət etməlidir.**

V.Əyyub isə Müsavat Partiyası Suraxanı rayon təşkilatının 30 saylı Suraxanı Birinci Seçki Dairəsi üzrə onun namizədliyini müdafiə etdiyini deyib. O, rayon təşkilatının bununla bağlı Müsavat Partiyasının rəhbər orqanlarına müraciət etdiyini bildirib: "Suraxanı rayon təşkilatı bu barədə məndən soruşub, münasibətimi öyrənib. Hələ ki deputatlığa namizəd olmaq fikrindəyəm".

Belə bir durumun ortaya çıxması Vurğun Əyyub daxil olmaqla, daha bir neçə narazının Müsavat rəhbərliyi tərəfindən namizədliyinə əngəl yaradılacağı haqda söhbətlərə səbəb olub. Xəbərlər yayılıb ki, Müsavatın deputatlığa namizədlərinin Məclisdə səsvermə yoluyla təsdiqlənməsi zamanı Vurğun Əyyubun və daha bir neçə müsavatçı ADR üzvünün yetərli səs almayacağı ehtimalı var. Müsavat Məclisinin üzvləri partiyanın seçki ilə formalaşmış qanuni strukturlarını, o cümlədən Məclisini tanımayan şəxslərin namizəd olmasına çətin ki, səs versinlər.

**"Vurğun Əyyub və digər narazılar namizədliklərini irəli sürsələr, onlara hansısa ayrı-seçkilik olması mümkündürmü" sualı ilə Müsavat başqanı Arif Hacılıya müraciət etdik. A.Hacılı suala belə cavab verdi:** "Müsavat Partiyasının nizamnaməsində namizədlərin müəyyənləşdirilməsi proseduru aydın şəkildə göstərilib. Namizədləri Müsavat Partiyasının Məclisi qəbul etdiyi prosedur əsasında müəyyənləşdirəcək. Yəni bu, bir nəfərin iradəsindən asılı məsələ olmayacaq. Müsavat Partiyasının Məclisində səsvermə yolu ilə namizədlərimizi müəyyənləşdirəcəyik".

**A.Hacılı onu da dedi ki, namizədlərin müəyyənləşdirilməsi prosesinin indidən başlanması zəruridir. Çünki hər bir namizəd hansı seçki dairəsində olacağını əvvəlcədən bilərsə, öz resurslarını da bu dairədə uğurlu seçki kampaniyasının aparılmasına indidən cəlb etmək imkanı əldə edir:** "Artıq seçki dairələrinin təqribən yarısında ilkin olaraq namizədlər müəyyənləşdirilib. Lakin bu şəxslər hələlik Müsavat Partiyasının namizədləri yox, Müsavat Partiyasından namizədliyə namizədlərdir. Partiyanın namizədlərini Müsavat Məclisi müəyyənləşdirəcək".

❑ **E.SEYİDAĞA**

**Bakıda nəqliyyat naziri Ziya Məmmədovun ailə şirkəti, oğlu Anar Məmmədovun idarə etdiyi "Garant holdinq"lə məhkəmə çəkişməsində olan iş adamı Füzuli Qasımovun meyiti aşkarlanıb. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov "Yeni Müsavat"a bildirib ki, 1974-cü il təvəllüdlü Füzuli Şubay oğlu Qasımovun meyiti martın 11-də, səhər saat 11 radələrində paytaxtın Yasamal rayonu ərazisində icarəyə götürdüyü ofisdəki iş otağında aşkar olunub.**

# Nəqliyyat şefinin müflis etdiyi şəxsin müəmmalı ölümü

# Nazir Ziya Məmmədovla çəkişən iş adamı güllələndi

## Füzuli Qasımov ürəyinə açılan atəşlə dünyasını dəyişib; yaxınları onun intihar etdiyinə inanmır; nazirlə iş adamının çəkişməsinin detalları "Yeni Müsavat"da!!!


Fizuli Qasımov



Odlu silahdan ürək nahiyəsinə açılmış bir atəş nəticəsində ölməsi ilə əlaqədar Yasamal rayon prokuroru, prokurorluğun əməkdaşları, prokuror-kriminalist, məhkəmə-tibbi ekspertin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçiriblər. E.Sultanov qeyd edib ki, hadisə zamanı qapı içəridən bağlı vəziyyətdə olub. Şirkətin digər əməkdaşları isə iş otaqlarında olublar. Faktla bağlı Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb. İş üzrə müvafiq ekspertizalar təyin edilib, hadisənin motivləri və başvermə səbəbləri istintaq yolu ilə araşdırılır.

Yaxınları isə onun intihar etməsinə şübhə ilə yanaşırlar. Deyirlər ki, F. Qasımovda silah olmayıb. Bu, şübhələrin heç də əsassız olmadığını söyləməyə əsas verir. F. Qasımovun tikinti obyektlərini əsasən sementlə təchiz etdiyi bildirilir. Qeyd edilir ki, onun tərəfdaşlarından biri ilə aralarında maliyyə məsələləri ilə bağlı ciddi mübahisə yaranıb. F. Qasımov tərəfdaşından yaranmış 500 min dollarlıq borcun qaytarılmasını tələb edib. Borcu ala bilməyəndə isə depressiyaya düşüb. Son günlər ciddi problemləri, daha konkret desək, bəzi biznes tərəfdaşları ilə pula görə mübahisələri yaranıbmış. Həmin tərəfdaşlarının F. Qasımova 500 min dollar borcu varmış. Mübahisə də buna görə yaranıbmış. Bu üzdən o, son vaxtlar dərin depressiyada imiş.

F. Qasımov Bakıda tanınmış iş adamlarından olub. Ona məxsus olan və Goranboyda yerləşən "Goranboy gips" 2 il əvvəl zorakılıqla əlindən alınıb, buna görə iş adamının külli miqdarda borcu yaranıb. "Yeni Müsavat" 2012-ci ildə "Nazir oğlunun şirkəti "Goranboy Gips"i ələ keçirdi" sərlövhəli yazıda bu haqda məlumat verib. Həmin yazıdan bəzi hissələri təqdim edirik.

**Həmin vaxt Füzuli Qasımov qəzetimizə demişdi:** "Ziya Məmmədov milyardlarını artırmaq üçün qabağına çıxan obyektləri ələ keçirir. Müəssisəmizin işini zor gücünə dayandırdılar. Bu adamlar üçün məhkəmə qərarları sadəcə kağız parçasıdır. Bütün qanuni vasitələrdən istifadə edib bizə qarşı atılan qanunsuz addımlara qarşı mübarizə aparacağıq".

F.Qasımovun rəhbərlik etdiyi "Goranboy Gips" ASC tikinti materialları bazarında xüsusi çəkisi olan müəssisə olub. Müəssisə 1992-ci ildə işə başlayıb, 2001-ci ildə II Özəlləşdirmə Proqramı zamanı özəlləşdirilib. 2006-cı ildə F.Qasımov qondarma ittihamla saxlanılıb, ASC-nin fəaliyyətdə olduğu ərazidəki gips karxanası iki mərhələdə F.Qasımovdan alınaraq "ZQAN Holdinq"ə *(hazırda "Garant" Holdinq adlanır - E.M.)* daxil olan "Azbentonit" MMC-yə verilib. Müəssisənin 50 faiz səhmi təzyiqlə ondan alınaraq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədova məxsus olan "ZQAN"a verilib. Bir müddət əvvəlsə ASC-ni Qasımovdan tam almaq üçün qarşı tərəf addımlar atmağa başlayıb.

**Həmin yazıdan sitat:** "F.Qasımov məhkəməyə müraciət edərək hüquqlarının bərpasına çalışdığı bir vaxtda isə ona qarşı növbəti qanunsuzluğa əl atılıb. Bu adamlar atamın imzasını saxtalaşdırıb "ZQAN Holdinq"ə daxil olan "Bank of Azerbaijan"dan onun adına 400 min manat kredit götürmüşdü. Atam Şubay Qasımovu "Bank of Azerbaijan"da görən olmayıb. Sadəcə, onun imzasını saxtalaşdırıb pulu götürüblər. Biz də məcbur olub çətinliklə krediti ödəyirdik. Amma inzibati resurslardan istifadə edib işimizi dayandırdılar. Bizə olan borclarını da ödəmədilər. "Azbentonit" "Goranboy Gips"ə 42 min manat borcludur. Bu pulu bəhanələrlə vermədilər. Yəni o pulun ƏDV-sinə kimi ödənilib. Malımızı Gürcüstandakı əsas alıcılarımıza çatdırmaq üçün "Azərbaycan Dəmir Yolları"na pul ödəmişdik. Hamı bilir ki, bu qurum Nəqliyyat Nazirliyinin bir qoludur. Hətta malı aparacaq vaqonların kodları da alınmışdı. O daşımanın həyata keçirilməsi üçün ödənilən pul da bu günə kimi "Azərbaycan Dəmir Yolları"nda yatır. Amma malımızı alıcıya çatdırmadılar. Bizə də işləməyə imkan vermədilər. Bütün bunlara görə 400 min kreditin faizi olan 4 min manatı "Bank of Azerbaijan"a ödəyə bilmədik. Halbuki elə "ZQAN"a daxil olan "Azbentonit"də 42 min manatımız var, amma o pulu da vermirlər. "Bank of Azerbaijan" bizim şirkəti məhkəməyə verdi və "Goranboy Gips"in əmlakına həbs qoyuldu".

**İş adamı deyir ki, qeyri-qanuni olaraq "Goranboy Gips" səhmdarlarının yığıncağı keçirilib:** "Legitim olmayan bu yığıncaqda rəhbərliyi, yəni məni, atamı uzaqlaşdırıblar. "ZQAN" başbilənləri bu iclası keçirməklə sübut edib ki, məhkəmə qərarlarına da əhəmiyyət vermirlər. İclasda atam Şubay Qasımovu rəhbərlikdən uzaqlaşdırıb yerinə nəqliyyat nazirinin qohumlarından olan Tərlan Məmmədovu təyin ediblər. Sonradan da "Goranboy Gips"i onun adına rəsmiləşdiriblər. Amma o adamı gətirib müəssisədə əyləşdirə bilmirdilər. Çünki faktiki olaraq müəssisədə biz işləyirdik. Oranı öz əllərimizlə tikib-yaratmışıq. Ona görə də başqa qanunsuz addımı atıb müəssisənin əmlakına həbs qoyublar ki, sonradan öz adamlarını rahat şəkildə gətirib "Goranboy Gips"də əyləşdirsinlər".

**F.Qasımov demişdi ki, Gəncə İqtisad Məhkəməsinə "Bank of Azerbaijan"ın "Goranboy Gips"in əmlakına həbs qoyması haqda qərarından şikayət veriblər:** "Bu adamlar icra haqda qanunu da pozublar. Biz 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edib bunların səhmdar olmadığını məhkəmə qərarı ilə sübut etmək istəyirdik. Vəsatət qaldırmışdıq ki, iddiamıza baxılana kimi "Goranboy Gips"də səhmdarların ümumi yığıncağının keçirilməsi yasaqlansın. Məhkəmə vəsatətimizi təmin etmişdi. Amma bu adamlar məhkəmə qərarını bir kənara atıb bu yığıncağı keçirib. Bu qanunsuz hərəkətdən də məhkəməyə şikayət vermişik".

**F. Qasımov baş verən qanunsuzluqlara görə 90 işçisinin işsiz qaldığını, qanunsuzluqlarla bağlı dövlət orqanlarına da müraciət etdiyini dilə gətirmişdi:** "Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət etmişik. Amma heç bir tədbir görülməyib. Biz dövlətimizdən ötrü canımızı fəda etməyə hazır olan insanlarıq. Necə ola bilər axı, bir nazir milyardlarını artırmaq üçün qabağına çıxan obyektləri ələ keçirir, amma dövlət buna əncam çəkmir? Ümid edirik ki, dövlət bu qanunsuzluqlara qarşı addım atacaq".

2012-ci il iyulun 9-da "Yeni Müsavat"da "Nəqliyyat nazirinin dəstəsi obyektə basqin etdi" sərlövhəli yazıda "Goranboy Gips" sahibinin digər əmlakının zəbtinə cəhddən, Goranboy Rayon İcra Hakimiyyətinin basqınçıların istəyini icra etməsindən bəhs olunurdu.

**Mövzuya qayıdacağıq.**

❑ E.MƏMMƏDƏLİYEV
"Yenì Müsavat"

# Həbsdəki "OMON"çuların yaxınları əfv üçün ölkə başçısına müraciət etdilər

### Şəfa Poladova: "Prezidentimizin humanistliyinə inanırıq"
### Tükəzban Kazımova: "Yalvarıram, təki balamı azad etsin..."

**Novruz bayramında veriləcək əfvlə əlaqədar ömürlük həbs cəzası almış "OMON"çular Səfa Poladov və Arif Kazımovun yaxınları "Yeni Müsavat" qəzeti vasitəsilə ölkə prezidentinə müraciət ediblər. Müraciətdə ölkə başçısının hər iki ömürlük məhbusu azad etməsi xahiş olunur.**


Səfa Poladov


Arif Kazımov

**Səfa Poladovun bacısı Şəfa Poladova** prezidentin humanistliyinə inandığını bildirib: "Hər bayramda qardaşımın azadlığa çıxacağını gözləyirik. Amma hələ də azad olunmayıb. Əfv üçün prezidentə müraciət edib. Hazırda səhhəti yaxşı deyil. Dəfələrlə aidiyyəti orqanlara müraciət etmişik. Qardaşımla bərabər tutulanların hamısı azadlığa buraxılıb. Yalnız Arif Kazımov və qardaşım həbsdə qalıb. Amma torpağı, vətəni satanlar hazırda azadlıqda gəzirlər. 20 il az vaxt deyil. Qardaşım azadlığa çıxacağına inanır. Əlində Quranla həbsə getdi. Bu günə qədər də namaz qılır. Həbsxanada da qanunlara əməl edib. Allah prezidentimizə uzun ömür versin. Qardaşımı bizə qovuşdursun".

**Digər ömürlük "OMON"çu məhbus Arif Kazımovun anası Tükəzban Kazımova Novruzda ölkə başçısının oğlunu azad edəcəyinə inandığını qeyd etdi:** "Arifin adı gəldiyi zaman gözlərimdən yaş gəlməyəndə özümdən diksinirəm. 20 ildir gözüyaşlı qalmışam. Gözlərim yollarda qalıb. Cənab prezidentə güvənirəm. Arif azadlığa çıxacağına çox ümidlidir. Oğlumu cavanlığına bağışlasınlar. Əgər bir təqsiri varsa, cəzasını da, peşmançılığını da çəkib. Ölkə rəhbərimizin sayəsində gözəl günlər görmək istəyirəm. Ürəyim sevindiyimdən döyünür. Sanki oğlum azad olunub. Prezidentin qarşısında baş əyirəm, yalvarıram, təki balamı azad etsin. Artıq yorulmuşam. İnanıram ki, bu il cənab prezident balamı mənə verəcək".

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu "OMON"çuların üzərindən ömürlük həbs cəzasının götürülməsi ilə bağlı apardıqları işlərdən danışdı:** "Onlar ömürlük həbs alıblar. Məsələni ayrı cür qaldırmışıq. Onlar əvvəlcə ömürlükdən çıxarılıb, müddətli həbsə salınmalıdır. Ömürlükdə bu cür bir neçə məhbus var. "OMON"çular artıq 20 ildir həbsdədir. Ömürlükdə əfvə düşmələri çox çətindir. Bu baxımdan ömürlük cəzaların götürülməsi istiqamətində işlər aparırıq".

Qeyd edək ki, Səfa Poladov və Arif Kazımov Qazax "OMON"un sıravi əsgərləri, polislər olublar. Məlumat üçün bildirək ki, həmin siyahıda İsgəndər Həmidov, Surət Hüseynov, Ələkrəm Hümmətov və bir çoxlarının adları olub, onların hamısı azadlıqdadır, həmin siyahıdan yalnız bu adamlar qalib. Avropa Şurası tərəfindən Azərbaycanda siyasi məhbus kimi ilk tanınan 17 nəfərlik pilot siyahıda Arif Kazımov və Səfa Poladovun adı da olub. Siyasi məhbus hesab edilən bu şəxslər 20 ildir həbsdə yatır. Avropa Şurası "OMON"çuların azadlığa buraxılması ilə bağlı Azərbaycan hökumətinə dəfələrlə müraciət edib.

A.Kazımov və S.Poladovun azadlığa çıxmasını vacib edən daha bir amil onlar barəsində çıxarılmış ölüm hökmünün dəyişdirilməsidir. Belə ki, 1998-ci ildə parlamentdə Cinayət Məcəlləsindən ölüm hökmü götürülüb. Elə parlamentdə də ölüm hökmü qanunvericilikdə olan ən ağır cəza - ömürlük cəza ilə əvəzlənib. Adları çəkilən şəxslər barəsində ölüm hökmü cəzası çıxarılanda qüvvədə olan qanunvericilikdə isə ən ağır cəza 15 illik həbs idi. Bu baxımdan hüquqşünaslar hesab edirlər ki, bu iki şəxs və digər barəsində ölüm hökmü çıxarılan sonuncu məhbusların timsalında qanun geriyə şamil olunub - yəni onlar yeni qanunvericiliklə ömürlük həbslə cəzalandırıla bilməzdilər. Hazırda məhbəsdə yüzdən artıq belə cəza çəkən məhbus var ki, onların da məsələləri tez-tez müzakirə obyektinə çevrilir.

❑ Cavanşir ABBASLI

# OMON-un keçmiş komandiri prezidentə müraciət etdi

**Keçmiş Xüsusi Təyinatlı Polis Dəstəsinin (XTPD) komandirlərindən olmuş Nizami Şahmuradov dünən Beynəlxalq Mətbuat Mərkəzində (BMM) keçmiş XTPD-çilərin sosial durumu ilə bağlı mətbuat konfransı keçirib. N.Şahmuradov 1995-ci ilin 17 mart hadisələri zamanı həbs edilən XTPD-çilərdən Elçin Əmiraslanov, Səfa Poladov və Arif Kazımovun ömürlük həbs cəzası aldıqlarını xatırladıb və onların əfv olunmaları üçün dövlət başçısına müraciət hazırladıqlarını bildirib. ("Turan")**


Nizami Şahmuradov

O, hər üç keçmiş döyüşçünün səhhətlərində ciddi problemlər olduğunu, həkimlərin sözlərinə istinadən onların həbsdə saxlanmalarının həyatları üçün təhlükəli olduğunu vurğulayıb.

Bununla yanaşı, N.Şahmuradov azadlıqda olan XTPD-çilərin də, sosial problemləri həlll edilmədiyi üçün çətinliklər yaşadıqlarını nəzərə çatdırıb. Belə ki, keçmiş döyüşçülər veteran vəsiqələrini ala bilmirlər, onlara döyüşlərdə iştiraklarını təsdiqləyən sənədlər verilmir.

Buna görə də müharibə əlillərinə tətbiq edilən güzəştlərdən istifadə edə bilmirlər. İşə düzəlmək məsələsində XTPD-çi olduqları məlum olan kimi iş verməkdən imtina olunur. Yalnız sürücülük vəsiqəsi olanlar sürücülük etməklə ailələrinə çörəkpulu qazana bilirlər.

Bundan başqa, N.Şahmuradov göstərdikləri şücaət və igidliklərə baxmayaraq, XTPD-dən olan şəhid və qazi ailələrinin adlarının da "kölgə"yə düşdüyünü təəssüflə xatırladıb...

**“Azərbaycandan olan turistlər Ermənistanın iqtisadiyyatına əsaslı töhfə verə bilərlər”. Bu fikir Xarici İşlər Nazirliyi (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevə məxsusdur. XİN rəsmisi "Trend"ə bildirib ki, işğaldan azad olunandan sonra Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlar turistlər üçün əsas marşrutlardan birinə çevrilə bilər: “Xarici turistlərlə bərabər, bu marşrut ilk növbədə ölkədaxili turistlər üçün cəlbedici istiqamətdir.**

# Azərbaycan Ermənistana yatırım qoysunmu - rəsmilərin şok cavabları



**Qubad İbadoğlu:** “Bakı-Horadiz-Mehri-Şərur dəmiryol xəttinin bərpasına investisiya qoyula bilər”



**Fazil Mustafa:** "Torpaqlar qaytarılarsa və qarşılıqlı etimad bərpa olunarsa, bu, o zaman reallaşa bilər"



**Elxan Şahinoğlu:** “Ermənistanın bizim üçün Gürcüstan olmasına hələ çox var”



**Siyavuş Novruzov:** “Avropa İttifaqı hətta belə bir təklif verdi ki, bəlkə ilk olaraq iqtisadi münasibətlər bərpa olunsun”

Nəticə etibarilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və Azərbaycan icmasının həyat şəraiti daha da yaxşılaşa və region daha da inkişaf edə bilərdi. Digər qonşu dövlətlərin təcrübəsində olduğu kimi, Azərbaycandan olan turistlər elə Ermənistanın öz iqtisadiyyatına da əsaslı töhfə verə bilərlər”.

“Ermənistanın işğalı altında olan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icması SSRİ dövründə Bakı, Gəncə və ya Ağdamdan olan turistlərin səfərlərinin onların yaşayışına nə dərəcədə töhfə verdiyini xatırlayırlar”, - H.Hacıyev əlavə edib. Qeyd edək ki, bu fikirlərlə eyni vaxtda Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov da Bakının Ermənistana yatırım qoymasını mümkün saydığını vurğulamışdı. ABŞ mediasına müsahibəsində o, deyib ki, qonşu ölkəyə yatırmağa kifayət qədər pul var. “Biz qonşulara sərmayə qoyuruq, Ermənistana da sərmayə yatıra, regionda tərəfdaş ola bilərdik”, - Süleymanov söyləyib.

Azərbaycan diplomatlarının belə bir mesajla çıxış etməsi maraqlı dövrə təsadüf edir. Məsələ burasındadır ki, iki ölkə arasında gərginlik pik həddədir və hər an ikinci böyük müharibənin başlana biləcəyi barədə xəbərdarlıqlar eşidilir, vaxtaşırı gərgin döyüşlər gedir, hər iki tərəf itki verir. Bu mənada hesab olunur ki, diplomatlarımızın anonsları əslində böyük planın tərkib hissəsidir və bəlkə də masaya çıxarılacaq sülh planının bir elementidir. Bəs ümumən Azərbaycanın Ermənistana yatırım qoyması realdırmı və işğala son verilməsindən sonra Ermənistan, həmçinin Qarabağ erməniləri Azərbaycana aid hansı layihələrdə yer ala bilər?

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu hesab edir ki, Dağlıq Qarabağ və ətraf rayonlar işğaldan azad olunandan sonra Azərbaycan regionun əsas donor dövləti olaraq həm dövlət və həm də özəl şirkətlər vasitəsilə Ermənistan iqtisadiyyatına sərmayə yatıra bilər:** “İnvestisiya sahəsində turizm cəlbedici görünsə də, ondan əvvəl görüləsi xeyli işlər var. Çünki Ermənistanın və Dağlıq Qarabağın, eləcə də ətraf rayonların ərazisində infrastruktur bərbad haldadır. İlk növbədə işğaldan azad olmuş ərazilərin bərpa planı hazırlanmalı və infrastruktur yenilənməlidir”. **Q.İbadoğlu reallaşdırılması mümkün olan layihələr barədə də fikrini söylədi:** “Bu istiqamətdə görüləsi əsas işlərdən biri də Bakı-Horadiz-Mehri-Şərur dəmiryol xəttinin bərpasıdır. Azərbaycan bu yolun bərpasına investisiya qoya bilər. Xüsusilə də Horadiz və Culfa arasında yol tamam dağılıb və orda yeni xətt çəkilməlidir. Bu, strateji baxımdan da vacibdir ki, Azərbaycanla Naxçıvan arasında birbaşa quru yol əlaqəsi yaradılsın. Naxçıvan da turizm baxımından cəlbedici yerdir. Bu halda Azərbaycan turistləri həm də Naxçıvana gedə bilərlər. Amma mən torpaqlarımız işğaldan azad olunmayana qədər iqtisadi əlaqələrin bərpasını düzgün hesab etmirəm”.

**Deputat Fazil Mustafa Ermənistana yatırım qoyulmasını mümkün saymır:** “Çünki bu uzun illərdən sonra, torpaqlar qaytarılarsa və qarşılıqlı etimad bərpa olunarsa, bu, o zaman reallaşa bilər. Odur ki, bu barədə səslənən fikirləri sadəcə real məzmun daşımayan diplomatik bir jest kimi qiymətləndirmək olar”.

**Politoloq Elxan Şahinoğlu isə ABŞ-dakı səfirimiz Elin Süleymanovun “Ermənistana yatırmağa kifayət qədər pulumuz var” sözlərində qəbahət görmür:** “Əslində ABŞ-dakı səfirimiz məhz elə belə deməlidir. O, ”Ermənistanı çökdürəcəyik" desəydi, yanlış olardı, Amerikadakı auditoriyaya yanlış mesaj verərdi. Sadəcə, məncə, səfir cümləni belə qurmalıydı: “Əgər Ermənistan işğal altındakı torpaqları boşaldarsa və Dağlıq Qarabağ münaqişəsi nizamlanarsa, Azərbaycan Ermənistanla iqtisadi əlaqələrini bərpa edəcək və bu ölkəyə yatırım qoyacaq”. Yəni vurğu işğal faktının ortadan qaldırılmasına yönəldilməliydi. Bunu demədən belə yanlış təsəvvür yarana bilər ki, biz Dağlıq Qarabağ münaqişəsi nizamlanmadan Ermənistanı iqtisadi xaosdan xilas etməyə hazırıq. Ermənistanın isə bizim üçün Gürcüstan olmasına hələ çox var. ABŞ-dakı səfirimizin məqsədi bu ölkəni Ermənistana təsir etməyə inandırmaqdan ibarət olmalıdır". **E.Şahinoğlu səfirin başqa bir fikrinə də diqqət çəkdi:** “Elin Süleymanov deyir ki, Rusiya və İran arasında yerləşən Azərbaycan ümid edir ki, Birləşmiş Ştatlar müttəfiqlərinə daha çox dəstək göstərəcək. Bu fikri daha öncə ABŞ-da səfərdə olan deputat Səməd Seyidov da işlətmişdi. Məqsəd Vaşinqtonun xoşuna gəlmək və dəstək almaqdır. Sadəcə, bunu deyəndə bəyan edilən siyasətə sadiq olmaq lazımdır. Səməd Seyidov bir tərəfdən belə bir fikir söyləyir, digər tərəfdən də Strasburqdakı çıxışında Rusiyasız AŞ PA-nın mənasının qalmayacağını vurğulayır. Əlbəttə, bəlli reallıqlar Rusiya ilə mehriban qonşuluq münasibətlərini diqtə edir. Ancaq bu reallıq naminə ABŞ-la münasibətləri də korlamalı deyilik. Əslində aydındır ki, rəsmi Bakı Kremlin gələcək planlarından ehtiyat edir. Elə günü bu gün Rusiya Ermənistanda hərbi təlimlər keçirir, işğalçının müdafiə qabiliyyətini gücləndirməklə məşğuldur. O biri tərəfdən, Azərbaycan öz qazını Avropa bazarına çatdırmağa çalışır ki, bu Kremlin xoşuna gəlmir. Odur ki, Azərbaycan Rusiya ilə tərəfdaş münasibətlərə malik olmaqla bərabər, Ukrayna təcrübəsindən çıxış edərək, bu ölkədən qorunmanın yollarını da hərəkətə gətirməlidir. Rusiyadan qorunmanın bir yolu Türkiyə ilə hərbi əməkdaşlığı genişləndirməkdisə, digər yolu ABŞ-la münasibətlərdəki süni gərginliyi həll etməkdir. O zaman Amerika auditoriyası Emin Süleymanovun sözlərinin həqiqiliyinə inanar”.

**Bu mövzuda “Yeni Müsavat”a ilginc məlumatlar verən YAP-çı deputat Siyavuş Novruzov bildirdi ki, zaman-zaman Ermənistana yatırım qoyulması məsələsi müzakirə olunub:** “Avropa İttifaqı, digər təşkilatlar çərçivəsində də belə bir təşəbbüs qaldırılıb. Ancaq bizim birmənalı mövqeyimiz belə olub ki, Azərbaycanla Ermənistan arasında iqtisadi münasibətlərin bərpa olunması işğal faktoru aradan qaldırılandan, işğal olunmuş ərazilərdən Ermənistan qoşunlarının çıxmasından sonra mümkündür. Yalnız bundan sonra kommunikasiyalar bərpa oluna, digər əlaqələrə baxıla bilər. Avropa İttifaqı hətta belə bir təklif verdi ki, bəlkə ilk olaraq iqtisadi münasibətlər bərpa olunsun və bunun nəticəsi olaraq qarşılıqlı etimad yaransın. Lakin Azərbaycan hökuməti və dövləti qəti şəkildə bunun əleyhinə olub. Yəni bu, Avropa İttifaqının uzun müddətdən bəri ortada olan layihəsidir. Yəqin indi ABŞ da bu layihəni yenidən gündəmə gətirməyə çalışır”. **S.Novruzov hesab edir ki, işğal faktoru qaldığı halda Ermənistanla hər hansı münasibətlərdən söhbət gedə bilməz. YAP-çı deputat zaman-zaman azərbaycanlı iş adamları, hətta bəzi məmurlara yaxın çevrələrin Göyçə gölünün ətrafında hotellər tikdiyi, tarixi torpaqlarımız olan düşmən ölkə ərazisinə yatırım qoyduğu barədə yayılan məlumatları şayiə adlandırdı:** “Bunlar mənasız söhbətlərdir. Ağıllı adamlar Ermənistana yatırım qoymaz. O yatırımın qarantiyası yoxdursa, onu qoymağın mənası yoxdur. Vaxtilə belə şayiələr yaydılar ki, azərbaycanlı iş adamı Ermənistandan torpaq alıb, orda fermer təsərrüfatı yaradıb, bütün bunlar mənasız şeylər idi. Bütün bunlar təxribatçı fikirlədir ki, yayılır. Hətta o zaman İraqdan Azərbaycana təklif olunmuşdu ki, bu ölkəyə yatırım qoyulsun. Ancaq orda stabillik, sabitlik yoxdursa, ora vəsait qoyulmasının mənası qalmır. Liviya ilə bağlı da Azərbaycana təkliflər olmuşdu. Bunların hamısının qarantiyası olmalıdır. Qarantiya olmadığı halda hansısa dövlətə vəsaitin qoyulması qeyri-mümkündür”.

❑ **Elşad PAŞASOY**
**“Yenì Müsavat”**

# Müxalifət “AMAY Abdulla”nı müdafiə edəcəkmi?

**Sabir Rüstəmxanlı:** “Mənim üçün onun fəaliyyəti qaranlıq dünyadır”
**Xəzər Teyyublu:** “O, hakimiyyətin dəstəkçilərindən olub, indi isə qurbana çevrilib”



Abdulla Abdullayev

**Bakı Ağır Cinayətlər Məhkəməsində “A.M.A.Y.” ticarət mərkəzinin rəhbəri Abdulla Abdullayevin işi üzrə məhkəmə prosesi keçirilir. Sonuncu məhkəmə prosesində A.Abdullayev siyasi sifarişlə həbs edildiyini bəyan edib. O deyib ki, “Azərbaycanda ”ədalət" sözü gərək leksikondan çıxarılsın: “Biz niyə əziyyət çəkib, seçkiyə gedib deputat seçirik? Onsuz da bu ölkədə onların qəbul elədiyi qanuna baxan yoxdur. Hüquq-mühafizə orqanlarının yanaşmasından belə çıxır ki, Azərbaycanda, ümumiyyətlə, Milli Məclisə ehtiyac yoxdur...”**

Maraqldır, müxalif mövqeyə keçən siyasi partiyalar A.Abdullayevi müdafiə edirmi?

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı A.Abdullayevlə tanış olmadığını söylədi. Qeyd etdi ki, onun fəaliyyəti ilə tanış deyil: “Barəsində eşitmişəm. Onun biznesini haradan başladığı, hakimiyyətdə kimlərlə oturub-durduğu haqda məlumatsızam. ”A.M.A.Y."ı qurmaq, bizim partiyanın ofisinin yanında o boyda binanı tikmək üçün hakimiyyətdə mütləq şəkildə dayaqlara malik olmaq lazımdır. Yəni mənim üçün onun fəaliyyəti qaranlıq dünyadır. Bu halda onun müdafiəsinə necə qalxa bilərəm?"**

**VHP sədri deyir ki, bir çox iş adamları, nazirlər, komitə sədrləri var ki, vəzifədə olarkən, işlərinin yaxşı getdiyi vaxtda sadə vətəndaşlara salam belə vermirlər:** “O ki qaldı partiya sədrlərinə, funksionerlərinə, bizlərdən də uzaq gəzməyə çalışırlar. Pafos xətrinə deyək ki, Abdulla Abdullayevi müdafiə edəcəyik, yox. Müdafiə etməyimiz üçün məhkəmə istintaq sənədləri ortada olmalıdır, baxarıq, görərək ki, ona qarşı haqsızlıq var, müdafiə edə bilərik. Azərbaycanda məhkəmələrin necə aparılmasını hamımız ümumi şəkildə bilirik. Amma konkret olaraq əlimizdə material olmalıdır ki, biz haqqı müdafiə edə bilək. Biz kim haqlıdırsa, onu müdafiə etməliyik. Bu məsələdə bilmədiyimiz məqamlar olduğundan konkret qərar verə bilmərik”.

**Klassik Xalq Cəbhəsi Partiyasının sədr müavini Xəzər Teyyublu mətbuatda dərc olunan yazılardan A.Abdullayevin məhkəməsini izlədiklərini söylədi:** “Abdulla Abdullayev hakimiyyətin dəstəkçilərindən olub. İndi isə qurbana çevrilib. Bütün hallarda qanun hamı üçündür. Abdulla Abdullayevlə bağlı hər hansı bir şərh vermək istəmirəm. Amma bu gün ölkədə bir barışa ehtiyac olduğunu da qeyd edirəm. İş adamıdır, borc öhdəliyi varsa, məsələ mülki qaydada həll edilməlidir”.

X.Teyyublu bildirib ki, A.Abdullayevin vəkillərinin, yaxınlarının müraciətləri olacaqsa, müvafiq müzakirələr aparılacaq və qərar veriləcək.

**Ümid Partiyasının sədri İqbal Ağazadə A.Abdullayevin işi ilə tanış olmadığını deyib. Bildirib ki, yaxınlarının, vəkillərinin müraciətləri olacaqsa, uyğun qərar veriləcək:** “Özünün siyasi sifarişlə həbs edildiyini deyirsə belə, mən görmədiyim, bilmədiyim məsələ ilə bağlı necə deyə bilərəm ki, müdafiə edirəm? Gəlsinlər, sənədləri gətirsinlər, baxaq, qərar verək”.

Yada salaq ki, A.Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir. Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, o birilər isə zamindədir.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 55 (6083) 12 mart 2015

**Azərbaycanda keçiriləcək birinci Avropa Oyunları yaxınlaşdıqca, ölkəmizə qarşı tənqid və təzyiq xarakterli təbliğatların, çağırışların artdığı müşahidə olunmaqdadır. Avropanın bir sıra tanınmış media orqanları bu istiqamətdə son günlər xüsusi fəallıq nümayiş etdirirlər. Avropa ölkələrinə Azərbaycanda keçiriləcək Avropa Oyunlarını boykot etmək çağırışını edirlər.**

# Siyasətçilərdən Avropa mediasındakı tənqidi çağırışlara reaksiyalar



**Əli Həsənov:** "Daxili və xarici qüvvələr ayrı-ayrı mövcud olmayan məsələləri uydururlar"



**Pənah Hüseyn:** "Hazırda imkan var ki, bu məsələlər həll edilsin və həmin çağırışlar aradan qalxsın"



**İqbal Ağazadə:** "Bir tərəfdən Azərbaycan hakimiyyəti Avropada isti qarşılanır, digər tərəfdən, müstəqil mətbuat məlum çağırışlarını edir"

Əsas qabardılan və arqument kimi təqdim edilən isə Azərbaycanda siyasi məhbusların sayının çoxluğu, insan haqlarının durumudur. Dünyanın ən nüfuzlu media orqanlarından olan "Der Spiegel" jurnalı, Almaniyanın "Focus" jurnalı, Böyük Britaniyanın "The Daily Mail" qəzeti, dünyanın iki ən çoxtirajlı jurnalından biri olan Böyük Britaniyanın "The Economist" nəşri bu mövzuya xüsusi yer ayırırlar.

**Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov** "Azad Azərbaycan" televiziyasının "Həftə sonu" analitik informasiya proqramına müsahibəsində müşahidə olunan bu tendensiyaya münasibətini açıqlayıb. Əli Həsənov "Eurovision" mahnı müsabiqəsi zamanı baş verənləri xatırladıb. O deyib ki, Azərbaycan belə böyük Avropa mədəni aksiyasına ev sahibliyi edərkən bəzi QHT-lər anti-Azərbaycan koalisiyası yaratdılar: "Məqsəd isə o idi ki, o vaxta qədər bəzi qlobal güclərin Azərbaycan dövlətinə qəbul elətdirə bilmədiyi, Azərbaycan dövlətini yönəldə bilmədiyi istiqamətlərə bu resurslardan istifadə etməklə Azərbaycanı yönəltsinlər. Bununla bağlı kampaniyalar aparıldı. Belə kampaniyalarla daxildə və xaricdə Azərbaycanın imicinə təsir göstərilməyə çalışıldı. Bu il də bilirsiniz ki, Avropa Oyunlarına ev sahibliyi edəcəyik. Hər bir dövlət bu cür tədbirləri təşkil etməyi istəyir və bunlar dövlətin beynəlxalq imicinə mütləq şəkildə təsir göstərir. Lakin yenə həmin qruplar təşkilatlanmağa, qruplaşmağa və bəzi beynəlxalq güclərin əlində alət olaraq bu tədbirdən istifadə etməklə Azərbaycana təzyiq göstərməyə çalışırlar. Hər bir xarici dövlət, beynəlxalq təşkilat Azərbaycanı öz istədiyi kimi görmək istəyir. Amma Azərbaycan dövləti onların maraq və istəyinə uyğun dövlət ola bilməz. Azərbaycan dövlətinin təməlində Azərbaycan xalqının maraqları, mənafeyi dayanır. Deməli, dövlət olaraq onun birinci vəzifəsi xalqın maraq və mənafelərinin təmin edilməsidir. Bütün digər məsələlər vasitədir. Hansısa təşkilatlarla münasibət, musiqi, idman yarışları xalqın həyatında məqsəd ola bilməz. Bunlar xalqın gələcək həyatını yaxşılaşdırmaq üçün vasitədir və bu vasitələrdən biz məharətlə istifadə edirik, etməyə çalışırıq. Və belə olan halda, biz beynəlxalq təşkilatları da anlayırıq. Onların fəaliyyətinin, siyasətlərinin köklərini də bilirik. Amma onların nəyi nə qədər istəmələrindən asılı olmayaraq, biz bir dövlətik. Dövlətin isə maraqları, bu maraqların obyekti, subyekti, fəaliyyətinin istiqamətləri var. Prezident İlham Əliyev elə bir siyasətçidir ki, ona heç kim kənardan təzyiq göstərə bilməz. Onunla ancaq dost, tərəfdaş olmaq olar. İndiyədək kimsə ona təsir göstərə bilməyib, onu öz haqq yolundan, öz millətinin, dövlətinin maraqları istiqamətində fəaliyyətindən sapdıra bilməyib, bundan sonra da mümkün deyil".

**Əli Həsənov qeyd edib ki, yenə bəzi QHT-lər, daxili və xarici qüvvələr ayrı-ayrı mövcud olmayan məsələləri uydururlar, guya hansısa beynəlxalq təşkilatlar Azərbaycanda insan hüquqlarını əsas gətirərək Avropa Oyunlarını boykota çağırırlar:** "Amma bunların heç bir əsası yoxdur. Cəhdlər var, amma divara quru palçıq yapışdırmaq mümkün olmadığı kimi, bizim haqq işimizə də heç kim kölgə sala bilməz".

**Son vaxtlar Avropa mediasında Azərbaycanla bağlı tənqidi yazıların çoxalmasına, boykot çağırışlarına Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin münasibətini öyrəndik. P.Hüseyn "Yeni Müsavat"a bildirdi ki, iqtidar Azərbaycana təzyiq edilməməsi və Avropa Oyunlarını boykot çağırışlarına əsas yaranmaması üçün əlindən gələni etməlidir, ciddi addımlar atılmalıdır:** "Təəssüf ki, hələ də bu addımlar atılmır. Əksinə, həmin çağırışlara əsas verən addımlar müşahidə olunur. Ölkədə siyasi məhbus problemi həll edilmir və getdikcə bir az da dərinləşir. Bu problemi birdəfəlik həll etmək lazımdır ki, Azərbaycana təzyiqlərə, o cür çağırışlara əsas qalmasın. Siyasi problemi həll edilmədikcə həm Azərbaycan, həm də hakimiyyətin özü təzyiq altında qoyulur. Müxtəlif dairələrə Azərbaycan üzərinə hücuma keçmək üçün şərait yaradılmamalıdır. Avropa Oyunlarını boykot çağırışları məsələsi 8 partiyanın üzv olduğu "Azadlıq-2015" seçki blokunun müzakirəsinə çıxarılıb. Bizim mövqeyimiz ondan ibarətdir ki, hazırda imkan var ki, bu məsələlər həll edilsin və həmin çağırışlar, hücumlar aradan qalxsın, əhəmiyyətli şəkildə azalsın. Bunun həlli üçün mümkün olan müddətdə getdikcə daralır".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirdi ki, sözügedən çağırışların edilib-edilməməsindən asılı olmayaraq, bütün siyasi hesab olunan, üzərində məhkəmə işi aparılan və yaxud da məhkəmə hökmü olan şəxslərin vətəndaş sülhü üçün azad olunması gərəkdir:** "Biz buna dəfələrlə çağırış etmişik. Hər zaman demişik ki, bizi sevənlərlə yanaşı sevməyənlər də kifayət qədərdir. Bəzən bu tipli faktlardan ölkəyə qarşı istifadə edirlər. Nəticədə təkcə iqtidar ziyan çəkmir, Azərbaycan dövləti ziyan çəkir. Azərbaycan dövlətinin ziyan çəkməməsi üçün hətta hakimiyyət nə qədər hesab edirsə ki, kimlərinsə aşağı-yuxarı günahı var, bununla belə, Azərbaycan dövləti naminə güzəştə getmək ən doğru yoldur. Dövlətin üzərinə gəlinməməsi, dövlətin imicinə ziyan vurulmaması üçün bu edilməlidir. Qərb mətbuatında o cür yazıların intensivləşməsi hesab edirəm ki, Azərbaycan hakimiyyətinin rəhbərinin xeyli vaxt durğunluqdan sonra bir Avropa səfəri və isti qarşılanması ilə bağlıdır. Hesab edibələr ki, bununla bir balans yaratsınlar; bir tərəfdən Azərbaycan hakimiyyəti isti qarşılanır, digər tərəfdən, müstəqil mətbuat məlum çağırışlarını edir. Azərbaycanda Avropa Oyunları keçiriləcək. Bu birmənalıdır. Azərbaycanda həm iqtidar, həm müxalifət bu böyük kampaniyadan birgə istifadə etməlidir. Azərbaycanın gerçək səsi Avropaya çatdırılmalı, bizim Avropa coğrafiyasında olduğumuz Avropa üçün hakim düşüncəyə çevrilməlidir. Bunun üçün biz Avropa ilə eyni yolu getdiyimizi göstərməliyik".

❑ Etibar SEYİDAĞA

---

# Həyat, yoxsa teatr?



**Hüseynbala SƏLİMOV**

**Kinonun səmimiyyətini və geniş planını teatrda görə bilmədiyim üçün bu sənət mənə heç vaxt maraqlı görünməyib. Elə pyesləri də bir o qədər maraqla oxumamışam, onlardansa mənə dialoqların az olduğu böyük romanlar daha cəlbedici gəlib...**

Ona görə də bu yazını hətta milli teatr günündə qələmə almağım belə məndə teatrla bağlı hansısa fikir oyatmadı...

Bəli, Platon deyirdi ki, həyat oyundur. İlk baxışda bir qədər mübahisəlidir, amma bizim son illərdə baş verən proseslərə reaksiyamızı çox gözəl ifadə etdiyindən bu fikirlə tamam razıyam.. Baxmayaraq ki, insanların hər şeyə "noolsun?" və yaxud da "əşi, bu da oyundur" deməsi bəzən məni də özümdən çıxarır...

Amma bu dünyada teatral ölkələr də var. Yox, orada böyük karnavallar qurmur, açıq səma altında teatr göstərmirlər. Sadəcə, həyat özü, xüsusən də bu həyatın siyasət adlı hissəsi daim teatr təsiri bağışlayır...

Bir dəfə bir rejissor müxalifətin mitinqindən danışanda dedi ki, başa düşmürəm, oyun harada gedir, burada - teatr səhnəsində, yoxsa bu meydanlarda və küçələrdə?

Mən onunla tam razı idim. Amma o, oyunun yalnız bircə hissəsini, bir üzünü görürdü, o biri, əsas tərəf isə qalırdı...

Halbuki onu da görmək lazım idi. Neçə illərdir, bu tamaşaya - 27 illik siyasət teatrına baxıram. Demirəm ki, bu, mənə olduqca maraqlı görünür. Yox, özümü "Sinyor Robinzon" filminin qəhrəmanının yerində hiss edirəm: müasir Robinzon özü üçün adada "kinoteatr" düzəltmişdi və hər axşam ora baş çəkər və məyus-məyus "Yenə də dəniz haqqadır?.." - deyə özündən soruşardı...

Siyasətin teatral tərəfi mənim kəşfim deyil. Bir dəfə oxumuşdum ki, DTK-nın məktəblərində aktyorluq sənətindən dərs deyirlərmiş. Özü də bu dərsləri çox tanınmış sənətkarlar aparırmış...

Əvvəlcə mənə qəribə gəldi. Amma sonra fikirləşdim ki, axı, niyə də yox ki? Məgər bu adamlar - kəşfiyyatçılar illərlə rol oynamırlarmı? Bəlkə də onlar biz sevdiyimiz aktyorlardan daha çox aktyordurlar...

Aktyorlara nə var ki? Cəmi bir-iki saat oynayır, sonra da evlərinə yollanırlar. Kəşfiyyatçılar isə illərlə rol ifa edirlər...

Beləliklə, DTK məktəblərində aktyorluğun tədris olunması mənə daha qeyri-adi görünmədi. Qaldı siyasət... Bax, burada bir detalı özüm üçün hələ də aydınlaşdırmamışam: görən, siyasətə aktyorluq elementlərini siyasi texnoloqlar və imicmeykerlər gətirir, yoxsa bu, sənətin öz mahiyyətindədir?..

Məndən soruşsalar ki, siyasət nədir, düşünmədən deyərəm ki, böyük bir teatr tamaşası - özü də bunun da rejissorları, operatorları və baş rolları var... Elə bu səbəbdən də əsl teatrı sevmirəm, çünki biri də mənə bəs edir...

Həm də bu "interaktiv" teatr da ola bilir, adi teatr da. Baxır, ölkədə hansı siyasi sistem hökm sürür. İlk baxışda bizim bəxtimizə sadəcə, seyrçi olmaq yazılıb, çünki bizə yalnız bir rol ayrılıb - tamaşaçı rolu...

Beləcə, 27 ildir ki, eyni bir tamaşaya baxırıq. Bu, həm də böyük bir serialdır.

Bilinmir ki, nə vaxt bitəcək, nə vaxt pərdə enəcək...

Ona görə də əsl teatra daha həvəs yox. Onu yaşamağa, onun qəhrəmanlarının taleyini düşünməyə taqət yox, çünki HƏYAT və SİYASƏT adlı da bir tamaşa var, ən əvvəl onu seyr etmək məcburiyyətindəyik...

Burada həmişə anşlaqdır, hərənin öz lojası var, çünki baxmaq məcburidir. Biz də bu teatrın davamını işdə və evdə oynamaqla gün keçiririk...

Düzdür, əvvəldə bir qədər başqa cür dedim. Dedim ki, bizə yalnız bircə rol ayrılıb - seyrçi rolu...

Amma SİYASƏTİ və HƏYATI bir götürəndə vəziyyət bir az dəyişir, biz də dönüb aktyor oluruq, öz kiçik rolumuzu ifa etməyə başlayırıq... Sanki bu, iki böyük pərdəli teatrdır - birinci böyük pərdə SİYASƏT, ikincisi isə HƏYAT adlanır...

Amma ikisi də teatrdır. Özü də çox mahir rejissorları var. Deyilənə görə, Lope de Veqa adlı bir dramaturq pyesi tamaşa gedə-gedə yazırmış. Yox, bizim rejissorlar yenilikləri bir o qədər də sevmirlər, həm də konspektlərdən istifadə edirlər...

Ona görə ki, bizim seçimimiz yoxdur. Bu tamaşaya baxmalıyıq. Bəlkə də bu "Tamaşanı yaşamalıyıq!"- desəydim, daha yaxşı olardı... Bəli, bu cür həqiqətə daha yaxın alınardı... Amma həqiqətin fərqində olan varmı bu ölkədə?..



# Gəlmişdik kabab iyinə...

Zamin HACI
zaminhaci@gmail.com

**Latın Amerikasında Paraqvay adında bir dövlət var, bugünlərdə deputatxanamızın 4 üzvü, başda Asim Mollazadə yoldaş olmaqla, buraya səfər etmişdir. Orda Paraqvay kənd təsərrüfatı nazirini əvəz eləyənin köməkçisi, Paraqvay deputatxanası alt komissiyasının üst şöbə müdirinin müavini tipli vacib insanlarla dəhşətli görüşlər olmuş, Azərbaycan həqiqətləri hər yana yayılmışdır.**

Ancaq bunlar əsas səbəb deyil. Jurnalist araşdırması apardım, ortaya çıxan dəqiq xəbərə görə, deputatlarımızı Paraqvayın adındakı "para" hissəsi cəlb edibmiş. Zənn ediblər Paraqvayda pul-para ağacda bitir, yığıb gətirəcəklər, bir neçə kisə də "putyovka"nın üstünü yazan Oqtay əkəyə çatacaqdır. Heyf, umsuq qayıdıblar.

Elə bu cür yarım qalan arzular üzündən deputatxana üzvlərindən həmişə yarımçıq fikirlər axır. Örnək üçün, Hadı Rəcəbli müəllimləri hambal işləməyə dəvət etmişdir. Sitat: "Əgər vətəndaş yaxşı yaşamaq istəyirsə, çox işləməlidir. Əgər bu gün müəllim 150-200 manat maaş alır və dolana bilmirsə, o, işdən sonra da başqa nə ilsə məşğul olmalıdır". Təsəvvür edin, bu yekəqarın düşüncənin yiyəsi deputatxanada sosial siyasət komisyon dükanına başçılıq edir.

Dünyanın heç bir normal dövlətində müəllimə "pulun azdırsa, başqa işlə üstünü düzəlt" deməzlər, çünki müəllimin təkcə dərs zamanı elmlə məşğul olmadığını bilirlər. Sivil dünyada müəllimə o qədər çox pul verirlər ki, onun dərsdən sonra öz üzərində çalışmağa, oxumağa, yeni şeylər öyrənməyə vaxtı olsun. O cümlədən, müəllim dərsdən sonrakı vaxtını şagirdlərin yazı-pozusunu qiymətləndirməyə sərf edir, növbəti dərsi planlaşdırır və sairə. Əgər Hadı Rəcəblinin uzun illər yapizmə sədaqətlə, can-başla, hər cür formada xidməti sayəsində deputatlıqdan əlavə "Palıdlı" restoranı-filan açmağa imkanı varsa, müəllim yazıqda bu imkan yoxdur axı. Söhbət əlbəttə, namuslu müəllimlərdən gedir, yaltaq, cibgir, saxtakar, seçkilərdə tumanında bülleten daşıyan cinayətkar ünsürlərdən getmir.

Həkimlərin maaşı azdırsa, onlar taksi sürsünlər. Polisin pulu azdırsa, yol kəssinlər. Nazirlər əsas işdən sonra öz şadlıq saraylarında zurna çalsınlar. Hadı yoldaşın açıqladığı yeni yapist sosial siyasətin mahiyyəti budur. Afərin. Sükanı belə saxlayın. Yiyəsiz ölkədir də.

Söz düşmüşkən, Gəncədə ASAN-xidmətin işçiləri keçən həftə... teatr tamaşası göstəriblər. Asudə vaxtdan səmərəli istifadə budur. İşdə sənəd-mənəd qayırırlar, işdən sonra "Hamlet"i oynayırlar: "Ya pasport, ya şəxsiyyət vəsiqəsi, Budur əsas məsələ!" Hadı müəllim Gəncə "asançılarının" işinə baxıb sevinə bilər.

Amma "Hamlet"i zarafat üçün yazdım, əslində Gəncə ASAN-ı Əbdürrəhim bəy Haqverdiyevin... "Yeyərsən qaz ətini, görərsən ləzzətini" pyesini səhnələşdirmişdir! Halal olsun. Necə gözəl repertuar seçiblər, lap deputatlarımızın Paraqvay marşrutu kimi bir şeydir. Ümid edirəm növbəti dəfə Nəcəf bəy Vəzirovun "Daldan atılan daş topuğa dəyər" pyesini tamaşaya qoyarlar. Bahalaşma dövrünə bu daha uyğundur, çünki qaz əti daha keçmiş zamanda qaldı, indi eşşək dağlama mərhələsidir.



# "Transxəzər" layihəsinə Rusiya və İrandan ortaq təhlükə

## Rusiya-Qərb qarşıdurması güclədikcə Xəzər amilinin rolu da artır; şimal və cənub qonşularımızın dənizi sürətlə hərbiləşdirməyə başlamasının yeni pərdəarxası; ABŞ və Avropa Birliyi Tehranın Moskvanın təbii müttəfiqinə çevrilməsini əngəlləyə biləcəkmi?..

**Rusiyanın Qərblə geosiyasi savaşı, şübhəsiz, həm də postsovet məkanında ən strateji məntəqələrdən sayılan, karbohidrogen ehtiyatları ilə zəngin Xəzər akvatoriyasında dominantlıq uğrunda gedir. Aydındır ki, şimal qonşumuz Xəzərə təkcə Avropa bazalarında öz monopolist qaz satıcısı statusunu qoruyub saxlamaq amili kimi baxmır, eyni zamanda dənizdə ABŞ (Qərb) hərbi mövcudluğunun mümkünlüyünü nəzərə alaraq taktikasını**

Xəzərin hüquqi statusunun on illərdir qeyri-müəyyən qalmasının əsas səbəbi də budur. Belə qeyri-müəyyənlik imkan verir ki, Kreml bir yandan, akvatoriyada öz hərbi donanmasını gücləndirsin, digər yandan isə neft-qazla zəngin başqa sahilyanı ölkələri təhdid altda saxlasın, ən azından, onları enerjidaşıyıcılarının nəqlində Rusiya maraqlarını ciddiyə almağa vadar eləsin.

Bundan əlavə, qeyri-müəyyən statuslu Xəzər burada Azərbaycan kimi ölkələrin istəyi ilə olsa belə, Qərbin, ABŞ-ın (NATO-nun) təhlükəsizlik maraqları kontekstində əl-qol açmasına imkan vermir. Halbuki belə problem Qara Dənizdə mövcud deyil və hazırda orada hətta NATO qüvvələrinin iştirakı ilə hərbi təlim keçirilir.

Rusiya ilə ABŞ arasında Ukrayna uğrunda mübarizənin üzücü mərhələyə girdiyini də nəzərə alsaq, belə ehtimal eləmək olar ki, Kreml son anadək, Rusiya parçalananadək "Xəzər kartı"ndan maksimum bəhrələnməyə çalışacaq, dənizin hüquqi statusu məsələsində nala-mıxa vuracaq, özünü "naza" qoyacaq, "siyasi məzənnəni" qaldıracaq.

Sahilyanı ölkələrin dövlət başçılarının ötən il Moskvada keçirilən sammitində Kremlin ənənəvi taktikası növbəti dəfə özünü büruzə verdi. O vaxt Moskvanın təşəbbüsü (əslində təzyiqi) ilə qəbul edilən birgə sənəddə Xəzərdə "yad hərbi qüvvələrin" yolverilməzliyinin qabarıq əksini tapması hamıdan çox dənizdə hərbi üstünlüyünü qoruyub saxlamaq istəyən Rusiyanın maraqlarına cavab verirdi...

Xatırladaq ki, martın 4-5-də Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı xüsusi işçi qrupun Bakıda 39-cu iclası olub. İclasda müəyyən razılaşmaların olduğu deyilir. **Məsələn, İranın xarici işlər nazirinin müavini İbrahim Rəhimpur** bildirib ki, Xəzərin hüquqi statusunu dəqiqləşdirən Konvensiyanın 6 maddəsi üzrə artıq tam razılıq əldə edilib. **"20 il ərzində aparılan müzakirələr yaxın zamanlarda yekun razılaşmanın əldə olunmasına şərait yaradacaq"** - deyib iranlı diplomat. Ancaq o, dənizdə **"xarici hərbi qüvvələrin yolverilməzliyi"ni də vurğulayıb. "Biz imkan verməyəcəyik ki, sülh və əmin-amanlıq dənizi olan Xəzərə münaqişələr girə bilsin"**, - deyə qeyd edib.

Aydındır ki, Qərbin bölgədə, o cümlədən Xəzərdə möhkəmlənməsini Rusiyanın ardınca ciddi şəkildə arzulamayan ikinci sahilyanı dövlət - İrandır. Bu maraq Moskva ilə Tehranı təbii müttəfiqlərə çevirir. İranın Qərblə nüvə proqramı çərçivəsində danışıqlarının dalana girməsi isə Kremlin maraqlarına hərtərəfli uyun gəlir.

Təsadüfi deyil ki, özünü qeyri-real təklifi ilə dənizin yekun hüquqi statusunu əngələyən ölkələrdən biri məhz İrandır. Cənub qonşumuz da qeyri-müəyyənlikdən yararlanaraq və Rusiya kimi iqtisadi sanksiyaların ağırlığına baxmayaraq, dənizdə hərbi gücünü artırmağa səy edir.

Bugünlərdə İranın Hərbi-Dəniz Qüvvələrinin yeni və çevik hərbi gəmi alması qənaətimizə sübutdur. Belə ki, "Damavand" adlı gəmi İranın Xəzər donanmasının tərkibinə qatılacaq. Gəminin uzunluğu 90 metr, ağırlığı 1300 tondur. O, qanadlı raketlərlə, torpedo və elektron hərbi avadanlıqlarla təchiz olunub. İran mediası xəbər verir ki, hazırda ölkənin cənubundakı tərsanələrdə bu tipli daha üç hərbi gəmi inşa olunmaqdadır.

Tehran son illər Xəzərdəki donanmasını gücləndirməklə, onu kiçik sualtı qayıqlarla və raket gəmiləri ilə təchiz etməkdədir. Ancaq şəksizdir ki, ən böyük donanma Rusiyaya məxsusdur. Qərblə qarşıdurma kontekstində Moskvaya Xəzərdə öz mövqeyini gücləndirmək indi hava-su kimi lazımdır. Elə təkcə bu ilin əvvəlində Rusiyanın Xəzər Flotiliyası daha bir yeni döyüş gəmisi alıb.

Akvatoriyada "əzələ gücü"nü artırmaq isə Moskvaya həmçinin dənizlə bağlı onun iradəsindən kənar yeni enerji layihələrini əngəlləmək üçün lazımdır. Son illər xarici siyasətində (Ukrayna) terror üsullarına da əl atan Rusiya bu yolla ən azı, belə layihələri təhdid altda saxlayır, onların təhlükəsizliyinə zəmanət vermədiyi haqda eyhamlar vurur.

Bu cür layihələrdən biri də "Transxəzər" qaz kəməridir. Layihənin təzədən Avropanın gündəminə gəlməsi sözsüz ki, Rusiya və İranı bərk qıcıqlandırır, onların Xəzərdəki maraqları ilə, o sırada energetik maraqları ilə ziddiyyət təşkil edir. Çünki belə kəmərlər Moskva və Tehranın Avropa üçün energetik dəyərini azaldır.

Bu mənada İranla "Altılıq" arasında nüvə dosyesi ilə bağlı danışıqlar tam fiasko ilə nəticələnərsə, istisna deyil ki, "Transxəzər" xəttinə ortaq Moskva-Tehran təhdidi də güclənəcək. Kəmərlərə təhdid isə həm də müstəqilliyə təhdiddir. Bunu önləmək üçünsə hərbi balans yaratmağa ehtiyac olacaq.

**❑ Siyasət şöbəsi**

# Müdafiə naziri Xorvatiyada görüşlər keçirdi

**Xorvatiyada səfərdə olan Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov bir sıra görüşlər keçirib. APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Xorvatiya xarici işlər nazirinin I müavini Yoşko Klisoviçlə keçirilən görüşdə hər iki ölkənin yerləşdiyi regionlarda təhlükəsizlik və qarşılıqlı münasibətlərin genişləndirilməsi məsələləri müzakirə edilib. Z. Həsənov Ermənistanın Cənubi Qafqaz bölgəsində sabitliyə əsas təhlükə yaratdığını bildirib, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü prinsipinə əsaslanaraq həll olunmasının vacibliyini önə çəkib.**



Z. Həsənov Xorvatiya İqtisadiyyat Palatasının sədri Luka Buriloviçlə də görüşüb. Tərəflər ölkələrimiz arasındakı dostluq münasibətlərindən danışıblar, əlaqələrin daha da genişləndirilməsi, o cümlədən müdafiə sənayesi sahəsində əməkdaşlığın dərinləşdirilməsi perspektivlərini müzakirə ediblər.

Sonra Azərbaycan müdafiə nazirinə Xorvatiyanın müdafiə sənayesinə daxil olan şirkətlər haqqında geniş prezentasiyalar təqdim olunub. Qeyd edək ki, Z. Həsənovun Xorvatiyaya səfəri davam edir.

# Düşmənin əhəmiyyət vermədiyi çağırışlar...

## Beynəlxalq aləm cəbhədə gərginliyə son qoymağa, girovları azad etməyə çağırır, ermənilər isə növbəti dəfə buna təxribatlarla cavab verir

**Son aylarda Ermənistan silahlı qüvvələri sanki atəşkəs rejimini hər gün pozmaqla bağlı öhdəlik götürüb. Belə təsəvvür yaranır ki, işğalçı dövlət ona edilən çağırışlara rəğmən, dünyaya meydan oxuyur. Ermənistan təxribatlarını nəinki dayandırmır, əksinə, hər gün 10 dəfələrlə atəşkəs rejimini pozur. Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində ötən sutka ərzində atəşkəs rejimini ümumilikdə 42 dəfə pozub.**

Müdafiə Nazirliyinin rəsmi saytı xəbər verir ki, Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Krasnoselsk rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Bundan başqa, Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Sarıcalı, Kəngərli, Şuraabad, Baş Qərvənd, Mərzili, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb. Düşmən cavab atəşi ilə susdurulub...

Ermənistan girov götürdüyü vətəndaşlarımızla bağlı ona edilən çağırışlara sanki atəşkəs rejimini hər gün pozmaqla, növbəti təxribatlar törətməklə cavab verir. Maraqlısı odur ki, bunun qarşılığında beynəlxalq aləm düşmən ölkə qarşısında qəti tələb qoymağa tələsmir, onlarla xarakterlərinə uyğun olmasa da, diplomatik dildə danışırlar.

"Dağlıq Qarabağda ermənilər tərəfindən saxlanılan azərbaycanlı girovların azad edilməsi Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda irəliləyiş üçün əhəmiyyətli addım ola biləcək humanitar jest olardı".

"Trend"in məlumatına görə, bu sözləri ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta işğal edilmiş Dağlıq Qarabağda azərbaycanlı girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevə qarşı qurulmuş qondarma "məhkəmə prosesi"ni şərh edərkən bildirib. Onun sözlərinə görə, dövlət katibinin köməkçisi Viktoriya Nuland Ermənistana səfəri zamanı bu məsələni qaldırıb.



Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bəyan edib ki, Ermənistan tərəfindən D.Əsgərov və Ş.Quliyev üzərində təşkil olunmuş "məhkəmə prosesi"nin heç bir hüquqi əsası yoxdur və qəbul edildiyi iddia edilən "qərar"lar da heç bir hüquqi mahiyyət kəsb edə bilməz.

Qeyd edək ki, ötən ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər. Digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H.Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.

Separatçı Dağlıq Qarabağ rejiminin "məhkəməsi" dekabrın 19-da D.Əsgərovun ömürlük, Ş.Quliyevin isə 22 il müddətinə azadlıq məhrum edilməsi barədə "hökm" çıxarıb.

**Bu arada Rusiya XİN də girovlarımızla bağlı açıqlama verib.** "Girov Dilqəm Əsgərovun taleyi Rusiya XİN-in diqqət mərkəzindədir və bu məsələyə beynəlxalq vasitəçi səyləri çərçivəsində humanitar aspektdən baxılır". Bunu Rusiya Xarici İşlər Nazirliyindən Krım azərbaycanlıları icmasının sorğusuna cavab olaraq bildiriblər. Cavabda deyilir: "Dilqəm Əsgərova kömək edilməsi ilə bağlı Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrova göndərdiyiniz müraciətlə əlaqədar bildiririk ki, bu məsələ Rusiya XİN-in diqqət mərkəzindədir. Bu məsələyə beynəlxalq vasitəçi səyləri çərçivəsində humanitar aspektdən baxırıq. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Əsgərovun Rusiya vətəndaşı olması məlumatı dəqiqliklə tədiqlənməyib və yoxlanılır".

Cavab Rusiya XİN-in Müstəqil Dövlətlər Birliyinin Dördüncü Departamenti tərəfindən hazırlanıb.

**Bu arada isə bütün Qafqazın Şeyxi dünyaya səslənib.** "Dünya ictimaiyyəti və ABŞ hökuməti Qarabağda ermənilər tərəfindən mədəniyyət abidələri, məscidlər, qəbiristanlıqların dağıdılması məsələsinə ciddi diqqət yetirməlidir". Bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Allahşükür Paşazadə Bakıda qonaq olan ABŞ-ın Corctaun Universitetinin professoru İmam Yəhya Hendi və ABŞ-ın Azərbaycandakı yeni səfiri Robert Sekuta ilə görüşdə deyib.

**A.Paşazadə ABŞ-ı Azərbaycan torpaqlarının Ermənisan tərəfindən işğal edilməsi faktına xüsusi diqqət yetirməyə çağırıb:** "Hər bir dövlətin öz çətinliyi və problemləri var. Azərbaycan dövlətinin də ən böyük problemi torpaqlarının işğal edilməsidir. Qarabağda Azərbaycanın çoxlu mədəniyyət abidələri, məscidləri, qəbiristanlıqları ermənilər tərəfindən dağıdılıb. Dünya ictimaiyyəti və ABŞ hökuməti bu məsələyə ciddi diqqət yetirməlidir. Qarabağda, o cümlədən Xocalı soyqırımı zamanı şəhid olan minlərlə insanlarımız var. Bu, bizim böyük yaralı yerimizdir".

**Səfir Robert Sekuta isə A.Paşazadənin işğalla bağlı fikirlərinə belə cavab verib:** "Zorakılıq hadisələri nəticəsində ölkənizə vurulan ağrı-acılardan bəhs etdiniz. Dünyanın heç bir ölkəsi belə hallardan sığortalanmayıb. Digər ölkələrdə də belə hallar yaşanıb. İndi sizli-bizli birgə gələcəyə doğru baxmalı, sülhün bərqərar olmasının yollarını tapmalıyıq. Mən burada 25 il əvvəl baş verən Xocalı hadisəsi, ağrı-acıları çox dərindən bilməliyəm. Hesab edirəm ki, yeni nəsli, böyüməkdə olan uşaqları müqəddəs kitabların bizə öyrətdiyi sülh və əmin-amanlıq ruhunda böyüdə bilsək, əminəm ki, sülhə nail ola bilərik".

# "İnanıram ki, Volter təzyiqlərə baxmayaraq, ədalətsizliyə yol verməyəcək"

## Elxan Süleymanov: "İlk dəfədir ki, hazırlanacaq məruzənin adında Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin işğal edilməsi faktı əks etdirilir"

**Avropa Şurası Parlament Assambleyasının Siyasi Məsələlər Komitəsinin "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" üzrə məruzəçisi Robert Volter martın 12-13 tarixlərində Azərbaycanda rəsmi səfərdə olacaq. AŞ PA-da belə bir sənədin hazırlanması uğrunda mübarizənin təfərrüatları və bu məruzədən olan gözləntilərlə bağlı məruzənin təşəbbüskarı, eyni adlı qətnamə layihəsinin müəllifi, Azərbaycanın AŞ PA-da nümayəndə heyətinin üzvü Elxan Süleymanov APA-ya açıqlamasında deyib ki, məruzənin təsdiq edilmiş adı Azərbaycanın mövqeyinə uyğun olmaqla bərabər, həm də problemin mahiyyətini obyektiv və dolğun şəkildə ehtiva edir:**

"Ermənistan nümayəndə heyəti və onlara qəyyumluq edən anti-Azərbaycan qüvvələri və erməni lobbiləri məruzənin adının dəyişdirilməsini istəyirdilər. Onlar bunun üçün bütün mövcud resurslarını işə salaraq, bizim işimizə maneələr yaratmağa çalışırdılar. Lakin biz bütün bu maneələrə baxmayaraq 01 oktyabr 2014-cü il tarixində AŞ PA-da məhz bu adla qətnamə layihəsi üzrə məruzəçi təyin edilməsinə nail olduq. Məsələ burasındadır ki, bizim üçün məruzənin adında baş vermiş hadisələrin mahiyyətinin dəqiqliklə göstərilməsi çox böyük əhəmiyyət kəsb edirdi, bu prinsipial məsələ idi. Digər tərəfdən, Ermənistan tərəfi çox gözəl başa düşürdü ki, hadisələrin belə gedişatı onların cinayətkar mahiyyətini dünya ictimaiyyətinə tam çılpaqlığı ilə açacaqdır. Odur ki, onlar və



Elxan Süleymanov

onlara qəyyumluq edən anti-Azərbaycan qüvvələr məruzənin adının ümumi formada qeyri-müəyyən ifadələrlə göstərilməsi üçün dövlət səviyyəsində bütün diplomatik imkanları işə salmışdı. Ermənistanın Avropa ölkələrindəki səfirliklərinin nümayəndələri bu ölkələrin rəsmiləri ilə görüşlər keçirərək, deputatlara göstəriş vermələrini faktiki olaraq tələb edirdilər. Lakin biz başa düşürdük ki, məruzənin adının "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" kimi təsdiq edilməsi bizim üçün prinsipial əhəmiyyət daşıyır və onun adının dəyişdirilməsi Azərbaycanın maraqlarına qətiyyən cavab vermir. Çünki bu münaqişə deyil, Ermənistanın silahlı təcavüzlə torpaqlarımızı işğalıdır. Onu da bildirim ki, biz bu qətnamə layihəsinin müzakirəsi prosesində avropalı deputatların bizim problemimizdən tam məlumatlı olmadıqlarını gördük. Lakin bu prosesdə apardığımız müzakirələr zamanı onlar da məsələdən agah oldular və bir çox avropalı deputatlar məruzənin adında Azərbaycan torpaqlarının işğal olunması faktının ifadə edilməsini dəstəklədilər. Düşünürəm ki, hər kəs, eləcə də beynəlxalq təşkilatlar Azərbaycanın işğal edilmiş ərazilərinə münasibətdə bütün sənədlərdə və çıxışlarda "münaqişə" ifadəsini işlətməkdən çəkinməli, birmənalı olaraq işğal faktını vurğulamalıdırlar və biz öz tərəfimizdən bu istiqamətdə yekdil ideoloji mübarizə aparmalıyıq".

**E.Süleymanov AŞ PA-ya bundan əlavə bir neçə başqa qətnamə layihəsi, o cümlədən Ermənistan nümayəndə heyətinə qarşı sanksiyalar tətbiq edilməsinə, Dilqəm Əsgərov və Şahbaz Quliyevin ədalətli məhkəmə hüququnun təmin edilməsinə dair qətnamə layihələrini də təqdim edib. Bu layihələrin aqibəti barədə danışan deputat deyib ki, Azərbaycan ərazilərini silahlı işğal altında saxladığına görə Ermənistan nümayəndə heyətinə qarşı sanksiyalar tətbiq edilməsinə dair qətnamə layihəsi 2014-cü il iyunun 18-də AŞ PA-nın saytında dərc edilib:** "AŞ PA-nın 2015-ci ilin yanvar sessiyasında təqdim etdiyim və Avropa Şurasının 24 üzv dövlətini təmsil edən 46 deputat tərəfindən imzalanmış Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş Dilqəm Əsgərov və Şahbaz Quliyevin ədalətli məhkəmə hüququnun təmin edilməsinə dair qətnamə layihəsininin AŞ PA Sədarət Komitəsinin 5 mart 2015-ci il tarixli iclasında "Azərbaycanın Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərində gərginliyin artmasına dair" hazırlanacaq məruzədə nəzərə alınması üçün Siyasi Məsələlər Komitəsinin məruzəçisi Robert Voltera göndərilməsi tövsiyə edilib. Bu isə o deməkdir ki, cənab Volter öz məruzəsində əsir götürülmüş azərbaycanlıların hüquqlarının təmin olunması məsələsini də ətraflı işıqlandıracaq... Bu məruzənin əsas əhəmiyyəti odur ki, bu sənəd AŞ PA-da son 10 il ərzində işğal edilmiş ərazilərə dair hazırlanan ilk məruzədir və ilk dəfədir ki, hazırlanacaq məruzənin adında Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin işğal edilməsi faktı əks etdirilir. Məruzə belə adlanan halda artıq işğalçı tərəfin beynəlxalq-hüquqi məsuliyyətdən boyun qaçırması daha da müşkül məsələyə çevrilir. Nəzərə alsaq ki, işğalçı Ermənistan dövləti bu qətnamə layihəsinin qarşısının alınması üçün başda prezident olmaqla və bütün hökümət səviyyəsində mübarizə aparmış, rəsmi müraciətlər edilmiş, lobbiçilik işi görmüşdür, məruzənin hazırlanması zamanı da müxtəlif vasitələrlə məruzəçiyə təzyiqlər edilməsinə əl atılacağı istisna deyil. Amma məruzəçi Robert Volter Avropanın tanınmış, nüfuzlu, prinsipiallığı ilə seçilən siyasətçilərindəndir. Odur ki, inanmaq istərdim ki, cənab Robert Volter bu təzyiqlərə baxmayaraq, ədalətsizliyə yol verməyəcək və öz məruzəsində Azərbaycan torpaqlarının işğalı məsələsini, habelə əsir götürülmüş soydaşlarımızın hüquqlarının təmin edilməsi məsələsini gündəmə gətirəcək... Ümid edirəm ki, cənab Volterin hazırlayacağı məruzə bu ayrı-seçkiliyin aradan qaldırılmasına yardım edəcək, Azərbaycan ərazilərini 23 ildən artıq müddət ərzində işğal altında saxlayan və işğal etdiyi ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirmiş Ermənistan dövlətinə qarşı AŞ PA-da, daha sonra isə digər beynəlxalq təşkilatlar çərçivəsində sanksiyaların tətbiq edilməsi istiqamətində real addım olacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

# Yenə balans, yenə manevr



Azər RƏŞİDOĞLU

**Azərbaycan diplomatiyasında tez-tez dəyişən dönmələrin mahiyyətini anlamaq imkansızdır. Rəsmi Bakı son aylar ərzində bir-biri ilə ziddiyyət təşkil edən elə gedişlər edib ki, onları diplomatiya tarixinə ən ağlasığmaz gediş kimi daxil etmək mümkündür.**

Bakıda Avropa Oyunları keçirməyə hazırlaşan Azərbaycan hakimiyyətinin Bolqarıstanla yaxınlaşaraq, "Nobukko"nu diriltməyə cəhd göstərməsini politoloqlar şərh etməyə macal tapmamış, rəsmi Bakı "Avropanın sonuncu diktatoru" hesab edilən Belarus prezidenti Lukaşenkoya əl uzatdı və baş nazirin birinci müavini Eyyub Yaqubov Belarusu Azərbaycanın əsas strateji tərəfdaşları adlandırdı.

Elə bu arada Rusiya prezidenti Vladimir Putin Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun və Milli Məclisin spikeri Oqtay Əsədovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında fərman imzaladı.

Fərmanda bildirilir ki, Oqtay Əsədov və Əli Həsənov "Rusiya Federasiyası ilə dostluğun və əməkdaşlığın möhkəmləndirilməsində böyük töhfəyə" görə təltif ediliblər.

Əslində baş verən diplomatik gedişlərdə yenilik də yoxdur. Rəsmi Bakı xarici siyasətində status-kvonu saxlamağa çalışır. Lakin rəsmi Bakı elə dönmələr edir ki, bunun sonunun nə ilə başa çatacağı barədə bədbin proqnozlara əsas verir.

Hakimiyyətin xarici siyasətində təhlükəli istiqamətlər az deyil. Bunlardan ən əsası son aylarda Rusiyaya doğru edilən reveranslardır. Bakı arxayındır ki, Avropa ondan üz çevirməyəcək. Düzdür, Qərbin Azərbaycanın daxili siyasətində yürütdüyü addımlarla bağlı sualları var. Eyni zamanda da enerji təhlükəsizliyi, iqtisadi sahədə əməkdaşlıq davam edir. Bu da ondan xəbər verir ki, Qərbdən ciddi təzyiq olmayacaq.

Buna baxmayaraq, Azərbaycan diplomatiyasında aparılan "açıq qapı" siyasəti daha da dalana dirənib.

Hakimiyyət ideoloqları hesab edirlər ki, yaranmış vəziyyətdə Qərb Azərbaycana "daha çox demokratiya" tələbində bulunmayacaq.

Qərb siyasi dairələri isə Azərbaycanın Rusiyaya doğru reverans edəcəyindən ehtiyat edirlər. Odur ki, rəsmi Bakı bundan istifadə edir və demokratiyanı daha çox boğur.

Ən maraqlısı isə odur ki, son vaxtlar hakimiyyətin təqibinə məruz qalanların əksəriyyəti qərbyönümlü ictimai xadimlərdir. İki super güc arasındakı "soyuq savaş"dan istifadə edən rəsmi Bakı hakimiyyəti üçün təhlükə törədən qərbyönümlü ictimai və siyasi xadimləri zərərsizləşdirir.

Burada bir incə detala da diqqət yetirmək lazım gəlir. Azərbaycan hakimiyyəti "açıq qapı" siyasəti yeritsə də, əslində Rusiyanın maraq və mənafelərinin təminatçısı qismində çıxış etməyə başlayıb. Bu isə artıq müstəqillik ideyasının özünə təhlükə törədir.

Prinsipcə, Rusiya ilə əməkdaşlıq hakimiyyətə daha çox sərf edə bilərdi. Kremlin əlində "demokratiya dəyənəyi" mövcud deyil. Bakı Kremlin tələblərinə boyun əyəcəyi təqdirdə, ölkədə istədiyi idarəetməni həyata keçirə bilər. Qərblə əməkdaşlıq isə cəmiyyətin demokratikləşməsini vacib edir. Bu baxımdan, iqtidar üçün Moskva daha cəlbedicidir. Lakin zəngin neft və qaz yataqları Qərblə əməkdaşlığı zəruri edir. Bu, böyük siyasətdən daha çox bir biznes marağıdır. Elə yalnız "enerji daşıyıcıları" amili Azərbaycan diplomatiyasının Qərbə üz tutacağını daha çox ehtimal etməyə əsas verir...

# Nazir 400 milyon avroluq sövdələşməyə görə narazılığını açıqladı

## Natiq Əliyev: "Azərbaycan Avropaya qaz nəqli məsələsində Rusiya ilə rəqabətə girmir"

**Azərbaycan Yunanıstanın qaz nəqli sistemi operatoru DESFA şirkətinin səhmlərinin üçdə ikisinin SOCAR tərəfindən alınmasına dair razılaşmanın Avropa İttifaqının komissiyası tərəfindən bu qədər ləng araşdırılmasından narahatdır.**

Virtualaz.org saytı xəbər verir ki, bu haqda energetika naziri Natiq Əliyev Brüsseldə mənzillənmiş EurAktiv portalına açıqlamasında bildirib. "Bizə maraqlıdır ki, Avropa Komissiyası nəyə görə bu razılaşmanın Avropa İttifaqının antiinhisar normalarına cavab verib-vermədiyini bu cür uzun müddət araşdırır"- deyə N.Əliyev bildirib.

SOCAR DESFA-nın səhmlərinin üçdə ikisinin 400 milyon avroya alınmasına dair müqaviləni 2013-cü ilin yayında imzalayıb. Bu sövdələşmə Cənub Qaz Dəhlizində Azərbaycan şirkətinə əlavə üstünlüklər vəd edir. Lakin ötən ilin noyabrında Avropa İttifaqının (Aİ) antiinhisar direktorluğu bu sövdələşmənin nə dərəcədə qanunauyğun olduğunu araşdırmağa başlayıb.

Aİ-nin Üçüncü enerji paketinə görə, təchizatçı şirkətlərin eyni zamanda qaz nəqli sisteminə nəzarət etməsinə yol verilmir. Məsələyə baxılması aprel ayına təxirə salınıb.



Natiq Əliyev

EurAktiv xəbər verir ki, nazir Natiq Əliyev bu sövdələşmə ətrafında vəziyyəti araşdırmaq üçün Brüsselə səfər edib və martın 10-da Aİ-nin energetika məsələləri üzrə yüksək rəsmisi Maroş Şevçoviçlə danışıqlar aparıb. Danışıqlar zamanı Əliyev ölkəsinin narahatlığını və narazılığını çatdırıb.

**Nazir izah edib ki, Azərbaycan bu sövdələşmədə heç bir maraqlar toqquşmasının mövcud olmadığına əmindir. Çünki Yunanıstan ərazisindən TAP kəməri ilə qaz nəql edəcək şirkət SOCAR yox, "Şahdəniz" konsorsiumu olacaq. SOCAR isə bu konsorsiumda cəmi 16,6 faiz, TAP kəmərində isə 20 faiz paya malikdir.**

"Bildiyiniz kimi, Azərbaycan hazırda "Şahdəniz"də cəmi 16,6 faizlik paya malikdir. Ona görə də biz hesab etmirik ki, Azərbaycan Yunanıstan ərazisində həm qaz təchizatçısı, həm paylayıcısı, həm də bu qazın mülkiyyətçisi olacaq. Mən ümid edirəm ki, Avropa Komissiyası bunu nəzərə alacaq" - deyə N.Əliyev bildirib.

Nazir həmçinin Azərbaycan prezidenti İlham Əliyevin martın 3-də Bolqarıstana səfəri zamanı bu ölkənin baş naziri Boyko Borisovla apardığı danışıqları və "Nabucco" qaz kəməri layihəsinin bərpasına dair səslənən bəyanatları şərh edib. N.Əliyev bildirib ki, Azərbaycan Avropaya qaz nəqli məsələsində Rusiya ilə rəqabətə girmir. Rusiya "Türk axını" kəməri ilə Avropaya ildə 63 milyard kubmetr qaz nəqli planlaşdırır. Azərbaycanın cari planı isə ancaq bundan ibarətdir ki, Aİ ölkələrinə ildə 10 milyard kubmetr qaz nəql etsin. Lakin nazir Azərbaycanın 2,7 trilyon kubmetrə yaxın qaz ehtiyatlarının olduğunu da xatırladıb.

Nazirin sözlərinə görə, gələcək layihələr bu dəhlizlə əlavə qaz nəqlinə imkan verəcək, ancaq nəql marşrutu "Nabucco"dan çox fərqlənəcək. Əliyev Bolqarıstanda aparılan danışıqlarda Azərbaycanın Yunanıstan-Bolqarıstan qaz kəmərləri sistemini birləşdirən kəmərdə paya sahib olması imkanı əldə edərsə bu ölkəyə daha çox qaz nəql etmək imkanlarının olmasından da danışdığını deyib. Azərbaycan Bolqarıstana əvvəl razılaşdırıldığı kimi, 1 milyard kubmetr deyil, daha çox qaz verə bilər.

"Biz həmçinin Azərbaycanın Bolqarıstanın qaz anbarlarının tutumunun genişləndirilməsi layihəsində iştirak imkanlarını, ölkənin kimya müəssisələrinin qazlaşdırılmasını və modernizasiyasını da müzakirə etmişik"- deyə N.Əliyev bildirib.

# bp Xəzəri məhv edir - dənizə yüz ton kimyəvi maye dağılıb!

## Şirkət faktı dolayısı ilə təsdiq etsə də, məhlulun zərərsiz olduğunu bildirir; ekspertlər isə hökumətin də faktın ictimailəşməsində maraqlı olmadığını deyirlər...

**Martın 10-da gecə saatlarında musavat.com-a həyəcanlı xəbər daxil olub. Məlumatda iddia olunur ki, bp Xəzər dənizindəki "İstiqlal" qazma buruğunda yoxlama aparır. İddiaya görə, qazma zamanı dənizə 100 tona yaxın kimyəvi maye (mud) dağılıb.**




**Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Mirvari Qəhrəmanlı** məsələ ilə bağlı bildirib ki, bp bu cür hadisələri ictimailəşdirməkdə maraqlı deyil: "Bir hadisə, qəza olanda bp açıqlama vermir. Bir neçə dəfə bu cür hallar baş verib, şirkət dərhal açıqlama vermir, sonradan ümumi şəkildə nəsə deyir. Hətta Bakı-Tbilisi-Ceyhan kəməri ilə bağlı problem yarananda da onlar tam açıqlama vermədilər. Onlar cəmiyyətə açıqlama verməyi xoşlamırlar".

**Baş verən olay bp tərəfindən musavat.com-a dolayısı ilə təsdiqlənib. "bp Azərbaycan" şirkətinin mətbuat xidmətinin başçısı Tamam Bayatlı bildirib ki, "İstiqlal" qazma buruğu yox, qazma qurğusudur. Azərbaycanın iki böyük qazma qurğusundan biridir. bp ondan "Şahdəniz"də qazma əməliyyatlarında istifadə edir, yəni bp-nin əməliyyatçısı olduğu yataqda quyu qazır:** "Quyu qazılan zaman qazma məhlulundan istifadə olunur. Qazma məhlulu olmadan quyu qazmaq olmaz. Qazma məhlulu sintetik və su əsaslı olur. Biz qazarkən su əsaslı qazma məhlulundan istifadə edirik. Martın 5-də suyun 537 metr dərinliyində dənizin dibinə qazma məhlulu sızıb. Su əsaslı məhlul zərərsiz hesab olunur, əsasını su təşkil edir. Normal halda da bu cür su əsaslı qazma məhlulu durulaşdırılaraq dənizə tökülə bilir. Çünki su əsaslı qazma məhlulu tam zərərsiz hesab olunur. Toksiklik səviyyəsi çox aşağıdır. Təbii şəkildə tez bir zamanda bioloji parçalanmaya məruz qalır. Belə sızma olarkən dərhal müvafiq orqanlara xəbər verilir. Müvafiq orqanlar Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyidir və Dövlət Neft Şirkətidir. Müvafiq tədbirlər də görülüb".

**Ekspert Natiq Cəfərli isə bildirib ki, bp-nin oxşar və daha ciddi problemi bir neçə il əvvəl Meksika körfəzində yaşanıb:** "bp Meksika körfəzində çirklənməyə görə hələ də təzminat ödəyir. Təzminatın həcmi 20 milyard dollardan yuxarıdır. Həm Amerika hökumətinə, həm də sahildə yaşayan balıqçılıqla məşğul olan şəxslərə təzminat ödənilir. Hadisənin qazanclarına birbaşa təsir olan şirkətlərə hələ də təzminat ödəyir. Azərbaycan qapalı bir ölkədir. İctimaiyyətlə normal doğru-dürüst əlaqələr qurulmayıb. Məhkəmə sistemində normal çalışması mümkünsüz olan bir ölkədir. Bu səbəbdən bu tip çox vacib, insanları doğrudan da maraqlandıra biləcək və Azərbaycanın, Xəzərin ekoloji vəziyyətinə təsir edə biləcək hadisələr diqqətdən kənarda qalır. Bu, təəssüf doğurur. Əslində bununla bağlı doğru-dürüst məlumatlar da yoxdur, müəyyən rəqəmlərdən başqa. Ölkədə qeyri-hökumət sektorunun işləməyinə şərait yaradılsaydı, ekologiya ilə məşğul olan sivil toplum olsaydı, televiziyalar bu işi normal işıqlandıra bilsəydilər, bp-nin məhkəməyə verilməsi və təzminat ödəməsi, ümumiyyətlə, bu işin araşdırılması daha mümkün hala gələrdi. Bu, Azərbaycanın sistemli problemlərindən qaynaqlanan bir məsələdir. Bir çox sahələrdə olduğu kimi, burada da insanların bilgiləndirilməsi, məlumatlandırılması çox aşağı səviyyədədir. bp 1994-cü ildən Azərbaycana gələndən hökumətlə çox sıx işləyir. İnanmıram ki, hökumət də bu tip məlumatların yayılmasında maraqlı olsun. Çox güman ki, Azərbaycan hökumətinin də marağı yoxdur bu məsələnin üzərinə getsin".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 55 (6083) 12 mart 2015

**Azərbaycan vətəndaşlarını Suriyada gedən döyüşlərə cəlb edən şəxslər tutulub. DİN və Baş Prokurorluğun mətbuat xidmətlərindən musavat.com-a daxil olan birgə məlumatda qeyd olunur ki, respublikanın hüquq-mühafizə orqanları cinayətkarlıqla mübarizə sahəsində Tərtər rayonunda növbəti xüsusi əməliyyat tədbiri həyata keçiriblər.**

# Həbs edilən QAT-çılara ağır ittiham

## Akif Nağı: "İttihamları qəti şəkildə qəbul etmirik"
## İqbal Ağazadə: "Ehtimal edirəm, Vüqar Əliyevi yanlış informasiya əsasında həbs ediblər"





DİN-ə müraciət edən rayon sakini yetkinlik yaşına çatmayan oğlunun radikal dini cərəyana cəlb olunmaqla Suriyaya göndərildiyini və orada qanunsuz silahlı birləşmələrin tərkibində döyüşlərdə iştirak etdiyini bildirib. Aparılan araşdırmalarla Tərtər ərazisində ayrı-ayrı vətəndaşların ölkə hüdudlarından kənarda qeyri-qanuni fəaliyyət göstərən silahlı birləşmələrin sıralarına qoşulmasını təşkil edən, dini dözümsüzlük və bölücülük təbliğatı aparan ekstremist yönümlü şəxslərdən ibarət mütəşəkkil cinayətkar dəstə müəyyən edilib. Nazirliyin xüsusi təyinatlı polis qüvvələri də cəlb olunmaqla Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi, Tərtər RPŞ və prokurorluğunun əməkdaşları tərəfindən həmin dəstənin 4 üzvü - əvvəllər məhkum olunmuş Zülfüqar İbrahimov, Mübariz Mirzəliyev, Şəmsəddin Abdullazadə və Vüqar Əliyev saxlanılıblar.

Onların yaşadıqları mənzillərə baxış zamanı ümumilikdə 2 ədəd sandıqçası ilə birlikdə 1 avtomat, 800 qram partlayıcı maddə, alışdırıcıları ilə birgə 9 əl qumbarası, 170 ədəd patron, yayılması qanunla qadağan olunmuş xeyli sayda dini ədəbiyyat, disklər və digər maddi sübutlar götürülüb. Faktla bağlı cinayət işi başlanılıb, istintaq aparılır.

Martın 10-da musavat.com QAT-a istinadən təşkilatın iki üzvünün həbsi barədə məlumat yaymışdı. Məlumatda bildirilirdi ki, QAT sədri Akif Nağı həbslərin qanunsuzluğu ilə əlaqədar baş prokurora və daxili işlər nazirinə müraciət edib. Rəsmi məlumatda adı keçən Z.İbrahimov və V.Əliyev QAT üzvləridir və onlar martın 10-u, səhər saatlarında saxlanılıb. A.Nağı rəsmi müraciətində bildirib ki, təşkilat üzvlərinin təqsirinin olduğuna inanmır: "Tam məsuliyyətlə bildirirəm ki, bu, qurama bir işdir, rayon səviyyəsində hansısa məmurun intriqası və qərəzindən başqa bir şey deyil..."

**A.Nağı 11 martda "Yeni Müsavat"a dedi ki, hazırda atılacaq addımlarla bağlı məsləhətləşmələr gedir:** "Bu gün vəkillə müqavilə imzalanıb, ancaq onun təqsirləndirilənlərlə görüşü mümkün olmayıb. Saxlanılanların qohumları Prezident Administrasiyasına və DİN-ə gedib, qəbula yazılıblar. Ancaq ittihamları qəti şəkildə qəbul etmirik".

**A.Nağı onu da dedi ki, artıq deputatlar da məsələyə müdaxilə edib:** "Zülfüqar İbrahimli Böyük Quruluş Partiyasının üzvüdür, partiya sədri və deputat Fazil Mustafa da məsələyə reaksiya verib. Həmçinin deputat İqbal Ağazadə də aidiyyəti üzrə müraciətlər edib, hələ bir nəticə yoxdur".

**Həbs edilən V.Əliyev Ümid Partiyasının keçmiş üzvüdür. Xəbəri "Yeni Müsavat"a açıqlamasında Ümid sədri İqbal Ağazadə verib. Onun sözlərinə görə, partiya sıralarından 2010-cu ildə tamamilə ayrılan V.Əliyev dini yox, dünyəvi görüşləri ilə seçilirmiş:** "Vüqar Əliyev ciddi karyerası olan bir şəxsdi. O, Gənclər və İdman Nazirliyinin tərkibindəki qurumlardan birində beynəlxalq əlaqələr üzrə katib olub. Eyni zamanda Avropa Şurasında Azərbaycan gəncliyini təmsil edirdi - Avropa Şurasının milli komitəsində gənclər üzrə katib idi. Heç vaxt dindar olmayıb, heç vaxt namaz qılmayıb. Onun çalışdığı ən son qurumlardan biri Avroatlantik məkana inteqrasiya ilə bağlı bir QHT idi".

**İ.Ağazadə bildirir ki, radikal dini qurumlara mənfi münasibəti ilə seçilən V.Əliyev yeznəsi vəhhabi olduğuna görə bacısını ondan boşatdırmışdı:** "Bu gün keçirilən əməliyyatda həbs edilən Zülfüqar İbrahimov Vüqar Əliyevin bacısının keçmiş qaynıdır. Yeznəsi vəhhabilərə qoşulduğu üçün Vüqar bacısını bu ailədən ayırdı. Vüqar Əliyevin kiçik qardaşı isə 2003-cü ildə "Qarabağ partizanları"nın tərkibində tutulmuşdu. Sonradan Vüqar Əliyev qardaşını da həmin dəstədən tamamilə uzaqlaşdırdı. Ehtimal edirəm ki, onu yanlış informasiya ilə həbs ediblər. Mən bu insanı 2003-dən tanıyıram. Onun dinə münasibəti tamamilə fərqli olub".

**İ.Ağazadə deyir ki, V.Əliyev son bir neçə ildə həm də kiçik bizneslə məşğul idi:** "Onun Goranboyda çörək sexi vardı. Eyni zamanda beynəlxalq qurumlardan birinin, səhv etmirəmsə, SOS-un Gəncə regional təşkilatına rəhbərlik edirdi. 2013-cü ilin sonlarına qədər orada çalışırdı".

**İ.Ağazadə ümid edir ki, istintaq tədbirləri zamanı bütün detallara aydınlıq gətiriləcək.**

❑ **ELŞAD, AYGÜN**

# Devalvasiya QMİ sədrini də "vurdu"

**Manatın 33 faiz dəyərdən düşməsi bu il Azərbaycandan Həcc ziyarətinə getmək istəyənlər üçün də "sürprizlər" gətirib. Bu il Həcc ziyarəti üçün qiymətlərin əvvəlki ilə nisbətən baha olacağı barədə iddialar təsdiqlənib. Belə ki, VİP xidmətlərlə Həcc ziyarəti 5750, adi xidmətlərlə isə 4700 dollar olacaq.**



# Şeyx Həcc qiymətlərini artırdı - səbəblər

## Bu il müqəddəs torpaqlara getmək istəyənlər 4700-5750 dollar civarında xərc çəkməli olacaqlar; bu rəqəm qonşu ölkələrlə müqayisədə də çox bahadır; Səudiyyə Ərəbistanının Bakıdakı səfirliyi QMİ sədrindən narazıdır və Həcc vizasındakı monopoliyanı aradan qaldırmaq müzakirə olunub; varlı ərəb ölkəsinin zəvvarların cibinə göz dikməsi inandırıcı deyil, çünki...

Bu barədə a24.az saytına İlahiyyat məscidinin imamı Ceyhun Rüstəmov məlumat verib. O deyib ki, martın 11-dən etibarən Həcc ziyarətinə getmək istəyən zəvvarlardan sənəd qəbuluna başlanılıb.

C.Rüstəmov qeyd edib ki, Həcc ziyarətinə getmək istəyənlər pulun köçürüldüyünü təsdiq edən qəbzi və yuxarıda adı çəkilən sənədləri Qafqaz Müsəlmanları İdarəsinin Həcc şöbəsinə təqdim etməlidirlər. Bu il Həcc ziyarəti üçün təxminən 3 minə yaxın kvota müəyyənləşdiriləyini açıqlayan C.Rüstəmov deyib ki, kvota dolan kimi sənəd qəbulu dayandırılacaq. C.Rüstəmov bu məlumatları QMİ-dən aldıqlarını əlavə edib. C.Rüstəmov Həcc ziyarəti üçün qiymətlərin niyə bu qədər bahalaşdığı sualına cavab olaraq deyib ki, bununla bağlı QMİ-yə müraciət etmək olar: "Deyəsən, Səudiyyə Ərəbistanında da qiymətlər bahalaşıb. Yəni bu da var. Amma qiymətlərin niyə bu qədər baha olduğu barədə suala QMİ cavab verə bilər. Biz qiymət məsələsinə qarışa bilmərik".

a24.az saytının məlumatına görə, bu il Türkiyədən Həcc ziyarətinə getmək istəyən zəvvarlar bunun üçün 3600 dollar ödəməli olacaqlar. Ötən il türkiyəli zəvvarlar Həcc ziyarəti üçün 2780 avro ödəyiblər ki, bu da indiki kursla 7840 lirə edirdi.

Bu vaxta qədər Türkiyədə Diyanət İşləri Başqanlığı Həcc ziyarətləri zamanı avro ilə aldığı xərcləri dollara çevirib Səudiyyə Ərəbistanına təqdim edirdi. Lakin bu dəfə Diyanət İşləri Başqanlığı tələb olunan xərcləri vətəndaşlardan dollarla almağa başlayıb. Verilən bu qərar dolların dəyərinin artması ilə əlaqələndirilərək böyük müzakirələrə səbəb olub. Ancaq Diyanət İşləri Başqanlığı verilən qərarın dolların yüksəlməsi ilə əlaqəsinin olmadığını bildirib. Qərarın 2014-cü ilin noyabr ayında verildiyini qeyd edib.

Qeyd edək ki, hətta qonşu ölkədəki bu qiymətlər belə Azərbaycanla müqayisədə xeyli ucuz hesab olunur. Çünki Azərbaycanda ötən il zəvvarlar nisbətən şəraiti zəif və gündə iki dəfə yemək verilən hotellərdə qalmaq şərtilə 3250 manat, başqa sözlə, köhnə kursla 4 min dollardan bir qədər artıq, nisbətən daha yaxşı şəraitli və yeməklər təklif olunan paket üçün isə 4100 manat və ya 5200 dollar ödəyirdilər. "Yeni Müsavat"ın araşdırmasına görə, Rusiyada Məkkədə Ramazanın 10 günü və + Mədinədə üç bayram günü 3900 dollardır. Bura vizanın düzəldilməsi və beşulduzlu hotel, aeroportda qarşılanma, o başdan yemək daxildir. Bundan başqa, Rusiyada ekonom tipli ziyarət də təklifləri var ki, bu da 3750 dollardır. Nəzərə onu da çatdıraq ki, Azərbaycan Səudiyyəyə Rusiyadan daha yaxındır, qiymətlər baha olsa da...

Beləliklə, məlum olur ki, hətta köhnə qiymətlərlə belə götürəndə Azərbaycanda ziyarət qiymətləri qonşu ölkələrlə müqayisədə müəyyən qədər bahadır.

Məlumdur ki, Azərbaycanda Həcc ziyarətini yalnız QMİ həyata keçirir. Bu səbəbdən də idarənin tətbiq etdiyi qaydalar bütövlükdə Azərbaycandan gedən zəvvarlar üçün məcburi hesab olunur.

Ötən ay belə bir xəbər yayılmışdı ki, mövqeləri xeyli zəifləmiş Şeyxin Həcc biznesində monopoliyasına son qoyula bilər və bunda Səudiyyə krallığı maraqlıdır.Həmin məlumatda bildirilirdi ki, hətta Səudiyyə Ərəbistanının Bakıdakı səfirliyində toplantı olub və bu ildən etibarən Həcc vizasının sadəcə QMİ deyil, başqa turist firmalarına verilməsi məsələsi də müzakirə olunub. Məlumatlarda iddia olunurdu ki, Səudiyyə Ərəbistanı səfirliyi Şeyxin və yaxın ətrafının bu ölkə ilə bağlı mövqeyindən *(güman ki, Azərbaycandakı sələfilərlə bağlı mövqedən)* narazıdır və bu səbəbdən belə bir müzakirə açmaqla QMİ rəhbərinə daha korrekt davranmasına çalışırlar. Maraqlıdır ki, bu xəbər QMİ sədrinin İslam Aləmi Liqasının təşkilatçılığı ilə Məkkədə keçirilən "Terrorizmlə mübarizə" mövzusunda beynəlxalq konfrans ərəfəsində yayılmışdı...

Qeyd edək ki, hər il QMİ-nin təşkil etdiyi Həcc ziyarətindən xeyli narazı qalanlar olur. Bu, həm ziyarət qaydalarının pozulması, həm də oradakı xidmətə aiddir.

QMİ hələ ki qiymət artımı ilə bağlı rəsmi izahat verməsə də, aydındır ki, bu izahat neftin qiymətinin düşməsi, Azərbaycandakı devalvasiya ilə əlaqələndiriləcək. İlahiyyat məscidinin imamının "deyəsən, Səudiyyə Ərəbistanında da qiymətlər bahalaşıb" deməsi artıq buna işarədir. Həcc qiymətlərinin artırılmasının Səudiyyə Ərəbistanındakı neftin qiyməti ilə əlaqələndirilməsinə gəlincə, artıq məlumdur ki, bu ölkə aprel ayında Asiya və Sakit Okean bazarında neftin 1 barelini 1,4 artırmağa qərar verib ki, bu da onsuz da kifayət qədər varlı olan ehtiyat fonduna əlavə gəlir deməkdir. Neftin qiymətinin düşməsinə baxmayaraq, Səudiyyə Ərəbistanı hökuməti təhsil, peşə hazırlığı, habelə infrastrukturun inkişafı və maaşların artırılmasına külli miqdarda vəsait ayıra bilir. Səudiyyə Ərəbistanı hələ ötən ilin sonunda 2015-ci ilin büdcəsinə neftin qiymətinin düşməsi ilə bağlı korrektələr etmişdi. Neftin büdcədə 80 dollar olacağı, yeni dövlət büdcəsində gəlirləri 860 milyard rial *(229 milyard dollar)*, gəlirlərin isə 715 rial ( 190 milyard dollar) proqnozlaşdırılıb. Doğrudur, "Standard&Poor's neftin qiymətinin düşməsi ilə bağlı Səudiyyə Ərəbistanının da reytinqində cüzi "vəziyyət pisləşib" dəyişikliyi edib. Amma yeni kral Salman ibn Abdul-Əziz Əl Saud taxta çıxdıqda sonra dövlət aparatında çalışanların məvacibini iki dəfə artırıb. Tələbələrə isə ayda iki dəfə təqaüd verilməsinə də qərar verib. Kral taxta çıxdıqdan sonra təqaüd, mükafat, məvacib, hətta dövlətə borclu olanların borclarını silməyə ümumilikdə 30 milyard dollar xərcləyib ki, bu barədə google axtarış sistemində yetərincə məlumat almaq mümkündür. Bu misalları o səbəbdə gətirir ki, krallıq Həcc ziyarətindən də büdcə üçün onsuz da kifayət qədər gəlir əldə edir və zəvvarların cibinə göz dikməsi o qədər də inandırıcı deyil. İkinci bir tərəfdən, ötən il neftin qiyməti həm Azərbaycanda, həm Səudiyyə krallığında 100 dollardan az deyildi. "Bəs o zaman niyə Şeyx Həcc qiymətini qaldırmışdı" sualının cavabı da yəqin ki, QMİ-də yoxdur...

Səudiyyə Ərəbistanı ilin bütün fəsillərində turistlər üçün uyğun ölkədir və burada qiymətlər təbii ki, nəzərdə tutulan büdcəyə uyğunlaşa bilir. Məsələn, turpoqoda.ru saytının son məlumatına görə, aprel ayında krallığa 2 nəfər 10 günlük istirahəti üçün 5 min dollarından keçməlidir. Amma üçulduzlu hoteldə 1200-2000 dollarla da normal istirahət mümkündür. Həcc istirahət deyil, hər bir müsəlmanın arzuladığı ziyarətdir. Amma qiymətləri özünüz müqayisə edin və nəticə çıxarın...

**Yeri gəlmişkən, Səudiyyə Ərəbistanı insanların həyat səviyyəsinə görə bu il açıqlanan reytinq cədvəlində bir sıra Avropa ölkələrini üstələyərək 50-ci yeri tutur. (məlumatın linki: http://najmtur.ru/article/?article_id=152).**

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 55 (6083) 12 mart 2015



# Virtual fahişəxanada süni qiymət artımı

Samir SARI

**Bu günlərdə cinsəl həyat sferasına aid iki maraqlı xəbər yayılıb. Onlardan biri Avropaya aiddir, o biri öz ölkəmizə. Bir az paradoksal xəbərlərdir. “Niyə Avropada elədir, amma bizdə başqa cürdür” ritorikasını sevən adamlar üçün bundan yaxşı, türkün sözü, malzəmə ola bilməz.**

Birinci xəbər Almaniyadan gəlib. Belə yazırlar ki, Münhen şəhərinin həndəvərində yerləşən Saygertsbrun adlı şəhərdə yaşayan, işləyən bir protestant rahib mühacirlərə pulsuz olaraq fahişə verilməsini tövsiyə edib.

Din xadiminin adı da var: Ulrix Vaqner. Soyadıyla məşhur bəstəkarı andıran kilsə xadimi əmindir ki, əslində çox savab təşəbbüslə çıxış edir. O deyib ki, immiqrantların yemə-içmə kimi cinsi münasibətə də ehtiyacları var.

Özü də bu fikir Vaqnerin başına elə-belə, durduğu yerdə gəlməyib. Özü bu barədə qəzetlərə belə deyib: “Bu fikir beynimə bir dostumun yaşadığı kəndin camaatının mühacirlərin qadınlara sataşmalarından qorxduğunu deyəndən sonra gəldi”.

Demək, Vaqnerin dostugilin yaşadığı kənddə Şərq ölkələrindən gələn bir sürü yanıq mühacir yaşayır, cinsi planda iztirab çəkdiklərindən küçədə-bayırda xalxın qız-gəlininə sataşırlar, fikirləşirlər ki, bura Avropadır, burda man deyil, azad şəkildə qabağına çıxan dişilərə cürbəcür təkliflər edə bilərsən.

Belə gönüqalınlığa vərdiş eləməyən alman fraular geridəqalmış ölkələrin qabağagetmiş erkəklərinə, el dilində desək, “otval” verəndən sonra, təbii ki, bir çox hallarda zorakılığa əl atılması labüddür. Axı, Vaqner demişkən, adamın yeməyə, içməyə ehtiyacı olduğu kimi, “dil bilən, söz anlayan bir nazlı yar”a da ehtiyacı var, amma qəddar fraular mırr eləyib yaxın gəlmirlər. Deməli, necə olmalıdır? Adə, bunun qabağını kəs, görümE

Ona görə də keşiş bu problemin həlli yolunu belə görür ki, öz uçuq-sökük daxmalarından, palçıqlı küçələrindən, aramsız müharibələrdən başını götürüb abad və firavan Almaniya qəsəbələrinə pənah gətirmiş, canından qorxu hissi çıxdığına, qarnı doyduğuna görə qızmış meymuna dönmüş erkək mühacirlərə pulsuz fahişə xidməti göstərilsin ki, bunlar da sönüküb camaatın anasına, bacısına sataşmasınlar.

Orası Avropadır, bu yaxınlarda olmasa da, əvvəl-axır keşiş Vaqnerin təşəbbüsünü dəstəkləyəcəklər və mühacirlərin də canı dincələcək, zorakılığa məruz qalan qadınların da.

Hələlik mühacirlərə pulsuz xidmət göstərəcək qadınların haqqının kim tərəfindən ödəniləcəyi, layihənin necə maliyyələşdiriləcəyi məsələsi açıq qalır. Sponsorlar tapılsa, bu, elə də həyata keçirilməsi mümkün olmayan proje deyil.

Cinsi həyatın yüngülləşdirilməsinə dair ikinci xəbər isə öz ölkəmizdən qaynaqlanır. Saytlar yazırlar ki, eskort xidmətlər təklif edən sayt yaradılıb. Saytda bir xeyli “dilbər”in lüt-madərzad şəkli də verilib, müvafiq mətn də yerləşdirilib. Şəkillərin dünyaca ünlü fahişələrə məxsus olması heç, amma mətndə deyilir ki, bu incə xanımlar zərif kişilərlə bir arada beynəlxalq vəziyyəti müzakirə edə bilərlər.

Əlbəttə ki, həmin “zərif kişilər”in qəlbləri nazik olsa da, cibləri dolu, pul kisələri qalın olmalıdır. Çünki intim xidmət ucuz deyil - 300-1000 manat arası.

Manatın devalvasiyaya uğradığı, inflyasiyanın qapıya dirəndiyi bir vaxtda bəlkə də “incə xanım”ların göstərdiyi intim xidmətin qiyməti çox baha deyil, amma Almaniyanı, keşiş Vaqnerin təşəbbüsünü yada salanda, görürsən ki, yox, bu işdə də süni qiymət artımı var. Hara baxır Antiinhisar Komitəsi?

Virtual fahişəxana açanlar heç olmasa ölkəmizə gəlmiş mühacirləri nəzərə alsaydılar, onlar üçün endirim təşkil etsəydilər, yenə məsələni birtəhər ali humanizm prinsiplərinə-zada bağlaya bilərdilər. Amma zalım uşağı istəyir ki, bir gecədə varlansılar.

Bu yazının klaviaturaya alındığı vaxtlarda xəbər gəldi ki, polis hərəkətə keçib və eskort xidmətlər təklif edən saytı işlədənlərə dair təhqiqata başlayıb. Ardınca həmin sayt da aktivliyini itirdi, heç əvvəlcədən yoxmuş kimi, məchullara qarışdı.

Deyəsən, mətbuat mərdimazarlıq elədi. Bir xeyli adam yaxşı pul qazana bilmədi, bir xeyli kişinin də pulu əlində qaldı.

# Dörd bank bağlana bilər

**Azərbaycanda 4 bankın məcmu kapitalı 50 milyon manatdan aşağıdır. Mərkəzi Bankın məlumatına görə, müəyyən olunmuş limitdən, yəni 50 milyon manatdan yuxarı olan bankların sayı 23-dür. Doqquz bankın isə məcmu kapitalı 60 milyon manatdan 100 milyon manatadəkdir. Bununla yanaşı, 9 bankın məcmu kapitalı 100 milyon manatdan yuxarıdır.**

## “Mərkəzi Bank yenə də insanları məlumatsız buraxaraq, ajiotajın, gərginliyin artmasına yol açır”




Bu bankların məcmu kapitalının ümumi bank kapitalında xüsusi çəkisi isə 57,3 faiz təşkil edir. Qeyd edək ki, Mərkəzi Bank ölkədə fəaliyyət göstərən banklara 2014-cü ilin sonuna kimi nizamnamə kapitalını 50 milyon manata qaldırmaq tələbini bildirib. Yəni nizamnamə kapitalı 50 milyon manatdan aşağı olan bankların fəaliyyəti dayandırıla bilər.

Qeyd edək ki, Mərkəzi Bankın kommersiya banklarının kapitallaşmasının artırılması ilə bağlı qoyduğu müddətdən artıq 2 ay keçib. 2015-ci ilin yanvarın 1-dək nizamnamə və məcmu kapitalını 5 dəfə artırıb, 50 milyon manata çatdıra bilməyən bank bazarı ya tərk edəcək, ya da digər banklara birləşdiriləcəkdi. Ancaq Mərkəzi Bankın qoyduğu normativləri ödəyə bilməyən banklarla bağlı heç bir tədbir görülmür. Ekspertlər bildirirlər ki, Mərkəzi Bankın susqunluğunun səbəbi durumu daha da dramatikləşdirmək istəməməsidir.

Modern.az-ın əldə etdiyi rəsmi məlumata görə, bağlanacaq banklar bunlar ola bilər:

**“EuroBank” - məcmu kapitalı 7,5 milyon manat**

**“Naxçıvan Bank” - məcmu kapitalı 42 milyon manat**

**“Bank Avrasiya” - məcmu kapitalı 22 milyon manat**

**“Azərbaycan Kredit Bankı” - məcmu kapitalı 5,8 milyon manat.**

Siyahıda adı olan “Atra Bank”ın isə məcmu kapitalının 50 milyon manata yaxınlaşdığı bildirilir. “Azər-Türk Bank”ın məcmu kapitalı 50 milyon manatdır.

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, yanvarın 1-də Mərkəzi Bankın banklar qarşısında qoyduğu müddət bitsə də, vəziyyətlə bağlı açıqlama verilmir: “Hələ də Mərkəzi Bankdan, nə də digər müvafiq dövlət və hökumət orqanlarından bu məsələ ilə bağlı doğru-dürüst bir açıqlama olmayıb. Əslində belə açıqlamaların olmaması bazarda narahatlığı, gərginliyi artırır. İnsanlar arasında da müəyyən söz-söhbətlərin, ajiotajın yaranmasına səbəb olur. Mərkəzi Bank düzgün siyasət yürütmür. İnformasiya, doğru-dürüst məlumat nə qədər çox olarsa, bazarın sakitləşməsi və ajiotaja səbəb olmaması üçün ciddi bir zəmin yaranar. Görünən odur ki, hələ bu banklarla bağlı son qərar qəbul olunmayıb”.

**Onun sözlərinə görə, Mərkəzi Bank yenə də insanları məlumatsız buraxaraq, ajiotajın, gərginliyin artmasına yol açır:** “Keçən ilin sonunda Mərkəzi Bank qərar verdi ki, kapitallaşma səviyyəsi 50 milyon manatdan aşağı olan banklara lisenziya verilməyəcək, həmin banklar qapanacaq. Artıq martın ortasıdır, hələ də doğru-dürüst açıqlama yoxdur. Sadəcə, elan ediblər ki, 4 bank bağlanacaq. İnsanlar təşviş içindədir. Bu barədə Mərkəzi Bank çıxıb normal açıqlama verməlidir. Maliyyə-bank sistemi üçün ən təhlükəli şey təşvişdir, qeyri-müəyyənlikdir. İnsanların pis gözləntiləri artdıqca, banklara güvəni azalır, vəsaitləri banklardan çəkməyə başlayır. Bu da öz növbəsində onsuz da çox ağır durumda olan bank sektorunun vəziyyətini daha da çətinləşdirir. Devalvasiyadan öncə də Mərkəzi Bankın oxşar davranışı ajiotajı artırdı, təşvişi çoxaltdı”. O bildirib ki, bank sistemimiz çox zəif və kövrəkdir: “Devalvasiya stresini hələ heç kəs ata bilməyib. İndi də bankların bağlanması söz-söhbətləri bank sistemini çökdürə bilər. Tezliklə Mərkəzi Bank normal açıqlama verməlidir”.

**Ekspertin sözlərinə görə, Mərkəzi Bank manatın devalvasiyasına görə bankların bu problemini qabartmır:** “Çox güman ki, Mərkəzi Bankın belə reaksiyanı gecikdirməsinin səbəbi bank sferasında devalvasiyadan sonra yaranan durumdur. Ümumiyyətlə, devalvasiyadan sonra banklarda müəyyən ciddi problemlərin yaşanılması qaçılmazdır. Öhdəliyi yerinə yetirə bilməyən banklarla bağlı hansısa qərar bank sferasında bu ajiotajı daha da artıra bilər. Bankların bağlanması insanlarda bir panika havası yarada bilər. Ona görə də çox güman ki, Mərkəzi Bank bankların bağlanması yolunu tutmaq istəmir. Çıxış yollarından biri kimi, çox güman ki, iri banklar tərəfindən kiçik bankların idarəetməsinin alınması, ya ümumiyyətlə, böyük banklar tərəfindən obrazlı desək, onların "udulması" prosesi baş verə bilər. İndi çox güman ki, bağlanma ehtimalı yüksək olan bankların tədiyyə balansı ilə məşğuldurlar. Ehtimallardan biri budur ki, onların gəlirlərini, xərclərini, borclarını, öhdəliklərini öyrənirlər ki, hansı banklarda vəziyyət necədir. Bu nəticələr əldə olunduqdan sonra o banklarla bağlı müəyyən qərar verilə bilər. Böyük ehtimalla, iri banklar tərəfindən həmin bankların “udulması”na qərar veriləcək. Çünki bankların müflis elan edilməsi, lisenziyasının əlindən alınıb, bağlanması bu sferada, ciddi ajiotaja və insanlar arasında bir panikaya səbəb ola bilər. Ona görə də yaxın vaxtlarda qərar veriləcək".

**Ekspert Samir Əliyev isə musavat.com-a açıqlamasında qeyd edib ki, banklarla bağlı bu problemi devalvasiya məsələləri bir növ arxa plana keçirib:** “Mərkəzi Bank banklara dekabrın 31-nə qədər vaxt vermişdi. Hazırda mart ayıdır. İlkin məlumatlara görə, bağlanma təhlükəsində olan 4 bankın adı hallanır. Amma bankların adı açıqlanmır. Banklarla bağlı qərar verilməməsinin səbəbi odur ki, görünür, Mərkəzi Bank bu müddəti bir qədər də uzadıb. Banklara vaxt verib ki, qısa müddətdə bu məsələni həll etsinlər. Söhbət ondan gedir ki, devalvasiyadan sonrakı proseslər bankların vəziyyətini daha da pisləşdirdi. Həmçinin xarici valyutada olan kreditlərin qaytarılması ilə bağlı məsələlər vəziyyəti daha da ağırlaşdırdı. Əgər hökumət qərar qəbul etsə ki, xarici valyutadakı kreditlər köhnə məzənnə ilə ödənilsin, bu, avtomatik olaraq bankların məcmu kapitalına zərbə vuracaq. Banklarda Mərkəzi Bankın qoyduğu normativ aşağı düşəcək. Ona görə də bu, vəziyyəti daha da mürəkkəbləşdirəcək. Burada başqa problemlər də var. Ümumi götürəndə, banklar üçün çox çətin situasiya yaranıb. Müvafiq tədbir görülməsə, bankların bağlanması məsələsi reallığa çevriləcək”.

❑ Röya RƏFİYEVA



# Dollar avronu əzməkdə davam edir, bəs manat?

## Vüqar Bayramov: "İlin sonunadək avronun məzənnəsindəki azalma tendensiyası davam edəcək"
## Samir Əliyev: "Rusiya və Türkiyə valyutalarının ucuzlaşması Azərbaycanda bahalaşma dərəcəsini azaldır"

**Manatın devalvasiyasından sonra milli valyutamız xarici valyutalara nisbətdə bahalaşmağa başlayıb. Avro başda olmaqla, əksər valyutaların dollara nisbətdə ucuzlaşması Azərbaycan manatının da mövqeyini cüzi olaraq möhkəmləndirib. Bəs görəsən, dünya bazarında gedən proseslər Azərbaycan iqtisadiyyatına necə təsir göstərəcək? Ölkəmizin avro ilə saxlanan valyuta ehtiyatlarını nə gözləyir? Bu proses idxal və ixrac prosesində qiymətlərə təsir edəcəkmi?**

**İqtisadçı ekspert Vüqar Bayramov** bildirdi ki, avronun dollara nisbətən məzənnəsində proqnozlaşdırılan azalmalar davam etməkdədir: "Buna səbəb Avropa Mərkəzi Bankının 1,5 trilyon avro emissiya etməklə bağlı qəbul etdiyi qərardır. Avropa Mərkəzi Bankı birmənalı şəkildə son addımları ilə dünya bazarında avronun məzənnəsinin azalmasında maraqlı olduğunu nümayiş etdirməli oldu. Avronun məzənnəsinin aşağı düşməsi eyni zamanda avrozonaya imkan verir ki, ixrac qabiliyyətini artıra bilsin. Bu da hazırda böhran keçirən Avropa üçün olduqca əhəmiyyətlidir. Güman olunur ki, ilin sonuna doğru da avronun məzənnəsindəki azalma tendensiyası davam edəcək".

**İqtisadçının sözlərinə görə, avronun məzənnəsinin aşağı düşməsi Azərbaycan iqtisadiyyatına da təsir göstərir:** "Nəzərə alsaq ki, Azərbaycanın valyuta ehtiyatlarının 30 faizi avro ilə saxlanılır. Avro ilə saxlanılan ehtiyatların dollarla ifadəsində dəyər azalması müşahidə edilir. Eyni zamanda avronun ucuzlaşması Azərbaycana gətirilən malların dollar və manat ifadəsində dəyərinin azalmasına və Avropa ölkələrindən idxalın həcminin artmasına səbəb olacaq. Ancaq digər tərəfdən, Azərbaycan məhsullarının Avropaya idxalına çətinliklər yaranacaq. Avronun məzənnəsinin aşağı düşməsi ixrac baxımından arzuolunan deyil".

**Avronun ucuzlaşması prosesindən ziyana düşməmək üçün Vüqar Bayramov bir sıra təkliflər də səsləndirib:** "Yaxşı olar ki, avro ilə saxlanılan dövlət rezervlərinin dəyərinin azalmasının qarşısını almaq üçün mərhələli olaraq rezervlərin avrodan dollara keçirilməsi baş versin. Avrozonaya ixracla məşğul olan şirkətlərə subsidiya xarakterli, təşviqedici dəstəyin verilməsinə ehtiyac var ki, bu da onların xərclərinin bir qisminin qarşılanmasına imkan verər. Digər valyutaların məzənnəsində də dollara nisbətən kəskin ucuzlaşma müşahidə olunur. Dünyada hazırda dolların məzənnəsinin kəskin möhkəmlənməsi müşahidə edilməkdədir".

**İqtisadçı Samir Əliyev isə bildirdi ki, devalvasiyadan sonra manat bir qədər bahalaşıb:** "Fevralın 21-də devalvasiyadan sonra manat bütün valyutalara nisbətən 34 faizə qədər ucuzlaşdı. Düzdür, hökumət iqtisadi rıçaqlardan istifadə edərək bahalaşmanın qarşısını qismən aldı. İnzibati yolla bahalaşmanın qarşısının alınması müvəqqəti addımdır. Qiymət artımı təbii olaraq baş verir. Çünki idxal olunan mallar xarici valyuta ilə alınıb manata konvertasiya edəndə istənilən halda bahalaşır. Dünyanın maliyyə bazarında dollar möhkəmlənib və digər valyutalar ucuzlaşıb. Azərbaycan bazarına da bu tendensiya təsir edir. Manat rəsmi olaraq, dollara münasibətdə 0,08 faiz bahalaşıb. Eyni zamanda manatın digər valyutalara nisbətdə bahalaşması baş verib. Təsəvvür edin ki, devalvasiyadan sonra manat avroya nisbətən 6,2 faiz bahalaşıb. Eyni artım türk lirəsi ilə münasibətdə də baş verib. Bu onu göstərir ki, manat əgər devalvasiya günü digər valyutalara nisbətən məzənnəsini təxminən 34 faiz itirmişdisə, son günlər manat dollar istisna olmaqla, digərlərinə qarşı bu itkinin 6 faizini bərpa edə bilib. Bu isə o deməkdir ki, avrozonadan gələn mallarda qiymət artımı devalvasiyaya uyğun olaraq 34 faiz deyil, təxminən 26-27 faiz olmalıdır. Türk lirəsi də getdikcə dollara münasibətdə ucuzlaşır və bu da manata münasibətdə öz əksini tapır. Avropa ölkələri, Türkiyə və Rusiya bizim əsas idxal ölkələridir, oradan Azərbaycana xeyli miqdarda mal gəlir. Ona görə də bu ölkələrin valyutalarının dollara nisbətdə ucuzlaşması Azərbaycanda da bazara öz təsirini göstərməlidir və ölkədəki bahalaşma dərəcəsini bir qədər azaltmalıdır".

**İqtisadçının sözlərinə görə, Rusiya rublunun manata məzənnəsində devalvasiyadan sonra heç bir dəyişiklik baş verməyib:** "Bu səbəbdən Rusiyadan gələn malların qiymətində heç bir bahalaşma müşahidə edilməməlidir".

❑ **Nərgiz LİFTİYEVA**

# Bazar-dükanlarda gizli bahalaşma gedir

## Ərzaq və kənd təsərrüfatı məhsullarının qiyməti artır; un məmulatlarının isə həm də çəkisi azalır; qiymətlər heç bir həftə öncəki də deyil...

**Manatın ucuzlaşmasından sonra xaricdən gətirilən məhsulların, ondan az sonra isə yerli məhsulların qiyməti qalxdı. Aidiyyəti qurumlar bunun qarşısını almağa çalışsalar da, bahalaşma davam edir.**



Çörəklərin, şirniyyatların qiymətinin artması ilə yanaşı çəkisi də azalıb. Əvvəllər 30 qəpiyə satılan qoğal böyük olurdusa, indi həmin qoğal 50 qəpiyə satılır, çəkisi isə azalıb. Redaksiyamıza daxil olan məlumatlara görə, çörəyin çəkisində də əskiklik var.

Bazarlardakı qiymətlər isə əl yandırır. Baş çəkdiyimiz "Yaşıl bazar"da bir həftə öncəki qiymətlərin daha da qalxdığını müşahidə etdik. Belə ki, bir həftə əvvəl 80 qəpik -1 manata satılan kartof indi 1 manat 20 qəpik - 1 manat 30 qəpiyə satılırdı. 2 manata satılan pomidor 2 manat 50 qəpik 2 manat 80 qəpiyə, bir həftə öncəyədək kilosu 80 qəpiyə qədər bahalaşan kələm isə indi daha da bahalaşaraq 1 manata satılırdı. Xiyar 2 manat 30 qəpik, badımcan 2 manat 50 qəpik, bibərin bir kiloqramı 5 manat, soğan 80-90 qəpik, göyərti 20-25 qəpik, banan 2 manat 80 qəpik, portağal, mandarin 2 manat 50 qəpik, alma 80 qəpik - 2 manat arasında satılırdı.



Bazardakı bahalıq alıcılıq qabiliyyətinə də ciddi təsir göstərir. Satıcılar alıcıların azlığından şikayətlənirlər. Bazarda tikinti işləri getdiyindən, satıcılar öz yerlərindən, yəni bazarın bir başından o biri başına getdikləri üçün də müştəri itirdiklərini bildirirdilər.

**Kartof-soğan satıcısı Akif Nuriyev alıcıların az olduğunu və əvvəlki kimi qazana bilmədiyini dedi:** "Alıcı deməkolar ki, yox dərəcəsindədir. Əvvəllər kartofu, soğanı kisələrlə alan alıcı indi hərəsindən 1 kiloqram almaqla kifayətlənir. Bazarın da içində düzəlişlər edirlər deyə, müvəqqəti gəlmişəm, qapı tərəfdə satıram. Hər satıcının özünün daimi alıcısı olur. İndi o alıcılar da gəlib bizi tapa bilmir. Mən kartofu İrandan gətirirəm. Ona görə də baha satıram".

**Kələm satıcısı Ənvər Quliyev isə kələmi baha satmasının səbəbini tam olaraq açıqlaya bilmədi:** "Mən də bu kələmləri kimdənsə alıb gətirib satıram. O adam mənə baha verdiyi üçün mən də məcburam ki, üstünə 5-10 qəpik qoyub baha satım".

**Alıcılar da artıq bahalaşmadan təngə gəldiklərini bildirirdilər. Hansı alıcıya yaxınlaşdıqsa etiraz bildirdi. Alıcı Afaq Haqverdiyeva Novruz bazarlığına gəldiyini, ancaq bu bahalıqda heç nə ala bilmədiyini dedi:** "Şəkərbura-paxlava bişirəcəyəm, gəlmişəm ki, indidən qoz-fındıq alım. O da heç qoz-fındığa yaxın düşmək olmur. Qiymətləri od tutub yanır. Görəsən, bu camaatı da düşünən olacaq?"

**Söhbətə qatılan digər alıcı İsmayıl Abbasov da kəskin etirazını bildirdi:** "Nə bayram? Bu bahalaşmada hansı bayramdan söhbət gedə bilər? Gündəlik yeməyimizi ancaq ala bilirdik. Bahalaşmadan sonra çox şeydən özümüzü məhrum etmişik. Günə iki paket siqaret çəkirəm. O da od qiymətinə. Nə edim, yaşlı adamam. Çəkməyəndə əsəbiləşirəm. Bilmirəm siqaretə pul verim, ya ərzağa".

Mağazalarda da eyni vəziyyət idi. Bahalıq, özlərinə haqq qazandıran satıcılar və narazı alıcılar... Satıcılar yerli məhsulların firmalar tərəfindən baha gətirildiyini deyirdilər.

**Qeyd edək ki, bugünlərdə "Azərsun Holdinq" də qiymətləri artıracağı ilə ağlı açıqlama verib. Holdinqin Müşahidə Şurasının sədri Abdolbari Goozal manatın devalvasiyasına və bu hadisənin biznes sektoruna təsiri barədə fikirlərini açıqlayıb. Goozal bildirib:** "34 faiz devalvasiya az deyil. Acını hər kəs hiss etdi. Hazırda biz də bu acını çəkirik. Təməl qida məhsullarının istehsalı üzrə "Azərsun" xaricdən orta hesabla 50 faiz asılıdır. Bu bəzi məhsullarda 60 faiz, bəzi məhsullarda isə 10 faizdir. Məsələn, duz kimi. Bunun yükünü biz və idxalçı firmalar çəkir. İnşallah, yavaş-yavaş düzələcək. Manatın 34 faiz ucuzlaşması yerli istehsal olan məhsullarda 100 faiz deyil, 50 faiz əks olunacaq. İdxal mallarının isə devalvasiyanın 100 faizi qədər, yəni 34 faiz bahalaşması qaçılmazdır".



Xatırladaq ki, marketlərdə zəruri ərzaq məhsullarının əksəriyyəti "Azərsun"un istehsalıdır.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**



# Ölkəyə gələn turistlərin sayı azalıb

**"2014-cü ildə Azərbaycana 2 milyon 500 min turist gəlib. Ancaq ötən il bizdə turizm sahəsində çətinlik olub". ANS PRESS-in məlumatına görə, bunu mədəniyyət və turizm naziri Əbülfəz Qarayev 3-cü Beynəlxalq Xəzər enerji forumunda çıxışında deyib.**

O bildirib ki, bu azalma qonşu ölkələrdə baş verən iqtisadi-siyasi proseslərlə əlaqəlidir: "Rusiya, Gürcüstan və İrandan Azərbaycana gələnlərin sayı ümumilikdə təxminən 2-3% civarında azalıb. Təbii ki, Rusiyada iqtisadi vəziyyət bu ölkədən gələn turistlərin sayına təsir edib. Bu amillər Gürcüstan və İrandan gələn turistlərə də aiddir".

Nazir bildirib ki, son 5 ildə hotellərdə yerlərin sayı 5 dəfə artıb. Artıq ölkədə qonaqların yerləşdirilməsi üçün 35 minə qədər yataq var. Nazirin sözlərinə görə, hazırda Azərbaycanda hotellərin sayı 530-dan çoxdur.

"Bizim tam imkanımız var ki, gələn qonaqları qəbul edək. Biz qonaqlara çox ucuz qiymətlər qoymuruq. Çünki Türkiyə kimi dəniz ətrafında yerləşən ölkələrlə rəqabət apara bilmərik. Bizim məqsədimiz xidmətin çeşidliyini artırmaqdır", - deyə nazir vurğulayıb.

YENİ MÜSAVAT
N 55 (6083) 12 mart 2015

# Bakıda ilahiyyatçı həbs olundu

## "Təkamül" Tərcümə Mərkəzinin rəhbəri Ceyhun Cəfərov MTN əməkdaşları tərəfindən saxlanılıb, onun dövlət çevrilişində suçlandığı deyilir; sabah məhkəmə qarşısına çıxarılması gözlənilir



**İlahiyyatçı, "Təkamül" Tərcümə Mərkəzinin direktoru Ceyhun Cəfərov MTN əməkdaşları tərəfindən həbs olunub. Bu barədə "Yeni Müsavat"a ilahiyyatçının yaxınları məlumat verib. Hazırda MTN-də saxlanılan ilahiyyatçı ilə bağlı yaxınlarına heç bir məlumat verilmir.**

**İlahiyyatçının qardaşı Əlipaşa Cəfərov** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, qardaşı ilə birlikdə bir neçə gün İranda müalicədə olub. Azərbaycana ötən həftənin 4-cü günü gəliblər və bu zaman MTN-dən zəng edərək C.Cəfərovu nazirliyə dəvət ediblər: "Mənim böyrəklərim tutulmuşdu. Müalicə məqsədilə İranın Urmiya şəhərinə getmişdik. Orda əməliyyat olundum, İranda 8 gün qaldıq. Ötən həftənin 4-cü günü qayıtdıq Azərbaycana. Hələ Bakıya çatmamışdıq, yolda Ceyhunun telefonuna zəng gəldi. Həftənin 2-cü günü saat 10-da MTN-ə dəvət etdilər".

**Ə.Cəfərov deyir ki, qardaşı dünəndən MTN-ə ifadə vermək üçün getsə də hələ də ondan bir xəbər ala bilmirlər. Əvvəlcə onlara MTN Yasamal İdarəsinə müraciət etmək məsləhət görülsə də, ordan geri qaytarılıblar:** "Dünəndən 6-7 dəfə MTN-ə getmişik, heç bir məlumat verilmir. Yasamala rayon idarəsinə getdik, orda dedilər ki, bizdə adam saxlamaq mümkün deyil. Yenidən nazirliyə gəldik, axırda bizə bir nömrə verdilər, dedilər ki, vəkildir. Əyyub adlı vəkil bizə bildirdi ki, Ceyhuna qarşı dövlət çevrilişi ittihamı irəli sürülür, amma qəbul etmir. Ola bilsin sabah məhkəməyə çıxarılsın. Biz də indi narahat olmuşuq, axı bu ittiham hardan çıxdı, o, necə dövlətə qarşı çıxış edə bilərdi?"

Qardaşı bildirdi ki, Qafqaz Müsəlmanları İdarəsinə müraciət edərək Şeyxülislamla görüşməyə cəhd edəcəklər. Qeyd edək ki, ilahiyyatçı Ceyhun Cəfərov İslam Universitetində dərs deyib, "Space" telekanalında "Gecə söhbətləri" dini verilişində aparıcı olub. Eyni zamanda "Təkamül" Tərcümə Mərkəzinin direktoru olub, onlarla kitabın tərcüməçiliyini, redaktorluğunu edib. Bu nəşriyyat tərəfindən İslam dinində ən mükəmməl Quran təfsirlərindən olan "əl-Mizan" təfsiri tərcümə olunaraq nəşr olunub. Eyni zamanda C.Cəfərov Həcc ziyarəti zamanı QMİ tərəfindən zəvvar qruplarına rəhbərlik edib, ziyarətin təşkili və düzgün yerinə yetirilməsində zəvvarlara yardım edib.

❑ KƏNAN

# Bakı-Sumqayıt yolunda dəhşətli qəza - «04» kül oldu



**Bakı-Sumqayıt yolunun Ceyranbatan qəsəbəsi ərazindən keçən hissəsində ağır yol-nəqliyyat hadisəsi baş verib. Hadisə şahidləri bu barədə avtosfer.az-a məlumat verib. Sumqayıt istiqamətində hərəkətdə olan «VAZ-2104» markalı avtomobil qəflətən geriyə dönmə əməliyyatı etmək istəyib. Bu zaman arxadan «Ford-Transit» markalı yük avtomobili «04»ü ortadan vurub.**

Nəticədə «04» yerindəcə alışmağa başlayıb. Bir neçə dəqiqə ərzində avtomobil tam yanaraq yararsız vəziyyətə düşüb. Əraziyə gələn yol polisi əməkdaşları yolda təhlükəsizliyi təmin ediblər. Qəza nəticəsində «04»ün sürücüsü ağır xəsarət alıb.

# Avtobusların marşrutu dəyişir

**Avropa Oyunları ilə əlaqədar hərəkət istiqaməti dəyişdiriləcək marşrut avtobusları bəlli oldu.**

ANS TV-nin məlumatına görə, artıq Nəqliyyat Nazirliyi bununla bağlı xüsusi sxem hazırlayıb. Sxemdə oyunların təşkil olunduğu ərazilərdə hərəkət edən marşurut avtobuslarının nömrələri yer alıb.

Belə ki, Ziya Bünyadov prospektində hərəkətdə olan 133, 171, 1 saylı avtobusların, eləcə də Bayıl istiqamətində xəttə çıxan 120,124, 88 saylı avtobusların hərəkət istiqamətində dəyişikliklər olacaq. Hazırda sxem üzərində işlər aparılır. Nəqliyyat Nazirliyindən verilən məlumata görə, oyunların keçirildiyi daha bir neçə ünvanda avtobusların hərəkət istiqaməti dəyişdiriləcək.

NN-in mətbuat xidmətinin rəhbəri Namiq Həsənov avtobusların dəyişəcək istiqamətinin aprel ayında açıqlanacağını bildirdi.

İstiqaməti dəyişdirilən avtobuslar üçün alternativ yollar müəyyən ediləcək.

Hazırda nazirlik istiqaməti dəyişdiriləcək avtobusların mənzil başına rahat çatması üçün alternativ yollar axtarır. Qurumdan bildirirlər ki, sərnişinlər bu alternativ yollar vasitəsilə əvvəlki qaydada istədikləri ünvana gedə biləcəklər. Bu işlərin həyata keçirilməsində məqsəd isə oyunlar ərəfəsində yollardakı xoşagəlməz halların qarşısını almaqdır.

Nazirlikdən şəxsi avtomobil sürücülərinə də xəbərdarlıq olunur ki, mümkün qədər ictimai nəqliyyat vasitələrindən istifadə etsinlər.

# «Bakcell» Azərbaycanda ən sürətli mobil internet xidməti təqdim edir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti ölkədə ən sürətli mobil internet xidmətini təqdim edir. «Ookla» şirkətinin «Netindex» reytinqinə əsasən, «Bakcell» şirkəti mobil operatorlar arasında mobil data trafikinin sürətinə görə rəqibləri ilə müqayisədə daha yüksək göstəriciləri ilə 1-ci yerdə (13.2 Mbps), ölkənin əsas internet provayderləri (şəhərlərarası və sabit şəbəkə operatorları daxil olmaqla) arasında isə internet trafikin sürətinə görə 3-cü yerdədir (10.41 Mbps sürətlə). Bu reytinq Azərbaycanda İnternet provayderləri və mobil operatorların abunəçilər tərəfindən ən azı 100 dəfə speedtest.net və ya pingtest.net vasitəsilə ölçülmüş statistik indikatorlarının nəticələri əsasında formalaşmışdır.**

**2011-ci ildə 3G Sür@ xidmətinin istifadəsinə start verildikdən sonra «Bakcell» şirkəti müxtəlif müstəqil şirkətlər tərəfindən, o cümlədən, Ookla şirkətinin Netindex reytinqinə əsasən həyata keçirilən testlərin nəticələrinə görə ölkədə ən sürətli Mobil İnternet təcrübəsini təmin etməyə başladı.**

**"Hazırda 2000-dən çox abunəçi «Bakcell» şirkətinin 4G LTE xidmətini test etmək və Azərbaycanda ən sürətli mobil internetdən istifadə etmək imkanına malikdir. «Bakcell» şirkətinin təmin etdiyi Mobil İnternet xidmətinin son yüksək nəticələri göstərir ki, şirkət müştərilərə ən keyfiyyətli mobil data təcrübəsinin təmin edilməsində öz mövqelərini gücləndirməkdədir. Biz hər il şəbəkəmizə investisiya edir, onu təkmilləşdirir və ölkənin aparıcı mobil internet provayderi olmaqda davam etməyə çalışırıq", «Bakcell» şirkətinin baş texniki direktoru cənab Yigit Berktaş deyir.**

**Ookla şirkəti dünya üzrə genişzolaqlı sınaqlar və internet əsasında qurulmuş diaqnostika proqramları sahəsində liderdir. Şirkətin proqram təminatı və metodologiyası genişzolaqlı şəbəkə xidmətləri sənayesi üzrə statistik məlumatların dəqiqliyi, tanınması, istifadə asanlığı və sonrakı inkişafının etalonudur. Xidmətin yarandığı vaxtdan 2015-ci ilə qədər Ookla şirkəti tərəfindən yeddi milyarddan artıq sürət testi həyata keçirilmişdir.**

# Qızıl dünyada ucuzlaşır, Azərbaycanda isə bahalaşır

**Manatın devalvasiyasından sonra Azərbaycanda idxal olunan qızılın qiymətində də artım müşahidə edilməkdədir. Ancaq Azərbaycandan fərqli olaraq, dünya bazarında qızılın qiyməti ucuzlaşmağa doğru meyllənib. Proqnozlara görə, 2015-ci ilin sonuna qədər qızılın qiymətində azalmalar davam edəcək.**

Dünya bazarında qızılın son durumundan danışan **Vüqar Bayramov** da təsdiqlədi ki, son aylarda qızılın qiymətində ucuzlaşma müşahidə edilir: "Nəzərə alsaq ki, hazırda dünya bazarında qızılın bir qramının qiyməti 37 dollardır. Qızılın bir unsiyasının qiyməti isə 1160 dollara təklif olunur. Son bir ayda dünya bazarında qızılın qiymətində 7 faizə yaxın azalma olub. Son 6 ayda qızıl 6,7 faiz ucuzlaşıb. Son bir ildə isə qızılın qiymətində 14 faiz azalma müşahidə olunub. Bu statistika qızılın qiymətinin ucuzlaşmağa doğru meylləndiyini göstərir. Səbəb isə qızıla olan tələbatın azalmasıdır. Eyni zamanda tələbatın azalması fonunda, bazara çıxarılan qızılın həcmi də artıb. Bəzi dövlətlər qızıl ehtiyatlarını satmağa başlayıblar ki, bu da təklifin artmasına səbəb olub".

**Ekspert onu da bildirdi ki, proqnozlar dünya bazarında qızılın qiymətində azalmaların davam edəcəyindən xəbər verir:** "Bu, eyni zamanda Azərbaycana idxal olunan qızılın maya dəyərinin azalmasına gətirib çıxarıb. Azərbaycan bazarına gətirilən qızılın qiyməti dollarla ifadədə xeyli dərəcədə ucuzlaşsa da, devalvasiyaya görə manatla ifadə edərkən qızıl bahalaşmış olur. Bu baxımdan, idxal olunan qızılın qiymətinin dollarla ifadəsində ucuzlaşma, manatla ifadəsində isə bahalaşma nəzərə çarpır. Qızılın ucuzlaşmasından sonra investorların bir qismi artıq qızıl bazarından öz sərmayələrini çəkərək, valyuta bazarına yönəldirlər. Eyni zamanda bu, Azərbaycan büdcəsində dollarla saxlanılan ehtiyatların dollarla ifadə olunan dəyərinin azalması deməkdir".

❑ Nərgiz LİFTİYEVA

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

**Təcili satılır**

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04

**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**
**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 55 (6083) 12 mart 2015



# Aslan Aslanovun "arqan əməliyyatı" haqda yeni xəbər

## Şəmkirdəki kirxadan oğurlanan, qiyməti milyonlarla dollarla ölçülən əntiq arqanın axtarışına başlanıb; kommunistlərin talamadığı kilsədəki musiqi alətini 10 min dollara satıblar!

**"Lamiyə işi"ndə əsas fiqurant, Şəmkirin sabiq icra başçısı, sonradan kənd təsərrüfatı nazirinin müavini olmuş Aslan Aslanovun köhnə əməli haqda yeni xəbər almışıq. Redaksiyamıza daxil olan məlumata görə, sabiq məmurun gürcülərə satdığı iddia edilən əntiq arqanın geri qaytarılması üçün axtarışlara başlanıb. Həmin arqan 1819-cu ildə Şəmkirə köç etmiş alman ailələri tərəfindən tikilən kirxada (alman kilsəsi) 1909-cu ildə quraşdırılıb.**

Şəmkir şəhərinin 2-ci küçəsi kimi tanınan ərazidə inşa olunan Allah evində həmin arqan uzun illər istifadədə olub. 67 alman ailəsinin maliyyəsi hesabına inşa edilən kirxada quraşdırılan arqan 1998-ci ildə oradan oğurlanıb. Maraqlıdır ki, 1941-ci ildə Almaniyanın SSRİ-yə hücumundan sonra alman ailələri Şəmkirdən Sibirə sürgün edilsələr də, rəsmən Allahsız olan bir quruluşun səlahiyyət sahibləri Allah evindən arqanın götürülərək əridilməsi kimi hərəkətə yol verməyiblər. Halbuki həmin illərdə rəngli metala tələbat həddən ziyadə çox olub. Allahsız kommunistlərin atmaqdan çəkindikləri addım A.Aslanovun Şəmkirin icra başçısı olduğu dövrdə atılıb. Arqan oğurlanaraq satılıb! Konkret rəqəm də var - 10 min dollara!

**Güman edilir ki, arqan hazırda Gürcüstan paytaxtındakı kilsələrdən birində quraşdırılıb. Arqanın müəyyən edilərək tarixi məkanına - Şəmkirdəki alman kilsəsinə qaytarılması planlaşdırılır. A.Aslanovun "arqan əməliyyatı" haqda "Yeni Müsavat"ın 29 oktyabr 2013 tarixli sayında yer alan "Aslan Aslanovun köhnə cinayəti üzə çıxdı" sərlövhəli yazıda söhbət açılırdı. Həmin yazını müəyyən ixtisarla təqdim edirik:** "Aslan Aslanov Şəmkirdə işlədiyi müddətdə də dəhşətli əməllər törədib. Aslan Aslanovun satdığı, yeri boş qalan arqanı yerinə qoymaq əziyyəti vergilər naziri, bölgənin hazırkı kuratoru Fazil Məmmədovun boynunda qalıb. A.Aslanov Şəmkir rayonunun icra başçısı olarkən rayonun 2-ci küçəsində yerləşən tarixi Alman kilsəsindəki arqan musiqi alətini 10 min dollara gürcülərə satıbmış. Əntiq əşya statusunda olan və maddi dəyəri milyonlarla ölçülən bu nadir əşya başçının tamahına qurban gedib. Hadisənin içində olan bir Şəmkir sakini deyib ki, həmin vaxt alman kilsəsi təmirsiz və xaraba vəziyyətdə olub. Qədim arqan da pozulmuş halda imiş. Onun barəsində eşidən Giya adlı bir gürcü arqanı alaraq, Tiflisdəki kilsələrdən birinə bağışlamaq qərarına gəlib. Buna görə A.Aslanova çıxış axtarıblar. "Marnaullu Eldar" kimi tanınan birisi vasitəsilə bu əlaqə qurulub. Gürcü Giya bu nadir arqanı nəhayətdə 10 min dollara ala bilib. Mənbəmiz deyir ki, xatırladığına görə, hadisə 1998-ci ildə olub. Həmin vaxtlar Aslan Aslanov bütün bölgənin kuratoru sayılırdı və eyni zamanda Gürcüstan azərbaycanlılarının da problemləri guya onun üzərində idi...

Məsələnin mabədi daha maraqlıdır. Aslan Aslanovun satdığı, yeri boş qalan orqanı yerinə qoymaq əziyyəti vergilər naziri, bölgənin hazırkı kuratoru Fazil Məmmədovun boynunda qalıb. Belə ki, Şəmkirdə bərpa edilən Lüteran kilsəsinin açılışı və daha sonra prezident İlham Əliyev tərəfindən *(2013-cü ilin 10 sentyabrında)* ziyarəti zamanı kilsədə orqan olmasına ehtiyac yaranıb. Proqramı öncədən tərtib edən Fazil Məmmədov



kilsə üçün 2.8 milyon avroya İtaliyadan arqan aldırıb və yerinə qoydurub".

Həmin yazıda qeyd edilir ki, Şəmkirdəki Lüteran kilsəsinin bərpası və əsaslı təmiri Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə həyata keçirilib. Kilsədə bərpa işlərinə 2012-ci ilin mayında başlanılıb, 2013-cü ilin iyulunda sona çatdırılıb. 1909-cu ildə almanlar tərəfindən inşa edilən kilsə uzun illərdən sonra yenidən bərpa olunub, ərazisi abadlaşdırılıb və park salınıb. Prezident kilsəni ziyarət edən zaman yeni alınan arqanın müşayiəti ilə xor kollektivinin çıxışını dinləyib.

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.*** *Aslan Aslanovu dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# "1000 manatlıq fahişələr"in saytı açıldı və... bağlandı

## Məşhur Hollivud aktrisasını Azərbaycana "gətirən" "işbazlar" kimdir?

**İnternetdə yeni, Azərbaycanda eskort-xidmətlər təklif edən ilk sayt yaradılıb. Azxeber.com saytının xəbərinə görə, bakuescortgirls saytı ".com" domen zonasında yaradılıb. Saytda ön səhifədə "xanımlar" tərif edilir: "...Bizim gözəl xanımlarımız öz gəncliklərı, zərifliyi, həssaslığı ilə sizi heyran edəcək və siz əlbəttə ki, onların xidmətlərindən razı qalacaqsınız. Siz özünüz də əmin ola biləcəksiniz ki, biz ən yüksək standartlara sadiqik və ən gözəl qızlarla əməkdaşlıq edirik".**

İnternetdə apardığımız axtarış nəticəsində məlum oldu ki, bu sayt Kristina Novikova adlı şəxs tərəfindən yaradılıb, saytın sahibinin ünvanı Bakının Mirzəağa Əliyev küçəsində yerləşir.

Saytda 7 qızın fotoşəkli yerləşdirilib və onlar aşağıdakı adlarla çıxış edirlər: Kristi, Olqa, Lətifa, Feyza, Uliana, Culiya və Xədicə.

Həmçinin saytda eskort-xidmətlərin qiymətləri də göstərilib. Belə ki, qızlardan biri ilə görüşün 1 saatının qiyməti 300 manatdır. 2 saatın qiyməti 450, 4 saatın qiyməti isə 600 manat təşkil edir. Qızlardan biri ilə gecə keçirmək 1000 manata, qızı 24 saatlıq məşğul etmək isə 1500 manata başa gələcək. Bundan başqa, saytda qiymət endiriminin mümkün olmadığı göstərilir, necə deyərlər, "aşağı yeri yoxdur".

**Saytın "Haqqımızda" bölməsində isə aşağıdakılar yazılıb:**

"Baku Escort" şirkəti dünya səviyyəli eskort şirkətidir, öz müştərilərinə zərif qızları təklif edir. Biz biznes, təkbətək görüş, rəqs, yaxud kamın qarşısında şərab qədəhi ilə müşayiət olunacaq privat gecə üçün eskort xidmətləri təqdim edirik. Bütün əməkdaşlarımız əvvəlcədən yoxlanılır və ən gözəl xarici görünüş, yaş, danışmaq və istənilən şəxsin həyatını bəzəmək qabiliyyətləri üzrə seçilirlər. Biz müştərilərimiz üçün ən yaxşı xidmətləri təmin etmək və onların istənilən kaprizləri, fantaziyalarını ödəyə



bilmək imkanımızla fəxr edirik. Bir neçə saatlıq əylənmək istəyirsiniz? Siz gözəl qızın eskort xidmətlərini birbaşa hotelinizə sifariş verə bilərsiniz. O, sizinlə istədiyiniz qədər qalacaq və sizə unudulmaz birgə istirahət bəxş edəcək".

Qeyd edək ki, Vikipediyanın yazdığına görə, eskort-xidmətlər müştərinin müvafiq imicinin formalaşdırılması üçün onun görüşlərdə, istirahətlərdə müşayiət olunması deməkdir. Əksər hallarda eskort-xidmətlər adı altında gizli fahişəliklə məşğul olurlar...

Bu, Azərbaycanda ilk olsa da, saytın saxta olduğu elə ilk saatlarda ifşa olundu. Məhz bu səbəbdən günün sonuna qədər saytın fəaliyyəti dayandırıldı. Saytın saxta olması isə orda reklam edilən qadınların kimliyi ilə bağlı idi. Belə ki, məşhur amerikalı aktrisa, rejissor və prodüsser Yeva Lonqoriyanı sayt "fahişə Lətifə" kimi təqdim etmişdi. Halbuki Y.Lonqoriya bu günə qədər çoxlu sayda filmdə və "Ümidsiz Ev Qadınları" adlı məşhur serialda çəkilib. Bundan başqa, saytda qeyd edilən telefon nömrəsinə zəng vurmaq mümkün olmayıb, zəngə cavab verilməyib. Y.Lonqoriyadan başqa saytda azərbaycanlı fahişə qadınlar kimi təqdim edilən şəxslər rusiyalı və ukraynalı modellər olub.

**"Təmiz Dünya" təşkilatının sədri Mehriban Zeynalova "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əslində bu durumu insan alveri kimi qiymətləndirmək olmaz. Çünki insan alverində bir şəxsin istismarından söhbət gedir:** "İnsan alverində bir şəxsin istismarı digəri tərəfindən olur və bundan gəlir götürülür. Amma bu sayt məsələsində şəxs müstəqildir. Bunun adı fahişəlikdir. Cinayət Məcəlləsində isə fahişəlik cinayət sayılmır. İnzibati Xətalar Məcəlləsinə görə, bununla bağlı hansısa cəza nəzərdə tutula bilər. Amma "bu sayt fahişəliyin leqallaşdırılması üçün ilkin addımdır" deyənlər var. Bununla yanaşı, belə saytların bütün dünyada olması ilə bağlı fikirlər də geniş yayılıb. Bir şeyi unutmamalıyıq ki, bu cür saytların yaranması Azərbaycan kimi cəmiyyətlərdə qıcıq doğurur. Bizə elə gəlir ki, problemi görmürük. Amma açıq şəkildə xidmətlər təklif edilir. Bu cür detallar milli-mənəvi məqamlarda özünü kəskin şəkildə göstərir. Ümumiyyətlə isə belə saytlar qadınların istismar olunması, onların aşağılanmasıdır. Son nəticədə istismara gətirib çıxarır. İş yerinə gedən qadının xarici görkəminə görə qiymətləndirilməsi istismardır".

**M.Zeynalovanın sözlərinə görə, fahişəlik tarixin bütün dönəmlərində olub və olacaq. Müsahibimiz dedi ki, qadının, onun əməyinin, beyninin iqtisadi cəhətdən qiymətləndirilməsi öz yerini tapmadığına görə fahişəlik də geniş yayılır:** "Amma bəzi ölkələrdə fahişəliyi bu cür leqallaşdıran şəxslər, bu formada evlər açanlar avtomatik vergi ödəyicisinə çevrilir. Bu gün bu sayt açılırsa, vergi ilə məşğul olan qurumlar onunla maraqlanmalıdır. Saytda bunun elan edilməsi bu fəaliyyətin rəsmən təsdiqlənməsi anlamına gəlir. Bütün fəaliyyətlər üzrə vergi yığılırsa, seks işçilərindən də vergi yığılmalıdır".

Müsahibimiz saytda intim xidmət üçün təklif olunan qiymətlər barədə də danışdı. Dedi ki, bu sahədə çalışanların təklif etdiyi xidmət və qiymətlər hər zaman fərqli olub. M.Zeynalovanın sözlərinə görə, küçədə, barda, saunada, evdə fəaliyyət göstərənlərlə yanaşı, çox yüksək imkanlı şəxslərə xidmət edib, astronomik məbləğ alanlar da var.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 55 (6083) 12 mart 2015



## 2 min 300 illik xəzinə

İsrail paytaxtında aparılan qazıntı işləri zamanı 2 min 300 illik tarixi olan xəzinə tapılıb. Mədəndə qızıl pullardan başqa üzük, qolbağı və boyunbağı da varmış. Zinət əşyalarından ibarət olan kolleksiyanın Böyük İsgəndərin dövründən qaldığı deyilir. Ötən ay da həmin əraziyə yaxın yerlərdə dəyəri iki min dollar olan qızıl sikkələr tapılmışdı.




## 93 yaşında dünya rekordu

İngiltərədə təşkil edilən yarışda qaçan 93 yaşlı kişi dünya rekordu vurub. Təqaüdçü diş həkimi Çarles Eugester 200 metrlik məsafədə birinci yeri tutub, eyni zamanda dünya rekordunu da təzələmiş olub. Yaşı 90-dan çox olan yaşlıların yarışdığı marafonun sonunda Eugester özünü yaxşı hiss etdiyini deyib. Londonlu Çarles Eugester atletizmdən başqa, kürək idman növü ilə də məşğul olur.



## 1 saatlıq kirayə ər

Moskva bələdiyyəsi evindəki təmir işlərini görə bilməyən yoxsul ailələrə pulsuz "kirayə ər" xidməti təklif edəcək. "The Moscov Times" qəzetinin xəbərinə görə, bələdiyyənin atdığı addım nəticəsində yoxsul ailələr evlərində xarab olan hər şeyi pulsuz təmir etdirə biləcəklər. Moskvada bu xidmət ilk dəfə təklif edilmir. Çünki daha əvvəllər də "Bir saat üçün kirayə ər Moskva" adlı özəl bir şirkət bu xidməti göstərirdi. Artıq pulsuz göstəriləcək olan kirayə ər xidmətindən hər kəs istifadə edə biləcək.

# Ürəyi dayandı, iti xilas etdi

İngiltərədə yaşayan Joanna Mellor adlı qadın yuxusunda infarkt keçirib. Sevgilisinin yanında yatan qadının nəfəs almadığını görən it hürməyə başlayıb. Leo adlı itin səsinə oyanan Andre Rayment sevgilisini xilas etmək üçün təcili tibbi yardım maşını çağırıb. Həkimlər Mellorun xəstəxanaya gəldiyi zaman tibbi olaraq ölü olduğunu deyiblər. 30 dəqiqə ərzində qəlbi durmuş halda qalan qadın həkimlərin müdaxiləsindən sonra həyata qayıdıb. İtinin köməyi nəticəsində xilas olan qadın yenidən həyata qayıtdığı üçün xoşbəxt olduğunu deyib.



# İnsan ömrünü uzadan dərman?

Təxminən 500 il əvvəl Ponçe de Leon adlı ispan səyahətçisi gənclik eleksiri sorağında indiki Floridaya tərəf istiqamət almışdı. Bu yaxınlarda alimlər dünyada ən geniş istifadə olunan dərmanın belə bir funksiyaya malik olduğuna dair maraqlı əlamətlər aşkar ediblər. Ibuprofen (Aybobrufen) adlı dərman 1960-cı illərdə ixtira edilib. İnsanlar bu preparatdan ağrıkəsici kimi, soyuqdəymə və qızdırmanın qarşısını almaq üçün hər gün istifadə edir. Araşdırmanın nəticələri göstərib ki, Ibuprofen üzərində tədqiqat aparılan orqanizmlərin həyatını 10-dan 15 faizə qədər uzadıb. Texasın A&M Universitetindən kimyaçı-bioloq Maykl Polimenis iş yoldaşları ilə birlikdə göbələk, parazitlər və meyvə qurdları kimi sadə orqanizmlər üzərində tədqiqat aparıb. Araşdırmanın nəticələri göstərib ki, Ibuprofen üzərində tədqiqat aparılan orqanizmlərin həyatını 10-dan 15 faizə qədər uzadıb.

"Hazırda bu o qədər də uzun ömür kimi görünmür, lakin bu, 8 il əlavə sağlam həyat deməkdir. Demək, bu əhəmiyyətlidir" deyə, Polimenis bildirir. Alim İbuprofenin təkcə uzun ömür deyil, həm də sağlam ömür vəd etdiyini deyir. "Soxulcanlara gəldikdə, dərman verdiyimiz həşəratların sağlam olduğunu bilirik. Onlar daha sürətlə hərəkət edirdi. Biz heç bir yan təsir görmədik. Beləliklə, onların ömrü sağlam keçəcək".






## Bu şəhərdə söyüş pulladır

Kanadanın Albert şəhərində söyüş söyənlər və bəzi nalayiq hərəkətlər edənlərə xüsusi cəza verilir. Bələdiyyə məclisinin qərarı ilə şəhərdə bağırmaq, yerə tüpürmək, yüksək səslə musiqi dinləmək, söylənmək, gecə 11-dən sonra əhalini narahat etmək, boş-boş gəzmək və dilənmək qadağan edilib. Bu hərəkətləri edənlərə pul cəzası veriləcək. Bələdiyyə sədri qərarlarının mükəmməl olmadığını bildiyini, lakin xalqın rahatlığı üçün bunları etmək istədiyini dilə gətirib. Şəhərdə edilən yanlış hərəkətlərin cəzası isə belədir:

- Divarlara şəkil çəkmək - 2 min, 5 min, 7 min dollar;
- Şəkilləri cırmaq - 250, 500, 1000 dollar;
- Yerə tüpürmək - 75, 100 dollar;
- Küçədə dalaşmaq - 250, 500, 750 dollar;
- Boş-boş gəzmək - 500 dollar;
- Dilənmək - 300 dollar;
- Bağırmaq - 500 dolar;
- Toplu halda bağırmaq - 10 min dollar.




**QOÇ** - Neçə gündən bəri davam edən aşağı ovqatınız nəhayət ki, saat 11 radələrindən yüksəlməyə başlayacaq. Bu isə ətrafınızla mündsibətlərdə müsbət çalar yaradacaq. Bu gün uzaq yola çıxmayın.

**BUĞA** - Daxili tərəddüdləriniz nəhayət ki, arxada qalacaq və siz öz öhdəliklərinizi ləyaqətlə icra edəcəksiniz. İndiki həssas mərhələdə kin-kidurət və qisasçılıq amillərini dondurun.

**ƏKİZLƏR** - Təbiət qoynunda istirahət etməyiniz, çoxdan görmədiyiniz doğma və yaxınlarınıza baş çəkməyiniz daxili sabitliyinizi bərpa edəcək. Günün sonuna doğru maraqlı informasiyalar alacağınız gözlənilir.

**XƏRÇƏNG** - Günün ümumi mənzərəsi qənaətbəxşdir. Qarşılıqlı münasibətlərdən tutmuş səhhətinizə qədər çox şey sizi qane edəcək. Amma fiziki işlər və yeni sövdələşmələrlə bağlı neytral olmalısınız.

**ŞİR** - Səhər saatlarında bəzi qanqaraçılığı gözlənilsə də, təmkininizi qorumaqla bu mərhələni itkisiz başa vura bilərsiniz. Sonrakı müddətdə isə mövqelərinizi daha da bərkidə biləcəksiniz.

**QIZ** - Bütün gücünüzü münasibətlər sistеminə yönəldin. Çünki astroloji göstəricilər yalnız deyilən sahədə passivlik olduğunu bildirir. Maliyyə və iş sahəsində isə uğurlu gündür.

**TƏRƏZİ** - Daha çox istirahətə yer ayırın. Daxili orqanlarınıza diqqət ayırmaqla bahəm, yaşadığınız mənzildə yenidənqurma işləri aparmağa dəyər. Saat 19-22 aralığında yeniliklər də gözlənilir.

**ƏQRƏB** - Səfərə çıxmaq üçün uğurlu gün olsa da, gərək yola çıxmağınız məhz işgüzar məna kəsb eləsin. Əks halda, uzaq məsafə qət etməyiniz ovqatınızı yüksəltməyə bilər. Bu gün müqəddəs məkanlara da baş çəkin.

**OXATAN** - Bürcünüzdəki kosmik fon iştirakçısı olduğunuz proseslərə müsbət çalarlar verəcək. Xüsusən də iş müstəvisində irəliləyişlərin şahidi olacaqsınız. Sənədlərlə bağlı diqqətli olun.

**OĞLAQ** - Göy qübbəsi yaxşı alış-veriş etmək üçün əla bir günə qədəm qoyduğunuzu bəyan edir. Çatışmayanları əldə etməyə çalışın. Saat 16-dan sonranı isə bütünlüklə sevgiyə həsr edin.

**SUTÖKƏN** - Özünüzü zəif bilməyin və hədəfinizə yetişmək üçün mübarizə meydanında məğrur dayanın. Bunu bacardığınız təqdirdə günün sonuna qədər qələbə işartılarını özünüz də görəcəksiniz.

**BALIQLAR** - Qarşınızda sakit bir təqvim dayanıb. Bu səbəbdən gücünüzə və şəraitə uyğun olan istənilən addımı ata bilərsiniz. Səhhətiniz imkan verməsə, səfərə çıxmayın. Ulduzlar büdcənizdə irəliləyiş vəd edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 7500 heyvan yeyirmişik



Uzun müddət davam edən araşdırmalardan sonra məlum olub ki, normal insan ömrü boyu 7500 heyvanın ətini yeyir. İnsanları ət yeməkdən yaşamağa təşviq edən Vegeterian Calculator saytı bir insanın həyatı boyunca nə qədər ət yediyini və beləliklə neçə heyvanın öldürdüyünü aydınlaşdırmaq üçün belə bir araşdırma aparıb. Orta hesabla 70-80 il yaşayan bir insan yaşadığı müddət ərzində 7500 heyvan yeyir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300